RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 14 (10034) 24 yanvar 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## Azərbaycan-ABŞ əlaqələri strateji tərəfdaşlığa əsaslanır

## Dostluqdan və rəğbətdən qlobal sülh memarlığına gedən yol

**Davos zirvəsi Azərbaycan və ABŞ arasında strateji münasibətlərin təqdimat platformasına çevrildi. Yanvarın 22-də İlham Əliyevlə Donald Tramp arasında keçirilən görüş, sadəcə, iki dövlət başçısının dialoqu deyil, Bakı ilə Vaşinqton arasında yaranan strateji tərəfdaşlığın və planetar nizamda Azərbaycanın artan rolunun ifadəsi idi.**

Davosda liderlərin səmimi görüşündə Donald Trampın yenidən hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu vurğulandı. Artıq regionda sülhün mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bunun iki ölkə arasında ticarət münasibətlərinin yaranmasında da özünü göstərdiyini bildirdi.

Dövlət başçısı İlham Əliyev görüşdə TRIPP layihəsinin regional bağlantılar baxımından mühüm rol oynadığını qeyd etdi. Söhbət zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasının əhəmiyyətinə də toxunuldu. Bu qurumun Yaxın Şərqdə sülhü möhkəmləndirmək, eyni zamanda qlobal münaqişələrin həllinə töhfə vermək baxımından önəmi qeyd edildi. Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümü kimi qiymətləndirildi. Liderlər ikitərəfli əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar. Xatırladaq ki, yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib. Prezident İlham Əliyevlə yanaşı, digər dövlət və hökumət başçıları da "Sülh Şurasının Nizamnaməsi" sənədini imzalayıblar. Azərbaycanın Sülh Şurasına təsisçi üzv dövlət qismində dəvət olunması isə ölkəmizin beynəlxalq sistemdə qazandığı siyasi etimadın, funksional rolunun və qlobal nüfuzunun məntiqi nəticəsi kimi dəyərləndirilir.

Azərbaycan-ABŞ münasibətləri dəyişən yeni dünya nizamında mühüm əhəmiyyət kəsb edir. Donald Trampın "Öncə Amerika" siyasəti ilə İlham Əliyevin "Güclü Azərbaycan" doktrinası arasındakı qeyri-adi vəhdət Azərbaycanı ABŞ üçün, sadəcə, enerji tərəfdaşı deyil, qlobal sülhün əsas memarlarından birinə çevirir. Donald Trampın praqmatizmi ilə İlham Əliyevin uzaqgörən siyasətinin birləşməsi Vaşinqtonla Bakını heç vaxt olmadığı qədər yaxınlaşdırır. ABŞ rəhbərinin İlham Əliyevə olan şəxsi rəğbəti və etimadı rəsmi kanalları daha çevik və səmimi dialoq platformasına çevirir. Liderlər arasındakı yaxın və səmimi dostluq münasibətləri mürəkkəb diplomatik prosedurları sürətləndirərək, təhlükəsizlik və iqtisadiyyat sahələrindəki əməkdaşlığı keyfiyyətcə yeni mərhələyə yüksəldir. Bu amil təhlükəsizlikdən tutmuş iqtisadiyyata qədər hər bir sahədə ikitərəfli bağları daha da möhkəmləndirən hərəkətverici qüvvədir.

Donald Trampın Azərbaycan liderinə münasibəti təkcə siyasi bəyanatlarla deyil, həm də diplomatik etiketin fövqündə duran şəxsi jestlər, simvolik hədiyyələr və birbaşa təriflərlə yadda qalıb. 2025-ci ilin avqustunda Vaşinqtonda keçirilən görüşdə Tramp Azərbaycan Prezidentinə xüsusi hədiyyə təqdim edib. Bu, Ağ Evin simvolik açarı idi. Diplomatiyada belə hədiyyə ən yüksəksəviyyəli etimadın və "qapılarımız sizə hər zaman açıqdır" mesajının göstəricisidir. Tramp bu hədiyyəni təqdim edərkən İlham Əliyevin regionda sülhün bərqərar olmasındakı həlledici qətiyyətini xüsusi vurğulamışdı. Azərbaycan liderinə münasibətdə "güclü lider" və "dostum" ifadələrini səsləndirən Tramp İlham Əliyevi "nə etdiyini bilən və verdiyi sözə sadiq qalan güclü lider" kimi xarakterizə edib.

5

## Azərbaycan Dini Konfessiyaları Prezident İlham Əliyevi təbrik ediblər



Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu Azərbaycan dövlətinin milli-mənəvi və ümumbəşəri-multikultural dəyərlərə əsaslanan dövlət siyasətini beynəlxalq müstəvidə möhkəmləndirməyə nail olmuş dünya miqyaslı, qətiyyətli lider, müdrik dövlət xadimi olaraq zati-alilərinizin rəhbərlik etdiyi ölkənin dini konfessiyalarının rəhbərləri olaraq sonsuz şərəf duyuruq. Ölkəmizin hüdudlarından kənarda, ən mötəbər beynəlxalq tədbirlərdə hər dəfə bu hissi yaşayan şəxslər olaraq Sizin fəaliyyətinizə Ulu Yaradandan xeyir-dualar diləyirik.

Zati-aliləri, Siz Azərbaycanın adını, Azərbaycan xalqının şöhrətini yüksəklərə qaldıran müqtədir siyasi xadimsiniz. Müdrik dövlətçilik təfəkkürü ilə Azərbaycana həyatın bütün sahələrində qazandırdığınız uğur və nailiyyətlərə görə Azərbaycan dindarları adından Cənabınıza bir daha dərin minnətdarlığımızı ifadə edir, ən xoş arzularımızı, xeyir-dualarımızı yetiririk. Milli-mənəvi və ümumbəşəri dəyərlərə ehtiramı ilə seçilən, qlobal müstəvidə Sülh Şurasının fəal iştirakçısı və təsisçisi olan Öndərin, ali mükafata layiq görülmüş Müzəffər Liderin səy və əməllərinə Ulu Rəbbimizdən rəvac diləyirik.

4

## Prezident İlham Əliyev "Sülh Şurasının Nizamnaməsi"nin imzalanması mərasimində iştirakına dair videoçarx paylaşıb



https://video.azertag.az/site/video/292483

## İlham Əliyev Davos forumunda Azərbaycanın regional lider mövqeyini daha da möhkəmləndirdi



Davosdakı bir sıra görüşlərdə dünyanın tanınmış şirkətləri Prezidentimizə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə əlaqələrini genişləndirmək məqsədlərini bəyan ediblər. Belə ki, dövlətimizin başçısının Davosda "J.P.Morgan", "Global Infrastructure Partners" (GIP), "Brookfield Asset Management" və digər şirkətlərin rəhbərləri ilə görüşləri olub.

Bunlar indiyədək ARDNF ilə uğurlu əməkdaşlıq edən və bundan məmnun qalan şirkətlərdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Dövlət proqramları şöbəsinin müdiri Lətif Zeynallı qeyd edir ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə "BlackRock" və "Global Infrastructure Partners" arasında imzalanan niyyət protokolu ölkənin suveren sərvətlərinin qlobal dəyər zəncirinə daha dərin inteqrasiyası baxımından strateji əhəmiyyət daşıyır. Məlumat mərkəzləri, süni intellekt infrastrukturu və hava limanı infrastrukturu kimi sahələrin prioritetləşdirilməsi ARDNF-nin investisiya portfelində ənənəvi aktivlərdən yüksək texnoloji və real sektor yönümlü aktivlərə mərhələli keçidi əks etdirir. Bu yanaşma həm gəlirliliyin diversifikasiyası, həm də uzunmüddətli dayanıqlılığın təmin olunması baxımından müasir suveren fond idarəetmə prinsiplərinə tam uyğun hesab olunur.

3

## 2025-ci il ağdamlılar üçün doğma yurda qayıdışın başlanğıc tarixidir



Prezident İlham Əliyev dekabrın 24-də özünün doğum günündə Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edərək doğma yurdlarına köçən sakinlərlə görüşmüş, onlara evlərin açarlarını təqdim etmişdir. Uzun müddət respublikamızın müxtəlif bölgələrində ağır şəraitdə yaşayan insanların doğma yurd-yuvalarına qayıdışı və onlar üçün müasir üslubda, hər cür şəraiti olan mənzillərin inşası, infrastruktur layihələrinin salınması dövlətin və dövlət başçısının öz vətəndaşlarına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Beləliklə, 2025-ci il ağdamlıların yaddaşında daim öz doğma torpaqlarına qayıtdıqları il kimi qalacaq. Ötən ilin yekunlarına və 2026-cı ildə qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş hesabat yığıncağında Ağdam RİH-in başçısı Vaqif Həsənov geniş məruzə ilə çıxış etmişdir. Bildirmişdir ki, keçən il rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi sahəsində işlər davam etmişdir.

8

## Sülh və qayıdış

### Azərbaycan öz hədəflərinə doğru inamla irəliləyir

**"Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə Ermənistandakı dədə-baba torpaqlarına qayıdışının təmin edilməsi regionda sülhün, insan hüquqlarının və barışığın bərqərar olması üçün vacib şərtdir".**



Prezident İlham Əliyevin ötən ilin mayında Türkiyənin paytaxtı Ankara şəhərində "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilmiş beynəlxalq konfransın iştirakçılarına müraciətində bəyan etdiyi kimi, indiki Ermənistan ərazisindən deportasiya edilən soydaşlarımızın qayıdışı tarixi ədalətin və insan hüquqlarının bərpası kimi mühüm əhəmiyyət kəsb edir.

XX əsrin müxtəlif dövrlərində erməni millətçiləri azərbaycanlılara məxsus torpaqları qəsb edib, soydaşlarımıza qarşı etnik təmizləmə siyasəti aparıblar. Tarixi faktlara əsasən, Qərbi Azərbaycanda - Ermənistan ərazisində 1918-1921, 1948-1953-cü illərdə sistemli və total şəkildə etnik təmizləmə həyata keçirilib. 1988-ci il yanvarın 25-də isə Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin kütləvi deportasiya edilməsinə başlanmışdır. Bu gün Ermənistanın monoetnik dövlət olmasının səbəbi də elə budur. Vaxtilə Ermənistana rəhbərlik etmiş şovinist Levon Ter-Petrosyan hələ 1993-cü ildə Ağdamın işğalı günü etdiyi çıxışı zamanı Ermənistanın və "Dağlıq Qarabağ"ın yad millətlərdən (azərbaycanlılardan - red.) tamamilə təmizləndiyini etiraf etmişdir.

9

# Baş nazir Əli Əsədov İspaniya Deputatlar Konqresinin sədri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov yanvarın 23-də İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Baş nazir Ə.Əsədov bir neçə gün əvvəl İspaniyada baş vermiş qatar qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar F.Armenqola başsağlığı verib.

Görüşdə Azərbaycan ilə İspaniya arasında mövcud əlaqələrin müxtəlif sahələrdə müsbət dinamika nümayiş etdirdiyi bildirilib, dövlətlərarası münasibətlərin dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslandığı qeyd edilib.

Parlamentlərarası əməkdaşlıq məsələlərinə toxunularaq parlament səviyyəsində qarşılıqlı səfərlərin və təmasların önəmi vurğulanıb.

İki ölkə arasında müxtəlif istiqamətlərdə, xüsusən də ticarət-iqtisadi, investisiya, enerji, o cümlədən bərpaolunan enerji, nəqliyyat və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 22** **Bakı şəhəri, 21 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 63 (Cild I); 2024, № 3, maddə 358, № 9, maddə 1106; 2025, № 4 (II kitab), maddə 421; №9, maddə 858) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə əlavə - "Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri"nin 2.1-ci bəndinə aşağıdakı məzmunda 2.1.634-2.1.636-cı yarımbəndlər əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 2.1.634. | 95.48. | Eşitməyə köməkçi vasitənin uyğunlaşdırılması – 1 seans (koxlear protezin illik istifadə tamamlandıqdan sonra 4 dəfə nitq prosessorunun tənzimlənməsi xidməti (fitting), konsultasiya daxil) | *TS daxildir | 300 |
| 2.1.635. | 95.49. | Eşitməyə aid digər qeyri-operativ prosedurlar (koxlear protez cihazının xarici komponentləri) koxlear protez cihazı istifadəçisinin hazırda istifadə etdiyi səs (nitq) prosessorunun (minimum 5 (beş) il müddətində istifadə edilmiş olması şərtilə) bir üst modeli ilə əvəzləşdirilməsi (konsultasiya daxil) | *TS daxildir | 15500 |
| 2.1.636. | Tətbiq edilmir | Eşitməyə aid digər qeyri-operativ prosedurlar (koxlear protez cihazının xarici komponentləri) koxlear protez cihazı istifadəçisinin hazırda istifadə etdiyi səs (nitq) prosessorunun istifadəyə yararsız olduğu təqdirdə eyni model səs (nitq) prosessoru ilə (komplektləşdiricilər xaric) əvəzləşdirilməsi (konsultasiya daxil), (istehsalçı tərəfindən zəmanət şərtlərində nəzərdə tutulmadığı hallarda, minimum 1 (bir) il müddətində istifadə edilmiş olması şərtilə) | *TS daxildir | 5500 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli 256 nömrəli Qərarı ilə təsdiq edilmiş "Akvakulturanın həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 24** **Bakı şəhəri, 22 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində və "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 253-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli 256 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1231 (Cild I); 2024, № 1, maddə 116, № 3, maddə 331; 2025, № 5, maddə 503, № 10, maddə 966) ilə təsdiq edilmiş "Akvakulturanın həyata keçirilməsi Qaydası"nın 3.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.1. Akvakultura təsərrüfatlarının istifadəsində olan torpaqların kateqoriyasının dəyişdirilməsi tələb olunmur.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 24 fevral tarixli 46 nömrəli Qərarı ilə təsdiq edilmiş "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 2 nömrəli əlavəsinin 6-cı və 7-ci maddələrində nəzərdə tutulan fəaliyyət növləri üzrə lisenziya alınması tələbinin şamil olunmadığı paylarının (səhmlərinin) 100 faizi dövlətə məxsus olan hüquqi şəxslərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 25** **Bakı şəhəri, 22 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 24 fevral tarixli 46 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 207) ilə təsdiq edilmiş "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 2 nömrəli əlavəsinin 6-cı və 7-ci maddələrində nəzərdə tutulan fəaliyyət növləri üzrə lisenziya alınması tələbinin şamil olunmadığı paylarının (səhmlərinin) 100 faizi dövlətə məxsus olan hüquqi şəxslərin siyahısı"nda dəyişiklik təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Energetika naziri Pərviz Şahbazov Masallı rayon Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə vətəndaşların elektrik enerjisi və təbii qaz təchizatı, elektrik təsərrüfatının yenilənməsi, qaz xətlərinin istismar vəziyyəti, qazdan istifadəyə görə borcun yaranması, elektrik enerjisinin keyfiyyəti, işlə təminat və digər məsələlərə dair müraciətləri dinlənilib.

Qaldırılan məsələlərin mövcud normativ-hüquqi aktlara uyğun şəkildə araşdırılması və operativ həlli məqsədilə müvafiq tapşırıqlar verilib.

Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə Masallı, Lənkəran, Astara və Cəlilabad rayonlarından olan 17 vətəndaş iştirak edib.

* * *

Mədəniyyət naziri Adil Kərimli yanvarın 23-də Ağsu rayonunda vətəndaşların müraciətlərini dinləyib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Ağsu rayon Heydər Əliyev Mərkəzində keçirilən görüşdə Ağsu, Şamaxı, Qobustan, İsmayıllı rayonlarından olan vətəndaşlar müraciətlərini diqqətə çatdırıblar. Müraciətlər, əsasən, məşğulluq, iş yerinin dəyişdirilməsi, mədəniyyət sahəsinə dair layihələr, təşəbbüslər və digər məsələlərlə bağlı olub.

Mədəniyyət naziri vətəndaşların xahiş və təkliflərini dinləyib, qeyd olunan hər bir məsələnin operativ araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı addımlar atılacağını bildirib.

Qəbulda şəhid ailələri və qazilər tərəfindən qaldırılan məsələlərə xüsusi diqqətlə yanaşılması və obyektiv baxılması ilə bağlı nazirliyin məsul əməkdaşlarına tapşırıqlar verilib.

# Milli Məclisin Sədri Sahibə Qafarova İspaniya Krallığı Deputatlar Konqresinin Sədri ilə görüşüb

**Yanvarın 23-də ölkəmizdə rəsmi səfərdə olan İspaniya Krallığı Deputatlar Konqresinin Sədri Fransina Armenqol Sosiasın başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisə gəlib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqlar parlamentin plenar iclas zalı ilə tanışlıqdan sonra Milli Məclisdə Heydər Əliyev Muzeyində olublar, Fransina Armenqol burada Xatirə kitabını imzalayıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova və İspaniya Krallığı Deputatlar Konqresinin Sədri Fransina Armenqol Sosiasın başçılıq etdiyi nümayəndə heyəti arasında geniş tərkibdə görüş olub.

Görüşdə bu səfərin İspaniya parlamentinin sədrinin Azərbaycana ilk səfəri kimi xüsusi əhəmiyyəti vurğulanıb. Bildirilib ki, Azərbaycan Milli Məclisi Sədrinin 2025-ci ilin mayında İspaniya Krallığına ilk rəsmi səfərindən sonra həyata keçirilən bu səfər İspaniya ilə Azərbaycan arasında parlamentlərarası əlaqələrin inkişafına göstərilən diqqətin bariz nümunəsidir. Söhbət zamanı bu səfərin həm parlamentlərimiz arasında, həm də ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Qeyd edilib ki, xüsusən son dövrlərdə ölkələrimiz arasında fəal siyasi dialoqun müşahidə olunması çox mühüm məqamdır. Belə ki, İspaniyanın Baş naziri cənab Pedro Sançezin 2024-cü ilin noyabrında COP29 tədbiri çərçivəsində ölkəmizə işgüzar səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə görüşdə əlaqələrin genişləndirilməsi üçün bir sıra mühüm birgə təşəbbüslərin həyata keçirilməsinə dair razılıq əldə olunub. Bu dialoqun davam etdirilməsi, qarşılıqlı səfərlərin və görüşlərin həyata keçirilməsi bizə imkan verəcək ki, birgə səylərimizlə əlaqələrimizi daha da inkişaf etdirək.

Görüşdə ikitərəfli əməkdaşlığın inkişafını təşviq etmək üçün iki ölkə arasındakı müqavilə-hüquq bazasının genişləndirilməsi, ölkələrimiz arasında münasibətlərdə iqtisadi əməkdaşlığın rolu, İspaniya şirkətlərinin Azərbaycanda fəaliyyəti, bərpaolunan enerji, təhsil, elm, mədəniyyət sahələrində əməkdaşlığın əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

Parlamentlərarası əməkdaşlığın mühüm rolundan danışan Milli Məclisin Sədri parlamentlərimiz arasında əlaqələrin inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib, Azərbaycan parlamentində Azərbaycan-İspaniya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun fəaliyyətini vurğulayıb.

Milli Məclisin Sədri qonağa Azərbaycanın Avropaya bərpaolunan enerji resurslarının ixracı istiqamətində həyata keçirdiyi layihələr, Azərbaycanın hazırda Orta dəhlizdə tranzit ölkə kimi mühüm rolu, Azərbaycanla Ermənistan arasında sülh prosesinin gedişi barədə məlumat verib.

Spiker Sahibə Qafarova qeyd edib ki, ötən ilin avqustunda Vaşinqton Zirvə Görüşündən sonra Azərbaycanla Ermənistan arasında de-fakto sülh bölgəmizdəki reallıqları tamamilə dəyişdirib. Prezident İlham Əliyev bölgəmizdəki yeni sülh və təhlükəsizlik reallığının müəllifidir. Milli Məclisin Sədri Vaşinqtonda sülh müqaviləsinin paraflanmasından sonra tezliklə iki ölkə arasında sülh müqaviləsinin imzalanacağına inamını ifadə edib.

Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu bildirən İspaniya Krallığı Deputatlar Konqresinin Sədri Fransina Armenqol Sosias Bakıda ziyarət etdiyi Zəfər muzeyi və ölkəmizdə gördüyü inkişaf barədə təəssüratlarını bölüşüb. O, İspaniyanın Azərbaycanın suverenliyini dəstəklədiyini və ölkəmizlə müxtəlif sahələrdə əməkdaşlığın inkişafında maraqlı olduğunu diqqətə çatdırıb.

Parlament sədri ölkələrimiz arasında iqtisadi sahədə mövcud olan münasibətlərin, o cümlədən enerji sektorunda əməkdaşlığın önəmindən danışıb, ispan şirkətlərinin Azərbaycanda fəaliyyətinin daha da genişləndirilməsinə hazır olduqlarını qeyd edib.

Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdən sonra qonaqlar Milli Məclisin foyesində yaradılmış və 44 günlük Vətən müharibəsinə həsr edilmiş "Zəfər guşəsi" ilə tanış olublar.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova və İspaniya Krallığı Deputatlar Konqresinin Sədri Fransina Armenqol mətbuata bəyanatla çıxış ediblər

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova, İspaniya Deputatlar Konqresi Sədrinin Azərbaycana rəsmi səfərinin mühüm əhəmiyyətini vurğulayaraq, bu səfərin İspaniya parlament Sədrinin Azərbaycana ilk səfəri olduğunu bildirib.**



Ötən ilin mayında İspaniyaya rəsmi səfərini xatırladan Sahibə Qafarova, həmin səfərin Milli Məclis Sədrinin İspaniyaya ilk rəsmi səfəri olduğunu deyib. Onun sözlərinə görə, bu, ölkələrimiz arasında parlamentlərarası əlaqələrin inkişafına verilən əhəmiyyətin göstəricisidir. Son dövrlərdə ölkələrimiz arasındakı fəal siyasi dialoqun müşahidə olunduğunu söyləyən Milli Məclisin Sədri deyib ki, bu da ikitərəfli əlaqələrin mövcud vəziyyətinin və gələcək perspektivlərinin ətraflı müzakirəsinə imkan yaradır.

Bugünkü ikitərəfli görüşdə parlamentlərimiz arasında əlaqələrin müzakirə olunduğunu bildirən spiker Sahibə Qafarova deyib ki, tərəflər parlament üzvlərinin, ayrı-ayrı nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətindən bəhs ediblər.

Beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın, qarşılıqlı dəstəyin böyük əhəmiyyətə malik olduğunu vurğulayan Milli Məclisin Sədri həmçinin deyib ki, parlamentlərimiz arasındakı əlaqələri daha da genişləndirmək üçün yaxşı imkanlar mövcuddur. Fransina Armenqolun səfəri də bu imkanlardan istifadə etmək niyyətimizi təsdiq edir.

İspaniya Krallığı Deputatlar Konqresinin Sədri Fransina Armenqol da mətbuata bəyanatında görüşdə konstruktiv, yaxın və faydalı müzakirələr aparıldığını qeyd edərək, İspaniya Deputatlar Konqresinin Sədri kimi Azərbaycanda olmaqdan böyük şərəf duyduğunu söyləyib. O, bu səfərin iki ölkə arasında əlaqələri möhkəmləndirmək niyyətinə xidmət etdiyini qeyd edib. Konqresin Sədri deyib ki, İspaniya iki ölkə arasında paylaşdığımız dəyərləri, yüksək səviyyədə dialoq imkanını daha da möhkəmləndirmək istəyir. Parlament diplomatiyası ölkələr arasında anlaşmanın, etimadın artırılması və regional sabitliyə töhfə vermək üçün vacib bir alətdir.

2025-ci il avqustun 8-də Vaşinqton görüşündə imzalanmış razılaşmadan sonra Azərbaycan və Ermənistan arasında başlayan münasibətlərin normallaşması prosesində əldə olunan irəliləyişləri İspaniyanın yüksək qiymətləndirdiyini söyləyən Fransina Armenqol ümidvar olduğunu bildirib ki, müvafiq şərait yaradıldığı təqdirdə bu proses Qarabağ regionunda onilliklər boyu davam edən münaqişəyə son qoyan sülh sazişi ilə nəticələnəcək, həmçinin yeni bir tərəqqi və əməkdaşlıq dövrünü açacaq.

O həmçinin, qeyd edib ki, İspaniya və Azərbaycan arasında ikitərəfli əlaqələri dərinləşdirmək üzrə ortaq iradə aşkar şəkildə ifadə olunur. Görüşdə mövcud razılaşmaların, məsələn, turizm və təhsil sahəsində Anlaşma Memorandumu kimi sənədlərin çərçivəsini genişləndirməyin vacibliyi barədə də fikirlər ifadə olunub. Deputatlar Konqresinin Sədri bildirib ki, hər iki ölkə parlamentlər arasında əlaqələrin möhkəmlənməsində birgə çalışır. Eyni zamanda ölkələrimiz "yaşıl enerji"nin inkişafında işləməyə razılıq verir.

"Bu mənim Azərbaycana birinci səfərimdir. Biz əməkdaşlığımızı daha da gücləndirməliyik. Parlamentlər arasında əlaqələrin möhkəmləndirilməsi üçün hər iki tərəfin deputatları böyük iş görürlər", - deyə İspaniya Deputatlar Konqresinin Sədri vurğulayıb.

***"Azərbaycan"***




# Azərbaycan qlobal siyasi və iqtisadi proseslərə təsir göstərən dövlətdir

**Azərbaycanın xarici siyasəti milli maraqlara söykənən, müstəqil və çoxvektorlu strategiya üzərində qurularaq, regional sabitliyin təmin olunmasına, beynəlxalq əməkdaşlıq şəbəkəsinin genişləndirilməsinə və ölkənin qlobal siyasi-iqtisadi proseslərdə mövqeyinin gücləndirilməsinə yönəlib. Bu siyasət çərçivəsində Azərbaycan enerji təhlükəsizliyi, nəqliyyat-logistika dəhlizləri, iqtisadi diplomatiya və təhlükəsizlik məsələlərində etibarlı tərəfdaş kimi tanınır. Eyni zamanda ölkəmiz beynəlxalq təşkilatlarla və aparıcı dövlətlərlə qarşılıqlı hörmət və suverenlik prinsiplərinə əsaslanan əlaqələr quraraq, müasir beynəlxalq münasibətlər sistemində öz sözünü deyən fəal aktora çevrilib.**

Cari ilin 19 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək məqsədilə İsveçrə Konfederasiyasına səfər edib. Bu mühüm forumda Azərbaycanın fəal iştirakı, dövlət başçısının nüfuzlu beynəlxalq media qurumuna verdiyi müsahibə və keçirdiyi yüksəksəviyyəli görüşlər ölkəmizin etibarlı tərəfdaş, enerji və nəqliyyat-logistika mərkəzi, eləcə də Cənubi Qafqazda sabitliyin və inkişafın əsas dayağı kimi mövqeyini bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

Dünya nizamının sürətlə dəyişdiyi, beynəlxalq münasibətlərin klassik hüquqi mexanizmlərdən daha çox güc balansı üzərində formalaşdığı bir mərhələdə Azərbaycan öz milli maraqlarına əsaslanan çevik və prinsipial siyasi xətt yürüdür. Prezident İlham Əliyevin Davosda "Euronews" televiziyasına verdiyi müsahibə bu yeni geosiyasi reallıqlar fonunda Azərbaycanın tutduğu mövqeyi, regional və qlobal siyasətdə qazandığı nüfuzu, eləcə də Cənubi Qafqazda formalaşmaqda olan sülh arxitekturasını aydın şəkildə göstərdi.

Prezident İlham Əliyevin vurğuladığı kimi, beynəlxalq hüquq normaları artıq dünya ictimaiyyətinin bütün üzvləri üçün mütləq davranış qaydası kimi qəbul edilmir. Müasir beynəlxalq münasibətlər sistemi getdikcə daha çox güc qaydasına əsaslanan yeni bir mərhələyə daxil olur. Bu şəraitdə dövlətlərin əsas vəzifəsi öz milli maraqlarını qorumaq, potensiallarını düzgün qiymətləndirmək və buna uyğun strateji xətt formalaşdırmaqdan ibarətdir.

Məhz bu reallıqları düzgün dəyərləndirən Azərbaycan son illərdə həm siyasi, həm iqtisadi, həm də hərbi sahədə öz mövqelərini möhkəmləndirib. Suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası prosesi beynəlxalq hüquqa tam uyğun şəkildə həyata keçirilib. Bu, Azərbaycanın prinsipial və legitim mövqeyinin bariz nümunəsidir. Dövlət başçımızın qeyd etdiyi kimi, görülən bütün işlər - istər siyasi inkişaf, istərsə də ərazi bütövlüyünün təmin edilməsi - ümumbəşəri dəyərlərə və beynəlxalq hüquq normalarına söykənib.

Yeni beynəlxalq münasibətlər sistemində uğurun əsas şərtlərindən biri də çoxtərəfli və balanslaşdırılmış diplomatiyadır. Azərbaycan bu istiqamətdə həm regional, həm də qlobal müstəvidə etibarlı tərəfdaş imici formalaşdırıb, mümkün qədər çox ölkə ilə qarşılıqlı hörmət və faydaya əsaslanan münasibətlər qurmağa nail olub.

Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də Azərbaycanın sülhə və əməkdaşlığa verdiyi töhfələrin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin göstəricisidir. Dövlətimizin başçısı bu mükafatı Qafqazda uzun illər davam edən münaqişə və qanlı qarşıdurmalardan sonra sülhün bərqərar olunması istiqamətində göstərilən səylərə verilən dəyər kimi qiymətləndirib.

Cənubi Qafqaz yeni inkişaf mərhələsinə qədəm qoyur. Azərbaycan və Ermənistan arasında uzun illər davam edən qarşıdurmadan sonra regionda sülh şəraitinin formalaşması tarixi bir hadisədir. Cənab Prezidentin qeyd etdiyi kimi, Azərbaycan müstəqillik tarixində ilk dəfə olaraq real sülh mühitində yaşayır və bu həm böyük fürsət, həm də mühüm məsuliyyətdir.

Azərbaycanın Ermənistanla münasibətləri artıq qarşıdurma müstəvisindən əməkdaşlıq mərhələsinə keçməkdədir. Yüklərin daşınmasında məhdudiyyətlərin aradan qaldırılması, Ermənistanın əsas ehtiyac malları, xüsusilə neft məhsulları ilə təmin olunması regionda iqtisadi inteqrasiyanın formalaşmasına xidmət edir. Bu yanaşma "hamının qazandığı" modelin əsasını qoyur və uzunmüddətli sabitliyin təminatına çevrilir.

Prezident İlham Əliyevin müsahibəsində səsləndirdiyi əsas ideya ondan ibarətdir ki, Qafqazda sülh yalnız dövlətlərin siyasi iradəsi ilə deyil, həm də cəmiyyətlərin qarşılıqlı anlaşması və əməkdaşlığı ilə möhkəmlənə bilər. Azərbaycan və Ermənistanın, eləcə də vətəndaş cəmiyyətlərinin birgə səyləri nəticəsində regionda uzunmüddətli deyil, əbədi sülhün bərqərar olunması real hədəf kimi qarşıya qoyulub.

Prezident İlham Əliyev müsahibəsində xüsusi olaraq vurğuladı ki, ölkə daxilində hər hansı potensial risk mövcud deyil və Azərbaycanın təhlükəsizliyinə təhdidlər yalnız xarici faktorlarla bağlı ola bilər. Bu yanaşma Azərbaycanın son illərdə həyata keçirdiyi təhlükəsizlik strategiyasının real nəticələrə söykəndiyini göstərir. Dövlətin güclü siyasi idarəetməsi, ordu quruculuğu və ictimai sabitliyi təmin edən institusional mexanizmlər ölkədaxili riskləri minimuma endirib.

Bununla yanaşı, Prezidentin regionda, xüsusilə İran ətrafında müşahidə edilən qeyri-sabitlikdən narahatlığını ifadə etməsi Cənubi Qafqazın geosiyasi həssaslığını bir daha gündəmə gətirir. Azərbaycan üçün regional sabitlik, sadəcə, diplomatik anlayış deyil, milli inkişafın və iqtisadi tərəqqinin əsas şərtidir. İşğal və müharibə təcrübəsindən keçmiş bir ölkə olaraq Azərbaycan sülhün və proqnozlaşdırıla bilən siyasi mühitin alternativsiz olduğunu açıq şəkildə bəyan edir.

Prezident İlham Əliyevin enerji bazarları ilə bağlı səsləndirdiyi fikirlər Azərbaycanın artıq sıravi enerji ixracatçısı deyil, qlobal enerji təhlükəsizliyinin əsas dayaqlarından birinə çevrildiyini göstərir.

Azərbaycan bu yeni mərhələdə əsas sabitləşdirici aktorlardan biri kimi çıxış edir. Boru kəməri qazı ilə coğrafi əhatəsinə görə dünyada birinci yer tutması, 16 ölkəyə qaz ixrac etməsi və onlardan 10-nun Avropa İttifaqının üzvü olması Bakının Avropanın enerji təhlükəsizliyindəki rolunu strateji səviyyəyə yüksəldir.

Azərbaycanın həm Cənubi Qafqazın yeganə enerji ixracatçısı olması, həm də region ölkələrinin enerji təminatçısına çevrilməsi onu bölgənin iqtisadi-siyasi dayağına çevirir. Gürcüstan və Ermənistanın Azərbaycan qazından asılılığı bu reallığın açıq göstəricisidir. Eyni zamanda Suriyaya qaz ixracının başlaması Azərbaycanın Yaxın Şərq bazarına da çıxış imkanlarının genişləndiyini nümayiş etdirir.

Prezident İlham Əliyevin Avropa ilə münasibətlərə dair mövqeyi Azərbaycanın praqmatik və qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq modelini ortaya qoyur. Azərbaycan Avropa üçün etibarlı enerji mənbəyi, Avropa isə Azərbaycan üçün premium bazardır. Bu münasibətlər ideoloji yox, strateji və iqtisadi maraqlar üzərində qurulub.

Bu kontekstdə Avropa Komissiyası ilə əməkdaşlığın davam etdirilməsi, lakin Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası ilə əlaqələrin dayandırılması Bakının selektiv diplomatiya modelini göstərir. Azərbaycan açıq şəkildə bildirir ki, siyasi qərəz və lobbiçilik təsiri altında formalaşan platformalarla əməkdaşlıq onun milli maraqlarına uyğun deyil.

Prezident İlham Əliyevin Avropa Parlamentinin tənqidlərinə artıq reaksiya verilməməsi barədə bəyanatı Azərbaycanın beynəlxalq münasibətlərdə özünəinamının və siyasi suverenliyinin bariz ifadəsidir.

Azərbaycanın Ermənistanla sülh prosesində konstruktiv mövqe sərgilədiyi, Ağ Evdə sülh müqaviləsinin paraflandığı bir şəraitdə Avropa Parlamentinin Bakını "təcavüzkar mövqedə" ittiham etməsi siyasi məntiqə və reallığa ziddir. Bu kimi addımlar Avropa institutlarının bir qisminin regiondakı yeni geosiyasi reallıqları hələ də qəbul etmədiyini göstərir.

Prezident İlham Əliyevin Davosdan verdiyi mesajlar Azərbaycanın artıq regional güc olmaqla yanaşı, qlobal siyasi və iqtisadi proseslərə təsir göstərən aktora çevrildiyini sübut edir. Bakı sülh, sabitlik, enerji təhlükəsizliyi və müstəqil siyasət prinsiplərini paralel şəkildə həyata keçirən nadir paytaxtlardan biridir.

Azərbaycan bu gün Cənubi Qafqazın sabitlik mərkəzi, Avropanın enerji dayağı və regionlararası əməkdaşlığın əsas qovşağıdır. Davosdan səslənən mövqelər isə bu strateji kursun dəyişməz və ardıcıl şəkildə davam etdiriləcəyinin açıq bəyanıdır.

*Ziyafət ƏSGƏROV,*
*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini*

# İlham Əliyev Davos forumunda Azərbaycanın regional lider mövqeyini daha da möhkəmləndirdi

**Davos Dünya İqtisadi Forumunun son illərdəki tədbirlərinin hamısında Azərbaycana maraq böyük olub. Bu baxımdan forumun 56-cı tədbiri də istisna təşkil etmədi. Forum bu dəfə də ölkəmizin iqtisadiyyatının qlobal səviyyədə təqdim edildiyi və dünyanın diqqət mərkəzində olduğunu göstərən bir məkana, platformaya çevrildi.**



Prezident İlham Əliyevin Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində aparıcı maliyyə institutları və sənaye şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlərə Azərbaycanın uzunmüddətli iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi də demək olar. Çünki bu görüşlərdə ölkəmizdə mədənçilik, bərpaolunan enerji, süni intellekt və məlumat mərkəzləri xarici sərmayələrin cəlb olunması baxımından strateji investisiya prioritetləri kimi müəyyən edilib. Forum çərçivəsində aparılan müzakirələr Azərbaycanın institusional investorlar üçün strateji tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirdiyini təsdiqləyir.

Götürək elə dövlətimizin başçısının Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kos ilə görüşünü. Görüşdə enerji, regional nəqliyyat bağlantıları, humanitar minatəmizləmə və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub, ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunulub. Marta Kos Avropa İttifaqının Azərbaycanın humanitar minatəmizləmə sahəsində fəaliyyətinə, həmçinin Naxçıvanın dəmir yolu xəttinin bərpası layihələrinə dəstək göstərməyə hazır olduğunu qeyd edib.Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında bir çox sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu vurğulanıb və bu istiqamətdə fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyevin Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüşündə ölkəmizlə bu qurum arasındakı əməkdaşlıqdan məmnunluq ifadə olunub. Bankın Azərbaycanda bir sıra uğurlu layihələr icra etdiyi bildirilib. Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramı çərçivəsində qəbul olunmuş layihələrin maliyyələşdirilməsi ilə bağlı müzakirələr aparılıb. Həmçinin bərpaolunan enerji sektorunda fəaliyyətin, Naxçıvanın nəqliyyat sisteminin yenilənməsinin, ölkəmizin ayrı-ayrı bölgələrində məişət tullantılarının zərərsizləşdirilməsi layihələrinin maliyyələşdirilməsi ilə bağlı fikir mübadiləsi olub.

Vurğulayaq ki, Azərbaycan nail olduğu yüksək göstəricilər, həyata keçirdiyi qlobal layihələr, qazandığı etibarlı tərəfdaş imici sayəsində hər il Davos forumunun diqqət mərkəzində olur. Tədbirdə iştirak edən dünyaşöhrətli şirkətlərin bir çoxunun rəhbəri Azərbaycan Prezidenti ilə görüşmək, ölkəmizlə əməkdaşlığı davam etdirmək, yaxud yeni əlaqələr qurmaq barədə müzakirələr aparmaq istəyirlər. Bu dəfə də belə oldu.

Davosdakı bir sıra görüşlərdə dünyanın tanınmış şirkətləri Prezidentimizə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə əlaqələrini genişləndirmək məqsədlərini bəyan ediblər. Belə ki, dövlətimizin başçısının Davosda "J.P.Morgan", "Global Infrastructure Partners" (GIP), "Brookfield Asset Management" və digər şirkətlərin rəhbərləri ilə görüşləri olub. Bunlar indiyədək ARDNF ilə uğurlu əməkdaşlıq edən və bundan məmnun qalan şirkətlərdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Dövlət proqramları şöbəsinin müdiri Lətif Zeynallı qeyd edir ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə "BlackRock" və "Global Infrastructure Partners" arasında imzalanan niyyət protokolu ölkənin suveren sərvətlərinin qlobal dəyər zəncirinə daha dərin inteqrasiyası baxımından strateji əhəmiyyət daşıyır. Məlumat mərkəzləri, süni intellekt infrastrukturu və hava limanı infrastrukturu kimi sahələrin prioritetləşdirilməsi ARDNF-nin investisiya portfelində ənənəvi aktivlərdən yüksək texnoloji və real sektor yönümlü aktivlərə mərhələli keçidi əks etdirir. Bu yanaşma həm gəlirliliyin diversifikasiyası, həm də uzunmüddətli dayanıqlılığın təmin olunması baxımından müasir suveren fond idarəetmə prinsiplərinə tam uyğun hesab olunur.

"J.P. Morgan", "DP World", "Vestas Wind Systems" və "BTG Pactual" kimi aparıcı şirkətlərlə aparılan müzakirələr Azərbaycanın makroiqtisadi sabitliyinin və fiskal intizamının beynəlxalq maliyyə bazarlarında yüksək etimad qazandığını təsdiqləyir. Təsadüfi deyil ki, Azərbaycanın beynəlxalq maliyyə bazarlarında etibarlı tərəfdaş kimi mövqeyini yüksək qiymətləndirən, idarə etdiyi aktivlərin həcmi 4 trilyon dollardan artıq olan "J.P. Morgan" şirkətinin sədri və baş icraçı direktoru Ceymi Daymon ölkəmizdə sabit və etibarlı investisiya mühitinin mövcudluğunu vurğulayıb.

Görüşlər zamanı təxminən yarım trilyon dollardan çox aktivləri idarə edən "BTG Pactual" şirkətinin sədri Andre Esteves ARDNF ilə mümkün əməkdaşlıq istiqamətləri və strateji prioritetlər ətrafında ilkin müzakirələrin aparıldığını, qarşılıqlı maraq doğuran məsələlər üzrə dialoqların davam etdirildiyini bildirib. Bundan başqa, SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) fəaliyyətinin maliyyələşdirilməsi, bərpaolunan enerji və nəqliyyat-logistika layihələri üzrə əməkdaşlıq imkanları ölkəmizin qeyri-neft sektorunun dərinləşdirilməsi və "yaşıl transformasiya" gündəliyinin praktik investisiya alətlərinə çevrildiyini göstərir.

Baş ofisi Rotterdam şəhərində yerləşən, dünyanın aparıcı neft ticarəti şirkətlərindən biri olan "Vitol"un da ölkəmizə marağı böyükdür. Bunu şirkətin baş icraçı direktoru Rassel Hardi Prezidentimzlə görüşdə bildirib. Söhbət zamanı Azərbaycanda həyata keçirilən neft strategiyası barədə məlumat verilib, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində roluna toxunulub. Bu xüsusda bir sıra Avropa ölkələrinin Azərbaycan qazı ilə təchiz edilməsi vurğulanıb. Ölkəmizlə bu şirkət arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Davosda çəkilən yeni əməkdaşlıq konturları iqtisadiyyatın ayrı-ayrı sahələrini əhatə edir. Prezident İlham Əliyevin dünyanın İT üzrə nüfuzlu şirkətlərindən biri olan Amerika Birləşmiş Ştatlarının "Dell Technologies"in Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Adrian Makdonald ilə görüşünü xatırlatmaq yerinə düşər. Təsadüfi deyil ki, görüş zamanı Azərbaycanda mövcud əlverişli investisiya mühitinin xarici sərmayədarlar üçün də cəlbedici olduğu vurğulanıb. "Dell Technologies"in Azərbaycanda fəaliyyəti və bu şirkətin iştirakı ilə ölkəmizdə superkompüter mərkəzinin yaradılması qeyd edilib, onun resurslarının süni intellekt və qərar qəbuletmə sahələrində tətbiqi ilə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdə həmçinin İT infrastrukturunun qurulması və modernləşdirilməsi, şəbəkə avadanlıqları, məlumat mərkəzləri və bulud infrastrukturu layihələri, o cümlədən qabaqcıl məlumat mərkəzlərinin layihələndirilməsi və tətbiqi ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olunub.

Bir sözlə, Davos Dünya İqtisadi Forumunda fəal iştirakı Azərbaycanın sabit, islahatlara açıq və proqnozlaşdırılan iqtisadi siyasət yürüdən ölkə imicini daha da gücləndirdi. Azərbaycan bu platformada regional iqtisadi mərkəz kimi mövqeyini daha da möhkəmləndirdi. Etibarlı enerji təchizatçısı statusunu bir daha nümayiş etdirdi. Ölkəmizə həm siyasi, həm də iqtisadi etimad daha da artdı.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycanın Sülh Şurasına qoşulması regionda sabitlik və əməkdaşlıq üçün yeni imkanlar yaradır

**"Müasir beynəlxalq münasibətlər sistemində sülhün qorunması və münaqişələrdən sonrakı dövrdə dayanıqlı inkişafın təmin edilməsi dövlətlərin əsas prioritetlərindən biridir. Bu baxımdan Azərbaycanın Sülh Şurasına qoşulması təkcə ölkənin xarici siyasət xəttinin ardıcıllığını nümayiş etdirmir, eyni zamanda Cənubi Qafqaz regionunda uzunmüddətli sabitliyin möhkəmlənməsinə mühüm töhfə verə bilər".**

Bunu AZƏRTAC-a açıqlamasında Kocaeli Heydər Əliyev Mədəniyyət Mərkəzinin sədri Bilal Dündar bildirib.

Onun sözlərinə görə, postmünaqişə dövrünü yaşayan region üçün əsas çağırışlardan biri qarşılıqlı etimadın bərpası və dialoq mühitinin formalaşdırılmasıdır.

"Azərbaycanın sülh platformalarında təmsil olunması beynəlxalq hüquqa əsaslanan mövqeyini daha geniş auditoriyaya çatdırmaqla yanaşı, regional problemlərin sülh yolu ilə həllinə dair konstruktiv yanaşmanı ön plana çıxarır. Bu isə Cənubi Qafqazda gərginliklərin azalmasına və qarşıdurma risklərinin minimuma endirilməsinə xidmət edir. Sülh Şurası çərçivəsində iştirak regional əməkdaşlıq üçün institusional imkanlar yaradır. Azərbaycan bu platformalar vasitəsilə reinteqrasiya, humanitar məsələlər və sosial-iqtisadi inkişaf sahələrində beynəlxalq təcrübədən yararlanmaq imkanı əldə edir. Xüsusilə azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, mina təhlükəsi ilə mübarizə və məcburi köçkünlərin geri qayıdışı proseslərində beynəlxalq tərəfdaşlığın gücləndirilməsi regionun ümumi inkişafına müsbət təsir göstərir. Eyni zamanda sülh və sabitlik mesajı iqtisadi əməkdaşlıq üçün əlverişli mühit formalaşdırır", - deyə Bilal Dündar vurğulayıb.



Mərkəzin sədri əlavə edib ki, regionda etibarlı təhlükəsizlik mühitinin mövcudluğu nəqliyyat-logistika dəhlizlərinin inkişafına, enerji layihələrinin genişlənməsinə və xarici investisiyaların cəlb olunmasına stimul verir, bu proseslər Cənubi Qafqazın beynəlxalq iqtisadi sistemdə rolunun artmasına şərait yaradır: "Azərbaycanın Sülh Şurasına qoşulması ölkənin beynəlxalq nüfuzunun möhkəmlənməsi baxımından da əhəmiyyətlidir. Sülh təşəbbüslərində fəal iştirak Azərbaycanı regional və qlobal miqyasda məsuliyyətli və etibarlı tərəfdaş kimi təqdim edir. Bu isə ölkənin diplomatik imkanlarını genişləndirərək, gələcəkdə regionda dialoq və əməkdaşlıq proseslərində təşəbbüskar mövqeyini gücləndirir. Beləliklə, Azərbaycanın Sülh Şurasına qoşulması Cənubi Qafqazda sabitliyin möhkəmləndirilməsi, qarşılıqlı etimadın artırılması və davamlı inkişaf üçün yeni perspektivlər açır. Bu addım regionun münaqişə sonrası mərhələdən əməkdaşlıq və tərəqqi mərhələsinə keçidini sürətləndirən mühüm siyasi-diplomatik təşəbbüs kimi qiymətləndirilə bilər".

# Azərbaycan Dini Konfessiyaları Prezident İlham Əliyevi təbrik ediblər

Möhtərəm cənab Prezident!

Uca Yaradana çox şükürlər olsun ki, zati-alilərinizi davamlı uğur və nailiyyətləriniz münasibətilə təbrik etmək səadətini bizlərə nəsib edir. Cənabınızı Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi ilə bağlı göstərdiyiniz səylərə görə beynəlxalq "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə uca bəşəri dəyərlər naminə fəaliyyətinizdə yeni zirvələr arzulayırıq.

Zati-alilərinizin rəhbərliyi ilə qazanılmış böyük Qarabağ Zəfərinin ardınca Azərbaycan xalqına qlobal siyasi-diplomatik müstəvidə tarixi əhəmiyyətli qələbələr və nüfuzlu beynəlxalq mükafatların qürurunu bəxş etməkdəsiniz. Sizin dünya miqyasında insan qardaşlığına xidmət edən ideya və təşəbbüsləriniz Azərbaycan dövlətinə beynəlxalq müstəvidə yenilməzlik, etimad və ehtiram qazandırır. Məhz zati-alilərinizin xeyir-duası ilə Şeyxülislamın timsalında Azərbaycanın təmsil olunduğu Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Əl-Tayyib və mərhum Roma Papası Fransisk tərəfindən imzalanmış sənəd əsasında təsis olunmuş mötəbər mükafatla təltif olunmağınız zati-alilərinizin Uca Yaradana xoş gedən səy və əməllərinin bəşər ailəsi tərəfindən dəyərləndirilməsinin təzahürüdür.

Fəxarət duyuruq ki, Azərbaycanın nümunəvi dinlərarası əməkdaşlıq, multikulturalizm və məzhəblərarası anlaşma modeli dünya miqyasında təqdir olunur və bu, zati-alilərinizin müasir, müdrik dövlətçilik siyasətinin bəhrələridir. Sülh, sabitlik, qarşılıqlı anlaşma olmadan tərəqqi, rifah mümkün deyil və Azərbaycanın siyasi lideri olaraq Cənabınızın bu istiqamətdə fəaliyyəti ən xoş sözlərə, ən yüksək mükafatlara layiqdir. Zati-alilərinizin dünyanın sülh gündəmində ön sırada olmağı - Sülh Şurasında təsisçi qismində iştirakı Uca Yaradana xoş gedən ideallar naminə dəyərli fəaliyyətinizin daha bir parlaq əməli nümunəsidir. Zati-alilərinizi belə bir mötəbər qlobal müstəvidə təsisçi qismində görmək bizi qürurlandırır, Azərbaycan xalqının ayrılmaz hissəsi olan dindarlarda rəğbət və fəxarət doğurur. Əminik ki, bu tarixi addımınız qlobal sülh, bəşəriyyəti narahat edən təhdid və təhlükələrin aradan qaldırılması işində böyük rol oynayacaqdır, inşallah. Dualarımız Sizinlədir. Uca Rəbbimiz Sizi və dəyərli ailənizi qorusun!

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu Azərbaycan dövlətinin milli-mənəvi və ümumbəşəri-multikultural dəyərlərə əsaslanan dövlət siyasətini beynəlxalq müstəvidə möhkəmləndirməyə nail olmuş dünya miqyaslı, qətiyyətli lider, müdrik dövlət xadimi olaraq zati-alilərinizin rəhbərlik etdiyi ölkənin dini konfessiyalarının rəhbərləri olaraq sonsuz şərəf duyuruq. Ölkəmizin hüdudlarından kənarda, ən mötəbər beynəlxalq tədbirlərdə hər dəfə bu hissi yaşayan şəxslər olaraq Sizin fəaliyyətinizə Ulu Yaradandan xeyir-dualar diləyirik.

Zati-aliləri, Siz Azərbaycanın adını, Azərbaycan xalqının şöhrətini yüksəklərə qaldıran müqtədir siyasi xadimsiniz. Müdrik dövlətçilik təfəkkürü ilə Azərbaycana həyatın bütün sahələrində qazandırdığınız uğur və nailiyyətlərə görə Azərbaycan dindarları adından Cənabınıza bir daha dərin minnətdarlığımızı ifadə edir, ən xoş arzularımızı, xeyir-dualarımızı yetiririk. Milli-mənəvi və ümumbəşəri dəyərlərə ehtiramı ilə seçilən, qlobal müstəvidə Sülh Şurasının fəal iştirakçısı və təsisçisi olan Öndərin, ali mükafata layiq görülmüş Müzəffər Liderin səy və əməllərinə Ulu Rəbbimizdən rəvac diləyirik.

Uca Yaradan Azərbaycan dövlətini hifz etsin, zati-alilərinizi hər zaman zirvələrdə qərar versin! Amin!

*Dərin hörmət və ehtiramla,*

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***

***ALEKSIY,***
***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yepiskopu***

***Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol prefekturasının ordinarisi***

***Milix YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri***

***Robert MOBİLİ,***
***Alban-udi Xristian Dini İcmasının sədri***

***Zamir İSAYEV,***
***Sefarad yəhudiləri Bakı dini icmasının rəhbəri***

# İspaniya Deputatlar Konqresinin spikeri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib

**Ölkəmizdə rəsmi səfərdə olan İspaniya Krallığı Deputatlar Konqresinin Sədri Fransina Armenqol Sosias yanvarın 23-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**







Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində qonaq Bakıda Zəfər parkını ziyarət edərək Zəfər abidəsi önünə əklil qoyub, Vətən müharibəsində həlak olanların xatirəsini ehtiramla anıb. Sonra qonaq bu ərazidə yaradılan Zəfər muzeyi ilə tanış olub. İspaniya Krallığı Deputatlar Konqresinin Sədrinə məlumat verilib ki, muzeyin ekspozisiyası beynəlxalq təcrübə və dünyada mövcud muzey konsepsiyaları əsas götürülməklə, həmçinin ən son texnologiyalar tətbiq edilməklə işlənilib. Ekspozisiya zallarını gəzən ispaniyalı spiker münaqişə haqqında həqiqətləri, 44 günlük Vətən müharibəsinin gedişi, şanlı Zəfər nəticəsində dövlət suverenliyinin bərpa olunması barədə məlumatları əks etdirən faktlarlarla, foto və videomateriallarla, interaktiv nümayişlərlə və digər eksponatlarla tanış olub.

Ziyarət zamanı qonağı Milli Məclisin İspaniya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Sevil Mikayılova, Azərbaycanın İspaniyadakı səfiri Ramiz Həsənov və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Azərbaycan Respublikası Hərbi Prokurorluğunda 2025-ci ilin yekunlarına dair geniş kollegiya iclası olub





**Yanvarın 23-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası Hərbi Prokurorluğunda 2025-ci il ərzində hərbi prokurorluq orqanlarında cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

Tədbirdən öncə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, xatirəsi dərin ehtiramla yad olunub.

Kollegiya iclasında giriş nitqi ilə çıxış edən baş prokuror Kamran Əliyev bildirib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müstəqil Azərbaycanın davamlı inkişaf konsepsiyasını qloballaşma dövrünün diktə etdiyi yeni şərtlərlə davam etdirməyə qadir olan, praqmatik, rasional təfəkkürlü, xalqını və dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçısı möhtərəm Prezident İlham Əliyev tarixin ən qüdrətli Azərbaycanının yaradıcısı olmaqla bərabər, həm də onun ən böyük Zəfərinin Müzəffər Ali Baş Komandanıdır. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi cənab İlham Əliyevin tarixi missiyasının ən parlaq məqamlarından birinə çevrilib.

Çıxış zamanı 2025-ci ilin avqust ayının 8-də ABŞ-nin paytaxtı Vaşinqtonda, Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin paraflanmasına da toxunan baş prokuror bu tarixi hadisə ilə milli maraqlarımızın beynəlxalq statusda rəsmiləşdirilməsini xüsusi vurğulamaqla yanaşı, əldə edilən nailiyyətin eyni zamanda dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilməkdə olan praqmatik xarici siyasətin uzaqgörənliyinin, diplomatik münasibətlərin formalaşdırılması istiqamətində sərgilənən düzgün mövqe seçiminin bəhrəsi olaraq qiymətləndirdi.

Baş prokuror qeyd etdi ki, respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Ulu Öndər Heydər Əliyev ideyalarına söykənməklə özünün çoxşaxəli və məzmunlu fəaliyyəti ilə məhz ölkəmizin həqiqətlərinin dünyaya çatdırılmasına yorulmaz əmək sərf edir.

Çıxışda o da qeyd edilib ki, yola saldığımız 2025-ci il eyni zamanda tarixi və əlamətdar hadisələrlə zəngin bir il olub. 2025-ci ildə konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq 28 dekabr 2024-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı suveren ərazilərimizdə bir sıra tədbirlər keçirilib.

Baş prokuror həmçinin Prezident İlham Əliyevin Ümumdünya İqtisadi Forumunun illik toplantısı (Davos, 19-23 yanvar 2026-cı il) çərçivəsində çıxışını və müsahibəsini xatırladaraq qeyd edib ki bu, Azərbaycanın davamlı inkişaf strategiyasını, regional və qlobal proseslərə məsuliyyətli yanaşmasını bir daha nümayiş etdirir.

***Ardı 5-ci səh.***

# Milli Məclisin komitələrinin iclasları keçirilib

Yanvarın 23-də Milli Məclisin İnsan hüquqları komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib.

Komitənin sədri Zahid Oruc gündəliyə 2025-ci ilin payız sessiyası dövründə Milli Məclisin İnsan hüquqları komitəsində görülən işlər barədə hesabatın, həmçinin komitənin 2026-cı il yaz sessiyası üçün iş planının layihəsinin daxil edildiyini bildirib.

Z.Oruc 2025-ci ilin payız sessiyasında görülmüş işlər barədə məlumatı təqdim edərək bildirib ki, komitədə həmin dövrdə 10 iclas keçirilib, 11 məsələ, o cümlədən, 4 qanun layihəsi Milli Məclisin müzakirəsinə tövsiyə edilib və parlament tərəfindən qəbul olunub. 2025-ci ilin payız sessiyası dövründə komitəyə vətəndaşlardan 328 müraciət daxil olub, onlara baxılıb.

Zahid Oruc daha sonra İnsan hüquqları komitəsinin 2026-cı il yaz sessiyası üçün iş planının layihəsindən söhbət açıb. Bildirib ki, sessiya müddətində qanun layihələrinin müzakirəsi, komitə rəhbərliyi və üzvləri tərəfindən vətəndaşların (seçicilərin) qəbulu, müraciətlərə baxılması, aidiyyəti qurumlara ünvanlanması və cavablandırılması üzrə fəaliyyət, "Mina terroru qurbanlarının beynəlxalq hüquqi platformalara çıxışı" mövzusunda ANAMA ilə birgə görüşlərin, "Böyük qayıdış və reinteqrasiya" ilə bağlı dinləmələrin, Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli"nin elan edilməsi ilə əlaqədar - Azərbaycanda dayanıqlı şəhərsalma, urbanizasiya prosesləri və sosial hüquqlar ilə bağlı konfransın keçirilməsi, "Yeni dünya düzəni və mövcud qlobal geosiyasi proseslər fonunda insan hüquqları: çağırışlar və yeni baxışlar" mövzusunda icmalın hazırlanması, Uşaq və yeniyetmələrin sosial media asılılığının qarşısının alınması yollarına dair ekspert müzakirələrinin təşkili, "Milli-mənəvi dəyərlərin və ailə institutunun informasiya-kommunikasiya məkanında müdafiəsi" mövzusunda "dəyirmi masa"nın təşkili, "Azərbaycan dili - milli suverenlik və insan hüquqlarının ayrılmaz tərkib hissəsi kimi - xarici dövlətlərdə Azərbaycan dilinin vəziyyətinə dair" ictimai dinləmənin keçirilməsi, rəqəmsal suverenliyin qorunması, dezinformasiyaya, deepfake və manipulyasiya texnologiyalarına qarşı hüquqi və institusional mexanizmlərin gücləndirilməsi sahəsində icmalın hazırlanması kimi məsələlərə baxılacaq.

Təqdim olunan məsələlər ətrafında aparılan müzakirələrdə komitə üzvləri çıxış ediblər, qeyd və təkliflərini səsləndiriblər.

İclasda payız sessiyasında komitədə görülmüş işlər məqbul hesab olunub, yaz sessiyası üçün komitənin iş planının layihəsi təsdiq edilib.

* * *

Yanvarın 23-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Azər Əmiraslanov yeni sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib və onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Komitə sədri iclasın gündəliyində 8 məsələnin, o cümlədən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində 2025-ci ilin payız sessiyası dövründə görülən işlərin hesabatının, 2026-cı ilin yaz sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsinin və bir sıra qanun layihələrinin olduğunu söyləyib.

2025-ci ilin payız sessiyasında görülən işlər barədə məlumat verən Azər Əmiraslanov bildirib ki, hesabat dövründə komitənin 15 iclası olub, 68 məsələ, o cümlədən 28 qanun layihəsi və 1 hesabat geniş müzakirə edilib. Bununla yanaşı, komitənin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr edilən "Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik" mövzusunda konfrans keçirilib.

Komitə sədri bildirib ki, 2026-cı ilin yaz sessiyası üçün iş planına əsasən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin, qanunlarda dəyişikliklər edilməsi haqqında sənədlərin, habelə 2025-ci il dövlət büdcəsinin icrası ilə bağlı, Hesablama Palatasının 2025-ci ildə fəaliyyəti haqqında hesabatların müzakirəsi nəzərdə tutulub. Bununla yanaşı, ictimai dinləmələrin, konfransların keçirilməsi və digər məsələlər komitənin iş planında öz əksini tapıb.

Müzakirələr zamanı komitə üzvləri Əli Məsimli, Vüqar Bayramov, Aydın Hüseynov hesabat və iş planı ilə bağlı qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin yekununda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2025-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı məqbul sayılıb, 2026-cı il yaz sessiyası üçün iş planının layihəsi təsdiq olunub.

Sonra iclasda gündəlikdəki qanun layihələrinə baxılıb.

Əvvəlcə, Azər Əmiraslanov tərəfindən "Patent haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib. Qeyd olunub ki, sənəddə təklif edilən dəyişikliklər ölkədə ixtira və patent fəallığının yüksəldilməsinə, patent alınması ilə bağlı prosedurların sadələşdirilməsinə, ekspertiza müddətinin nəzərəçarpacaq dərəcədə azalacağına, ixtiranın yaradıcısı olan müəllifə ödənilməli olan qonorarın məbləğinin artacağına, Qlobal İnnovasiya İndeksi üzrə ölkəmizin beynəlxalq reytinqlərdə göstəricilərinin yaxşılaşacağına, əqli mülkiyyət qanunvericiliyinin daha da təkmilləşəcəyinə xidmət edəcək.

Gündəliyin digər məsələsi - "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov məlumat verib. Bildirilib ki, qanun layihəsi yol hərəkəti qaydalarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Sənəddə "Yol hərəkəti haqqında" qanunun 1-ci maddəsində avtomagistral anlayışı yeni redaksiyada təklif olunur. Qeyd edilən dəyişikliyə əsasən, "Avtomobil yolları haqqında" qanunda da avtomagistral anlayışının müvafiq redaksiyada verilməsi nəzərdə tutulur. Layihədə həmçinin ödənişli avtomagistrallarda sürət həddinin ayrıca tənzimlənməsi məqsədilə yaşayış məntəqələrindən kənarda minik avtomobilləri və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobilləri üçün sürət həddinin saatda 130 kilometrdən, digər avtobuslar, qoşqu aparan minik avtomobilləri, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri üçün isə saatda 90 kilometrdən çox olmayan həddə müəyyən edilməsi təklif olunur. Bununla yanaşı, "Yol hərəkəti haqqında" qanunun 85-ci maddəsinə "Qeyd" hissəsinin əlavə edilməsi nəzərdə tutulur. "Qeyd" hissəsində nəqliyyat vasitələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın mühafizə olunan duracağına aparılması ilə bağlı məsələlər öz əksini tapıb.

Sonra Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) təqdim edilib. Komitə sədri Azər Əmiraslanov bildirib ki, layihə ölkəmizin "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulmasının dəstəklənməsi məqsədini daşıyır. Qeyd edilib ki, adıçəkilən beynəlxalq sənədə qoşulmaq məqsədilə dövlət başçısı tərəfindən "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə Azərbaycan Respublikasının qoşulması ilə bağlı tədbirlər haqqında" 25 fevral 2025-ci il tarixli sərəncam imzalanıb. Həmin sərəncamda bu istiqamətdə bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulur.

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi sədrinin müşaviri İlqar Həsənov məsələyə dair fikirlərini açıqlayaraq, Kimberli Prosesinin tarixçəsi, təmsil etdiyi qurumun qeyd olunan məsələ ilə əlaqədar gördüyü işlər barədə danışıb. O, "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nin tələbləri barədə məlumat verib və bununla əlaqədar olaraq qanun layihəsində təklif olunan müvafiq dəyişiklikləri təqdim edib.

Daha sonra iclasda "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) mahiyyəti açıqlanıb. Məsələ barədə Maliyyə Nazirliyinin Müasir texnologiyalar və innovasiyalar şöbəsinin müdiri Nurlan Soltanov məlumat verib.

Diqqətə çatdırılıb ki, "Büdcə sistemi haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən həmin qanunla müəyyən olunmuş müddətlərdə dövlət büdcəsinin və icmal büdcənin göstəricilərinin tərtibi üçün zəruri olan məlumatların büdcə təşkilatları tərəfindən müvafiq dövlət orqanına təqdim edilməsi, dövlət büdcəsi göstəricilərinin, gəlir və xərclər bölgüsünün və digər məlumatların həmin orqan tərəfindən büdcə təşkilatlarına təqdim edilməsi "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi vasitəsilə həyata keçiriləcək.

"Mühasibat uçotu haqqında" qanuna edilən dəyişiklikdə "e-mühasibat" informasiya sistemi ifadəsi "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi" ifadəsi ilə əvəz olunur.

"Dövlət satınalmaları haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən satınalma prosedurunun nəticəsi üzrə satın alan təşkilatla təsərrüfat subyektləri arasında satınalma müqavilələrinin elektron qaydada - "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi vasitəsilə bağlanılması, bu proseslə bağlı bir sıra məsələlərin tənzimlənməsi təmin ediləcək.

Sonra Azər Əmiraslanov növbəti məsələni - "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qeyd olunub ki, sənədə əsasən, Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2027-ci il yanvarın 1-dək dayandırılır.

Daha sonra komitə sədri gündəliyin sonuncu məsələsi - "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsinə dair məlumat verərək bildirib ki, saziş müəyyən edilmiş qaydalara və şərtlərə uyğun olaraq hər iki tərəfin gömrük orqanları arasında gömrük qanunvericiliyinin düzgün şəkildə tətbiqinin təmin edilməsi, bu qanunvericiliyin pozulmasının qarşısının alınması, aşkar edilməsi və araşdırılması vasitəsilə bir-birlərinə yardım edilməsini nəzərdə tutur.

Təqdim olunan məsələlər ətrafında müzakirələrdə çıxış edən komitənin sədr müavini Azər Badamov, üzvləri Əlibala Məhərrəmzadə, Rövşən Muradov, Vüqar Bayramov, Zaur Şükürov, Tahir Mirkişili, Aydın Hüseynov qanunlara təklif olunan dəyişikliklərin əhəmiyyəti barədə öz fikirlərini açıqlayıblar.

Müzakirələrin sonunda qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Daxili İşlər Nazirliyində 2025-ci ilin yekunları müzakirə edilib

**Yanvarın 23-də Daxili İşlər Nazirliyində 2025-ci ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**





İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən hüquq-mühafizə siyasəti sayəsində ölkəmizdə möhkəm təməllərə söykənən sabitlik "Konstitusiya və Suverenlik İli" olan 2025-ci ildə də etibarlı qorunub. Cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələr layiqincə yerinə yetirilib, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad olunmuş ərazilərdə təhlükəsizlik etibarlı təmin edilib. Ümumən qanunla müəyyən edilmiş funksiyaların icrası digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə peşəkarlıq və qətiyyətlə davam etdirilib.

Hesabat məruzəsində vurğulanıb ki, ötən il əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 31.852 cinayət qeydə alınıb, onlardan 90,5 faizi açılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 310 fakt təşkil edib. Cinayətlərin 92,8 faizi və ya 29.572-i daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində araşdırılan hüquqazidd əməllər olmaqla 93,5 faizinin açılması təmin edilib. Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 90,1, qeyri-aşkar şəraitdə baş verənlərin 90,9, şəxsiyyət əleyhinə olanların 98,9, mülkiyyət əleyhinə olanların 89,5 faizi, qəsdən adam öldürmələrin, qəsdən sağlamlığa ağır zərər vurmaların, soyğunçuluqların və quldurluqların hamısı açılıb.

Xırda talamaların açılmasının nəticələri də yaxşılaşaraq 92 faizə yüksəlib.

Cinayətlərin ağır, xüsusilə ağır və transmilli mütəşəkkil növlərinin qarşısının alınması və istintaqı kimi mühüm vəzifələrin icrası sahəsində böyük bir iş həcmi yerinə yetirilib. Prokurorluq orqanları ilə birgə həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə cəmiyyətdə rezonans doğurmuş bir sıra cinayətlərin açılması təmin edilib, eləcə də keçmiş illərdən bağlı qalmış 355 cinayət açılaraq təqsirli şəxslər məsuliyyətə cəlb olunublar.

Ağır və xüsusilə ağır cinayətlər törətmiş 1.033 nəfər tutulub, 214 kriminal qrup zərərsizləşdirilib. Qrup halında baş verən cinayətlər 8,9, odlu silahın tətbiqi ilə törədilənlər 44,1, ailə münaqişəsi zəminli cinayətlər 3,1, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlər 17,5 faiz azalıb. Eyni zamanda ümumi cinayətlər 6,2, ağır və xüsusilə ağır cinayətlər 8,6, qeyri-aşkar şəraitdə baş verənlər 10,5, qəsdən adam öldürmələr 8,8, qəsdən sağlamlığa ağır zərər vurmalar 4,7, mülkiyyət əleyhinə olanlar 6,7, onlardan informasiya texnologiyalarından istifadə edilməklə törədilənlər 16,9, habelə yol-nəqliyyat hadisələri 12,3, qəzalarda ölənlərin sayı 9,8, xəsarət alanların sayı 13,6 faiz azalıb.

Həyata keçirilmiş qabaqlayıcı tədbirlərlə 90 erkən evliliyə cəhd faktı müəyyən edilərək 28 nəfər cinayət məsuliyyətinə cəlb olunub, 5 valideyn və 41 aidiyyəti şəxs barədə inzibati tənbeh tətbiq edilib, daha 57 şəxslə profilaktik iş aparılıb. Həmçinin 15 qız qaçırma faktı üzrə Cinayət Məcəlləsinin adam oğurluğu maddəsi ilə cinayət işi başlanılaraq 32 şəxs haqda müvafiq məsuliyyət tədbirləri görülüb.

Qeyri-leqal dövriyyədən 2024-cü illə müqayisədə 961 kiloqram çox - 5 ton 675 kiloqram narkotik vasitə çıxarılıb, 272 kiloqram narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, onlayn satışla bağlı 2 ton 724 kiloqram müvafiq vasitə aşkarlanıb, qanunsuz kultivasiya edilən və yabanı halda bitən 294 tondan artıq çətənə və xaş-xaş kolu yığılaraq məhv edilib, narkotiklərlə əlaqəli cinayətlərə görə 88 cinayətkar qrup zərərsizləşdirilib.

İnternet resurslarının real vaxt rejimində monitorinqi də davam etdirilərək dini radikalizmi və kriminal həyat tərzini təbliğ edən 954, narkotik vasitələrin onlayn satışı ilə məşğul olan 769, pornoqrafik materiallar yayan 272, kompüter sistemlərinə zərər vuran viruslar yayan 189, qanunsuz idman mərc oyunları təşkil edən 1.131, ümumilikdə 3.315 sayt, sosial şəbəkə hesabı və səhifə aşkarlanaraq bloklanması təmin edilib.

Təqsirləndirilən şəxslərin axtarışının nəticələri də yaxşılaşaraq 89,3 faiz təşkil edib, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 82 şəxsin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 40 nəfərin yeri müəyyən olunub.

Ümumilikdə 5.199 odlu silah, o cümlədən işğaldan azad edilmiş ərazilərdən 1.079 döyüş silahı, 2.183 mərmi və 220 mindən çox patron aşkarlanıb. Qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 502 fakt müəyyən edilib, həmin cinayətlərə görə 153 nəfər tutulub.

Qarabağ və Şərqi Zəngəzurda xidmət aparan polis və Daxili Qoşunlar Böyük qayıdış proqramının icrasının sürətlənməsi üçün əzmlə çalışaraq üzərlərinə düşən vəzifələri tam həcmdə yerinə yetiriblər.

Fəaliyyətin mühüm istiqamətlərindən olan və gündəlik nəzarətdə saxlanılan vətəndaş məmnunluğunun təmin edilməsi tədbirləri çərçivəsində ümumilikdə 8.491, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 70 şəhər və rayonundan olan 6.910 şəxs qəbul edilib, qaldırılan məsələlərin əksəriyyəti yerində və müsbət həll edilib. Vətəndaş müraciətlərinə həssaslıqla baxılaraq nazirliyə, onun "102" Xidmətinə və "qaynar xətlər"ə daxil olmuş, eləcə də sosial şəbəkələrdə yayımlanmış 3 milyona yaxın müraciətə çevik reaksiya verilib, habelə cinayətlər nəticəsində vurulmuş maddi ziyanın 86,7 faizi ödənilib. Dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən, sənədlərin və informativ məlumatların əldə olunması funksionallığını özündə birləşdirən "E-Polis" mobil tətbiqi təkmilləşdirilib və ötən ilin sonuna 825 mindən çox vətəndaş qeydiyyatdan keçib.

Şəxsi heyətin peşəkarlığının artırılması, mükəmməl nəzəri və praktiki hazırlığa malik olması, müasir iş metodlarına yiyələnməsi, bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə ölkə daxilində və xarici dövlətlərdə keçirilən təlim, seminar, treninq, kurslara və onlayn formatda proqramlara 63 mindən çox polis əməkdaşı və Daxili Qoşun hərbi qulluqçusu cəlb edilib.

İclasın gündəliyinə uyğun olaraq məruzəətrafı çıxışlar da dinlənilib. Çıxış edənlər görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, mövcud nöqsanlardan və onların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlərdən danışıb.

Kollegiya iclasına yekun vuran nazir 2025-ci ildə əldə olunmuş müsbət nəticələrin polis-vətəndaş münasibətlərinin davamlı inkişafının təzahürü və aidiyyəti dövlət orqanları ilə səmərəli əməkdaşlığın məntiqi yekunu olduğunu qeyd edərək göstərdikləri dəstəyə görə onlara təşəkkürünü bildirib. Cəmiyyətdə sabitliyin və təhlükəsizliyin qorunub saxlanılması naminə mövcud əlaqələrin gücləndirilməsinin vacibliyini, eləcə də vətəndaş məmnunluğunun təmin edilməsinin və hər bir şəxsin qanuni mənafeyinin və hüquqlarının müdafiəsinin əsas vəzifələrdən olduğunu vurğulayıb. Bu kontekstdə cinayətlərin qarşısının alınması, açılması və araşdırılması üzrə xidməti vəzifələrin icrasına, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinə yüksək məsuliyyət və peşəkarlıqla yanaşılmasını tələb edib. Nazir antinarkotik təbliğat sahəsində keçirilmiş maarifləndirmə tədbirlərinin əhəmiyyətinə də diqqət çəkərək bu istiqamətdə fəaliyyətin məqsədyönlü davam etdirilməsini və müvafiq tədbirlərdə iştirak edən dövlət qurumlarının mütəxəssislərinin, pedaqoqların, ictimaiyyət nümayəndələrinin tərkibinin genişləndirilməsini, məktəblərdən, valideynlərdən gələn hər bir aidiyyəti siqnala çevik reaksiya verilməsini tövsiyə edib.

Çıxışında bəzi ərazi orqanlarının fəaliyyətində olan çatışmazlıqları da qeyd edərək onların aradan qaldırılması və xidməti fəaliyyətin səmərəliliyinin davamlı surətdə artırılması ilə bağlı tapşırıqlarını verib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali diqqət və qayğıya, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, ölkədə qanunçuluğun, hüquq qaydasının qorunması, vətəndaşların təhlükəsizliyinin və məmnunluğunun təmin olunması sahəsində vəzifələr böyük əzm və qətiyyətlə davam etdiriləcəkdir.

*"Azərbaycan"*

# Xarici İşlər Nazirliyində geniştərkibli kollegiya iclası keçirilib

**Yanvarın 23-də Xarici İşlər Nazirliyində nazir Ceyhun Bayramovun rəhbərliyi ilə geniştərkibli kollegiya iclası keçirilib.**



Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Bildirilib ki, iclasda Xarici İşlər Nazirliyinin rəhbər heyəti və struktur bölmə rəhbərləri iştirak ediblər.

Kollegiya iclası zamanı Azərbaycan Prezidentinin müəyyən etdiyi xarici siyasət xəttinə uyğun olaraq 2025-ci il ərzində XİN tərəfindən görülən işlər, 2026-cı il üzrə əsas prioritetlər, ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, iqtisadi, iqlim və humanitar diplomatiya, beynəlxalq yardım səyləri, postmünaqişə dövründə diplomatik fəaliyyət, xaricdə Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması üzrə işlər və nazirliyin fəaliyyətinin təşkili məsələləri müzakirə olunub, müvafiq tapşırıqlar verilib.

# 2025-ci ilin yekunlarına dair müşavirə olub





**Yanvarın 23-də Dövlət Gömrük Komitəsinin 2025-ci il ərzindəki fəaliyyətinin yekunlarına dair müşavirə keçirilib.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata görə, tədbirdə Dövlət Gömrük Komitəsinin Aparat rəhbəri Kənan Əsədov tərəfindən 2025-ci ilin nəticələrinin müqayisəli təhlilinə dair təqdimat nümayiş etdirilib.

Həmçinin DGK Hüquqi Təminat İdarəsinin, Bakı Baş Gömrük İdarəsinin, Sumqayıt, Gəncə gömrük idarələrinin fəaliyyətləri ilə bağlı təqdimatlar nümayiş olunub.

Müşavirədə çıxış edən Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov bildirib ki, ölkəmizdə həyata keçirilən davamlı inkişaf strategiyasına uyğun olaraq 2025-ci ildə bütün sahələrdə olduğu kimi, gömrük sistemində də qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində zəruri addımlar atılıb.

Qeyd olunub ki, cari ildə də xidmət səviyyəsinin yüksəldilməsi, gömrük əməliyyatlarının sadələşdirilməsi, rəqəmsal həllərin genişləndirilməsi, əlçatanlığın, şəffaflığın təmin olunması istiqamətində gömrük orqanları qarşısında müəyyənləşdirilən tapşırıqların icrası davam etdiriləcək.

# Azərbaycan Respublikası Hərbi Prokurorluğunda 2025-ci ilin yekunlarına dair geniş kollegiya iclası olub

*Əvvəli 4-cü səh.*

Forum çərçivəsində dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri və aparıcı biznes nümayəndələri ilə keçirilən görüşlərin ölkəmizin beynəlxalq əməkdaşlıq imkanlarının genişlənməsinə mühüm töhfələr verəcəyini xüsusi vurğulayıb.

Daha sonra hesabat məruzəsi ilə çıxış edən Azərbaycan Respublikası baş prokurorunun müavini-Azərbaycan Respublikasının hərbi prokuroru, ədliyyə general-mayoru Bəhruz Əhmədov qeyd etdi ki, tarixi Zəfərin şərtləndirdiyi ordu quruculuğunun yeni mərhələsində Azərbaycan Respublikası Hərbi prokurorluq orqanlarının fəaliyyəti Azərbaycan Silahlı Qüvvələrində hərbi intizamın möhkəmləndirilməsinə, cinayətkarlıq və qanun pozuntularının qarşısının alınması və aradan qaldırılmasına, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, həmçinin hərbi təsisatlarda hüquqazidd əməllərə qarşı mübarizəyə, eyni zamanda dövlətimizin qüdrətinə, milli mənafelərimizə və Silahlı Qüvvələrimizin nüfuzuna xələl gətirə biləcək nöqsanların və qanun pozuntularının aradan qaldırılmasına yönəlmişdir.

Bildirilib ki, 2025-ci ildə hərbi prokurorluq orqanları tərəfindən qeydə alınmış cinayət hadisələrinin 99,7 faizinin açılması təmin edilmişdir.

Müsbət hal qismində vurğulanıldı ki, hesabat ilində qeydə alınmış hərbi xidmət əleyhinə cinayətlərin sayında 21.3 faiz azalma müşahidə edilməkdədir.

Qeyd edilib ki, 2025-ci ildə Azərbaycan Respublikası Hərbi Prokurorluğu üzrə "962-Etimad xətti" yaradılmış, fəaliyyətdə olduğu 4 aylıq müddət ərzində həmin əlaqə vasitəsilə daxil olan 219 müraciətə baxılmışdır.

2025-ci ildə Azərbaycan Respublikası Hərbi prokurorluq orqanlarına daxil olan 1001 müraciətə müvafiq qaydada baxılıb, eləcə də 3702-si bilavasitə hərbi hissələrdə olmaqla ümumilikdə 5911 vətəndaş qəbul edilərək dinlənilib, müraciətlərə müvafiq olaraq izahların verilməsi və onların həlli istiqamətində müvafiq tədbirlərin icrası həyata keçirilib.

Hesabat dövründə Azərbaycan Respublikası Hərbi prokurorluğu orqanları əməkdaşları tərəfindən qanunvericiliyin təbliği ilə bağlı çoxsaylı tədbirlər keçirilib, 99 dəfə mətbuatda, 18 dəfə televiziyada, 41 dəfə internetdə, 3 dəfə radioda çıxışlar edilib.

Hesabat ilində eyni zamanda korrupsiyaya qarşı mübarizə sahəsində də fəaliyyət uğurla davam etdirilib.

Daha sonra Azərbaycan Respublikası hərbi prokurorunun müavinləri-ədliyyə general-mayoru Şəfahət İmranov, ədliyyə polkovniki Nihad Şıxəliyev və ədliyyə polkovniki Qasım Məmmədov, Ağdam hərbi prokuroru, ədliyyə polkovniki Elnur Kərimov və Şəmkir hərbi prokuroru, ədliyyə polkovniki İlham Babayev çıxış edərək hesabat dövründə görülmüş işlərdən danışıb, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

Kollegiya iclasına yekun vuran baş prokuror Kamran Əliyev hərbi prokurorluq orqanları əməkdaşlarının möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edəcəklərinə, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunması, qanunun aliliyinin təmin edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklərinə, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək bütün hallara qarşı barışmaz mövqe tutacaqlarına əminliyini ifadə edərək, onlara uğurlar arzu edib.

İclasdan sonra baş prokuror Azərbaycan Respublikası Hərbi Prokurorluğunda yaradılan "962 - Etimad xətti"nin fəaliyyəti ilə yerində tanış olub və bu sahədə çalışan əməkdaşlarla görüşüb.

Tanışlıq zamanı "962 - Etimad xətti"nin fəaliyyət mexanizmi, müraciətlərin qəbulu və operativ araşdırılması qaydaları barədə məlumat verilib. Qeyd olunub ki, bu xətt hərbi qulluqçuların və vətəndaşların müraciətlərinin vaxtında, obyektiv və şəffaf şəkildə araşdırılmasına xidmət edir.

*"Azərbaycan"*

# Azərbaycan-ABŞ əlaqələri strateji tərəfdaşlığa əsaslanır

*Əvvəli 1-ci səh.*

Ötən il Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündəki çıxışından bir hissəni iki dəfə paylaşmışdı. Ağ Ev rəhbərinin bu addımı Trampın Cənubi Qafqaz liderlərindən birinə münasibətdə ictimai şəkildə verdiyi ilk açıq dəstək jestlərindən biri kimi qiymətləndirilmişdi. Avqustun 25-də Tramp üzərində xoş sözlərini yazdığı tarixi fotoşəkilləri şəxsi imzası ilə Azərbaycan liderinə hədiyyə göndərmişdi. Tramp hələ prezident seçilməzdən öncə İlham Əliyevin onun haqqında müsbət fikirlər söylədiyini yüksək qiymətləndirmiş, bunu səmimiyyət əlaməti kimi qəbul etmişdi.

13 oktyabr 2025-ci ildə Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh Sammiti də Donald Tramp və İlham Əliyev arasındakı münasibətlərin ən parlaq məqamlarından biri hesab olunur. Trampın bu tədbirdə Azərbaycan lideri haqqında işlətdiyi ifadələr və ona qarşı nümayiş etdirdiyi xüsusi rəğbət geniş əks-səda doğurmuşdu. Xüsusən, Trampın protokol qaydalarını kənara qoyaraq İlham Əliyevə "dostum İlham" deyə müraciət etməsi və səmimi söhbəti medianın diqqətindən qaçmamışdı. Həmin sammitə Azərbaycan liderini dəvət edən də məhz Donald Tramp idi.

Azərbaycan və Ermənistan liderlərinin Donald Trampı Nobel Sülh Mükafatına namizəd göstərməsindən sonra Trampın reaksiyası olduqca səmimi olmuşdu. Ağ Ev rəhbəri Bakıya göndərdiyi təşəkkür məktubunda bu jesti böyük şərəf adlandırmışdı.

Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması da iki ölkə arasındakı münasibətləri keyfiyyətcə yeni və daha yüksək səviyyəyə qaldıran tarixi bir hadisədir. Xartiyanın təməli 8 avqust 2025-ci ildə Vaşinqtonda Prezident İlham Əliyev və Prezident Donald Tramp tərəfindən imzalanmış Anlaşma Memorandumu ilə qoyulub. Sənədin hazırlanması üçün xüsusi Strateji İşçi qrupu yaradılıb və bu qrup artıq iki görüş keçirib. Sənəd iki ölkə arasında siyasi, iqtisadi, təhlükəsizlik, enerji, elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın yeni mərhələyə yüksəlməsi üçün hüquqi baza yaradır.

Tramp xarakter etibarilə praqmatik, konkret nəticəyə fokuslanan və güclü iradə nümayiş etdirən liderləri sevir. İlham Əliyevin müstəqil siyasəti, nümayiş etdirdiyi güclü iradə və sarsılmaz qətiyyəti Trampın siyasət fəlsəfəsi ilə üst-üstə düşür. Tramp üçün İlham Əliyev olduqca mürəkkəb bir regionda sabitliyi qoruyan, etibar edilə biləcək güclü müttəfiqdir. Beləliklə, Bakı və Vaşinqton arasındakı münasibətlər, sadəcə, rəsmi sənədlərin dili ilə deyil, iki güclü liderin bir-birinə olan sarsılmaz etimadı və səmimi dostluğu ilə formalaşır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan qlobal müstəvidə mövqelərini daha da möhkəmləndirir




**Beynəlxalq hüququn mütləq gücünü və imperativliyini itirdiyi, ənənəvi mexanizmlərin effekt vermədiyi bir dövrdə yeni nizamın formalaşması gözlənilən idi. Hazırkı məqamda istənilən beynəlxalq subyektin ən böyük nailiyyəti yeni nizamın iyerarxiyasında yer tutmaq ola bilər. Bu mənada Azərbaycan Respublikasının Donald Trampın "Sülh Şurası"nın təsisçisi qismində çıxış etməsi, əslində, Prezident İlham Əliyevin yeni dövrün qlobal memarlarından biri kimi rolunu rəsmiləşdirmiş oldu. Heç şübhəsiz ki, hərbi-siyasi yolla yeni reallıqlar yaratmış, separatizmə son qoymaqla tarixin ilk səhifəsini yazmış lider bu gün nizamı yaradanlar sırasında, həm də ən öndə olmalı idi.**



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, Vətən müharibəsi və antiterror tədbirlərində Azərbaycanın böyük zəfərinin ardınca yaranan yeni reallıqda Prezident İlham Əliyevin təşəbbüsləri əsasında formalaşan sülh prosesi ölkə liderinin qətiyyəti və Vaşinqtonda Ermənistanla sülh və dövlətlərarası münasibətlərin bərqərar edilməsinə dair sazişin paraflanması ilə tam yeni bir mərhələyə qədəm qoyub. "Sülh prosesinin sonrakı mərhələdə Azərbaycan ərazisindən Ermənistana gedən yüklərə tranzit məhdudiyyətinin aradan qaldırılması, sərhədlərin delimitasiya və demarkasiyası istiqamətində aidiyyəti hökumət komissiyalarının görüşlərinin intensivləşməsi, o cümlədən vətəndaş cəmiyyəti institutları arasında kommunikasiyaların intensivləşməsi kimi tendensiyalarla müşayiət olunması dövlət başçımızın Davosda ifadə etdiyi kimi, artıq Azərbaycan və Ermənistan arasında sülhün və əlaqələrin bərqərar olunması məsələsinin praktik mərhələyə qədəm qoyduğunu göstərməkdədir. Əlbəttə, xalqlararası etimad quruculuğu məsələsinə nail olmaq zaman alacaq, lakin siyasi iradənin ortaya qoyulması, o cümlədən hökumətlərarası məsələlər üzrə real addımların atılması etimad mühitinin qurulması istiqamətində bir sıra hallarda həlledici amil kimi çıxış etməkdədir. Bu isə 2026-cı ildə sülh prosesinin hüquqi zəmində də həllini tapması üçün ciddi perspektiv yaradır. Davosda Azərbaycan və Ermənistan liderlərinin panel müzakirələr zamanı ifadə etdiyi mövqe də, əslində, bu istiqamətdə müəyyən mənada siqnal hesab edilə bilər", - deyə Bəhruz Məhərrəmov bildirib.

Deputat qeyd edib ki, hazırda qlobal miqyasda beynəlxalq nizamın yenidən fundamental dəyərləndirilməsi prosesi başlanıb. Ənənəvi institusional mexanizmlərin kifayət qədər çevik və işlək davrana bilməməsi, yaxud yeni reallıqda formalaşan maraqları qarşılamaq gücündə olmaması bəşər tarixində indiyə qədər müşahidə olunmamış qlobal status-kvo formalaşdırıb. Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Sülh Şurası da bu mənada təklif edilən yeni mexanizmlərdən biri və faktiki olaraq hələ ki, ən nüfuzlusu sayıla bilər. Prezident Tramp Davosdakı çıxışında Sülh Şurasının indiyədək mövcud olan analoji mexanizmlər arasında ən nüfuzlu olacağını bildirib. Bu isə o deməkdir ki, yeni fundamental dəyərlərin və yeni qlobal məzmuna malik formatın iştirakçıları həm də yeni nizamın yaradıcıları hesab ediləcək. Bu mənada Prezident İlham Əliyevin ABŞ-nin Prezidenti Donald Trampın dəvəti ilə Sülh Şurasının təsisçisi qismində iştirakçılığa razılıq verməsi yeni dünya nizamında Azərbaycanın aparıcı rolunun göstəricisi kimi dəyərləndirilməlidir.

Siyasi məqamların özlüyündə mühüm amil olduğunu bildirən B.Məhərrəmov deyib ki, Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərindən sonra yaratdığı və qazandığı hərbi-siyasi qələbələrə əsaslanan reallıq ölkəmizin qlobal miqyasda ciddi siyasi üstünlüyə malik olduğunu demək üçün xeyli əsaslar verir: "Çox çətin coğrafiyada Azərbaycanın separatizmə son qoyması və hərbi-siyasi yolla sülhə nail olması ziddiyyətlərin artdığı bir məqamda ölkəmizin təcrübəsinin öyrənilməsini vacib tandemə çevirib. Sülh Şurası Azərbaycana artan qlobal nüfuzdan başqa, həm də ciddi iqtisadi dividendlər vəd edir. Belə ki, yeni dünya nizamında yeni marşrutlar müəyyən edilərkən Azərbaycan həlledici fiqur kimi özünün layihələrinin aktiv müdafiəçisi qismində çıxış etmək imkanına malik olur. Beləliklə, ötən dövr ərzində realizə olunan layihələr özünün alternativsizlik statusunu daha da möhkəmləndirir. Digər tərəfdən, yeni nizamda aparıcı qüvvə kimi çıxış etmək ölkənin qlobal miqyasda əlverişli investisiya mühitinə malik coğrafiya kimi reytinqinə təsir göstərəcək və investorlar üçün münbit və cəlbedici, ələlxüsus yatırımların qarantiyalandığı region rolunu daha da gücləndirəcək".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin Davosda "Euronews" telekanalına müsahibəsi, əslində, beynəlxalq sistemin fundamental olaraq yenidən dəyərləndirilməsi prosesinə Azərbaycanın çevik reaksiyasının bəyanı kimi qiymətləndirilə bilər. Dövlət başçısının müsahibədə ifadə etdiyi kimi, artıq beynəlxalq hüquq normaları dünya ictimaiyyətinin bütün üzvləri tərəfindən mütləq qəbul olunmur. Bu isə o deməkdir ki, yeni nizam artıq əvvəlki qaydaları istisna etməkdədir. Deməli, qlobal miqyasda dövlətlərin mövcudluğunu qoruması, maraq və mənafelərini təmin etmələri üçün yeni şəraitə uyğunlaşma şərtdir. Ötən dövrün təcrübəsi göstərir ki, Azərbaycan yeni formasiyanın tələblərinə nəinki uyğunlaşa bilib, üstəlik, həyata keçirilən çoxvektorlu xarici siyasət kursu, həmçinin tam mənada nail olunmuş siyasi-iqtisadi müstəqillik Bakıya proseslərin gedişində öz şərtlərini diktə etmək imkanı yaradıb. Xüsusən Rusiya-Ukrayna münaqişəsinin davam etdiyi və cənub qonşumuz İranda daxili vəziyyətin gərginləşdiyi bir dönəmdə Azərbaycanda daxili stabilliyin tam mənada təmin olunması, hərbi-siyasi zəfərlərin dayanıqlılığının təmini istiqamətində həlledici addımların atılması, o cümlədən Ermənistanla 30 illik münaqişəyə birdəfəlik son qoyulması bu tezisləri daha da gücləndirir. Bu mənada Prezident İlham Əliyevin Davos auditoriyası üçün kifayət qədər maraqlı persona və fikirləri ilə hesablaşılan lider olduğundan "Euronews"un müsahibə üçün müraciət etməsi qlobal ictimai rəyin Davos formatına sifarişi hesab oluna bilər.

B.Məhərrəmov bildirib ki, ümumiyyətlə, ötən dövrün təcrübəsini təhlil edərək Davos Dünya İqtisadi Forumunun tarixinin heç bir dövründə 56-cı toplantı qədər mürəkkəb geosiyasi şəraitdə, qlobal ziddiyyətlərin dərinləşdiyi və ayırıcı xətlərin daha qabarıq formada özünü büruzə verdiyi situasiyada reallaşmadığını əminliklə deyə bilərik: "Bu reallığın təməlində bir neçə konseptual məqam dayanır. İlk növbədə dövlət başçımızın Davosda "Euronews" telekanalına müsahibəsində də ifadə etdiyi kimi, biz elə vəziyyətlə üzləşirik ki, beynəlxalq hüquq normaları dünya ictimaiyyətinin bütün üzvləri üçün artıq mütləq görünmür. Hüququn gücü yox, gücün hüququnun hökm sürdüyü şəraitdə ənənəvi qlobal mexanizmlər artıq beynəlxalq nizamı səmərəli formada təmin etmək iqtidarında deyil. Nəticə etibarilə, köhnə qaydalarla yeni nizamı təmin etmək, dövlətlər arasında münasibətləri beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplər, xalqlararası əlaqələri isə ümumbəşəri dəyərlər əsasında təmin etmək mümkün olmur. Bu mənada Davos Dünya İqtisadi Forumunun 56-cı toplantısı yeni dövr və yeni nizama keçid mərhələsi sayıla bilər. Vətən müharibəsi və antiterror tədbirlərindəki böyük zəfərləri ilə yaratdığı reallıqlar, o cümlədən tam təmin olunmuş siyasi və iqtisadi müstəqilliyi fonunda Azərbaycan lideri foruma öz mövqeyindən əmin olan və status-kvo diktə edən dövlətin başçısı kimi qatılıb. Bunun da kifayət qədər təməlli səbəbləri mövcuddur. İlk növbədə dünyada münaqişələrin qızışdığı, yeni geosiyasi iddiaların meydana çıxdığı bir dövrdə Azərbaycan öz gücü və imkanları hesabına, habelə liderinin qətiyyəti ilə 30 illik işğala və dərin köklərə malik separatizmə birdəfəlik son qoymaqla, Cənubi Qafqaz kimi tarixən qeyri-sabit sayılan və münaqişələr, ziddiyyətlər ocağı olan bir coğrafiyada dayanıqlı, de-fakto sülhə nail olub. Bundan başqa, postpandemiya dövrünün qlobal iqtisadi böhranlar seriyasına, neft istehsalında azalmaya, BMT-yə üzv olan 70 dövlətin ərazisindən daha böyük bir coğrafiyada sıfırdan yeni yaşayış məskənləri salınmasında ehtiva olunan Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması və Böyük qayıdışın təmin olunmasına ciddi maliyyə vəsaiti tələb olunmasına baxmayaraq, fiskal intizamın və makroiqtisadi sabitliyin təmin edilməsi, korrekt inkişaf strategiyası formalaşdıra bilməsi Davosda süni intellekt, iqlim dəyişikliyi və geosiyasi təhlükəsizlik məsələləri fonunda iqtisadi amillərin xüsusi müzakirə mövzusuna çevrildiyi bir vaxtda ölkəmizi beynəlxalq investorların gözündə xüsusi mərtəbəyə qaldırıb".

Deputat qeyd edib ki, məhz bu amillər Azərbaycan Prezidentini Davos forumunda məsləhətinə ən çox ehtiyac duyulan qlobal personalardan birinə çevirib. Təsadüfi deyil ki, dünyanın birnömrəli gücü olan ABŞ-nin Prezidenti Donald Tramp yeni dünya nizamı mexanizmi kimi təklif etdiyi "Sülh Şurası"nın təsisçiləri sırasında məhz Azərbaycan liderini görmək istədiyini açıq şəkildə bəyan etdi. Qeyd olunanlar fonunda əminliklə deyə bilərik ki, Davos Dünya İqtisadi Forumunun 56-cı toplantısı Azərbaycanın qlobal iyerarxiyada rolunu möhkəmləndirməsi baxımından mühüm müstəviyə çevrildi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bu forumda da Azərbaycanın logistika və enerji imkanları diqqət mərkəzində oldu

**Davos İqtisadi Forumu dünya liderlərinin və nəhəng maliyyə biznes dairələrinin qatıldığı qlobal tədbirdir. Burada dünyanı maraqlandıran və rahatsız edən mühüm məsələlər geniş müzakirə olunur, vacib qərarlar qəbul edilir.**

Forumda həmçinin dünyanın aparıcı KİV-i bu beynəlxalq tədbir barədə cəmiyyətə maraqlı və yeni informasiya çatdırmaq istəyirlər. Bu zaman onlar müsahiblərinin kimliyinə və onun siyasi çəkisinə xüsusi əhəmiyyət verirlər, çalışırlar ki, müsahibləri vasitəsilə təsir dairələrində olan auditoriyaya sanballı informasiya və ya şərh ötürsünlər. Bu, bütün dünyada KİV-in can atdığı əsas hədəfdir.

"Euronews" telekanalının Davosda "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbir keçirməsi də dövlətimizin başçısının şəxsində yüksək dünyagörüşə və siyasi mədəniyyətə malik bir lider görmək istəməsi olmuşdur. Bu yerdə tədbiri idarə edən moderatorun və kanalın sədri Pedro Varqasın ölkəmizlə bağlı ciddi bilgilər əldə etməsini xüsusi vurğulamaq lazımdır. Pedro Varqas Prezident İlham Əliyevin şəxsi keyfiyyəti ilə yanaşı, gördüyü işləri yüksək dəyərləndirərək demişdir: "Cənab Prezident, Siz fərəh hissi duyan ölkəyə, öz gələcəyinə əmin olan ölkəyə rəhbərlik edirsiniz. Siz də hiss edə bilərsiniz ki, Azərbaycan dünyada öz mövqeyindən əmindir. "Euronews"dan əlavə olaraq, xarici investor kimi biz özəl kapitalımızla Azərbaycana sərmayə yatırmaqdan şadıq və icazə verin, Azərbaycanın hazırkı mövqeyinin uğurunun təməlində dayanan üç sahəni qeyd edim. Birinci yerdə Sizin diplomatik keyfiyyətləriniz, beynəlxalq diplomatiyanız dayanır. Sizin ölkəniz çox mürəkkəb coğrafiyada salınmış bir körpüdür".

"Euronews" telekanalının sədri Azərbaycan Prezidentinin apardığı logistika siyasətini yüksək dəyərləndirərək bildirmişdir ki, Azərbaycan bu sahədə islahatlar sayəsində hava və dəniz limanları, fiber-optika, həmçinin böyük məlumat mərkəzləri baxımından qlobal səviyyədə maraq doğurur. Sədr ölkəmizi logistika baxımından Asiya ilə Avropanı birləşdirən mühüm bir ölkə kimi dəyərləndirmişdir. TRIPP marşrutunun açılmasını qeyd etməsi isə Prezident İlham Əliyevin diplomatik qələbəsinə edilən bir işarə idi.

Dövlətimizin başçısı "Euronews" telekanalına dəvətə görə təşəkkürünü bildirdi və ölkəmiz barədə deyilən xoş sözlərə görə minnətdarlıq etdi. Vurğuladı ki, Azərbaycan üçün uzun illər prioritet sahə enerji sektoruna investisiya qoymaq olub və artıq burada icra edilən böyük layihələr tamamlanıb. İndiki halda ölkə üçün əsas prioritet sahə qeyri-enerji sektorudur.

Məlum olduğu kimi, Azərbaycan dünyada "yaşıl enerji"yə keçid edən ilk ölkələrdəndir. Baxmayaraq ki, ölkəmiz zəngin neft-qaz resurslarına sahibdir, yeni dövrün tələblərinə uyğun olaraq "yaşıl enerji"dəki zəngin potensialından istifadə etməyi planlaşdırır. Dövlətimizin başçısı vurğuladı ki, 2030-cu ilə qədər Azərbaycanda Günəş və külək enerjisi üzrə 8 giqavat güc əldə edilməsi gözlənilir.

Prezident həmçinin qarşıdakı illərdə iqtisadi imkanlarımızı genişləndirəcək sahə kimi Qarabağ və Şərqi Zəngəzurda mədənçilik sənayesinin önəmini vurğuladı. Uzun illər bu ərazilər düşmən işğalında olduğu üçün sərvətlərimizdən istifadə edə bilmirdik. Torpaqlarımız işğaldan azad edildikdən sonra yüksək texnologiyalardan istifadə olunaraq burada tədqiqat işləri aparılır. Məqsəd bu mədənlərin potensialının dəyərini müəyyənləşdirməkdir. Bununla bağlı dövlətimizin başçısı qeyd etdi ki, mədənçilik, bərpaolunan enerji, süni intellekt və məlumat mərkəzləri xarici investorlar üçün əsas hədəf olmalıdır. Bütün bunların fonunda ölkənin gələcək inkişafında qeyri-neft-qaz sektorunun rolu danılmazdır: "Bu, faktiki olaraq iqtisadi fəaliyyətin ən yaxşı göstəricisidir. Təəssüf ki, Azərbaycanda neft ehtiyatlarının təbii azalması səbəbindən iqtisadiyyatımız sürətlə inkişaf edə bilmir. Lakin, qeyd etdiyiniz kimi, qeyri-neft sektoru 2 faizdən çox artıb və neft-qazla əlaqəli olmayan sənaye isə ötən il 5,5 faiz artıb. Prezident olaraq mənim üçün bunlar əsas göstəricilərdir".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Azərbaycan sülhsevər imicini Davos İqtisadi Forumunda bir daha dünyaya nümayiş etdirdi

**2026-cı ildə baş tutan sayca 56-cı Davos Dünya İqtisadi Forumu beş əsas qlobal çağırış üzərində cəmlənib. Bu çağırışlar dövlət-özəl sektoru arasında dialoq və əməkdaşlığa istiqamət verməyi, eyni zamanda bütün maraqlı tərəfləri bunların həllinə cəlb etməyi hədəfləyir. Çağırışlar içində mübahisəli dünyada əməkdaşlıq, yeni inkişaf mənbələrinin açılması, insanlara sərmayə qoyuluşu, innovasiyaların məsuliyyətlə tətbiq edilməsi və planetar sərhədlər daxilində rifahın qurulması yer tutur. Bu gün dünya liderləri etimadın aşınması dövrü ilə üzləşirlər. Cəmiyyətlər daxilində parçalanma, mürəkkəblik, habelə texnoloji dəyişikliklər sürətlə artır. Təhlükəsizlik və suverenliklə bağlı uzun müddətdir ki, skeptik yanaşmalar hökm sürür.**



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, belə məqamda əməkdaşlıq üçün yeni mexanizmlərə ehtiyac duyulur. İnnovasiya və texnologiya, insan kapitalının inkişafı, qlobal inteqrasiya qabaqcıl və inkişaf etməkdə olan iqtisadiyyatlarda artımı təşviq edən amillərdir. "Zəif institutlar da bəzən qlobal artım perspektivlərinə təsir göstərir. Dövlət və özəl əməkdaşlığı gələcəyin işlərinə hazır olan müasir, daha möhkəm cəmiyyətin qurulmasına kömək edə bilər. Gələcək enerji ehtiyaclarının ödənilməsi vacibdir. Bu həm də yeni texnologiyaların genişləndirilməsini, elektrik şəbəkələrinin modernləşdirilməsini və daha çox insanın innovasiyalara çıxışını tələb edəcək. Ətraf mühitin mühafizəsi və iqtisadi artımın sürətləndirilməklə, dairəvi, bərpaedici və inklüziv yanaşmalara sərmayə qoymaqla, resursları tükənmədən və ya insanları geridə qoymadan uzunmüddətli rifah yaradan iqtisadiyyatlar yaradıla bilər. Bu baxımdan Davos forumu "Əməkdaşlıq ruhu" mövzusu adı altında keçirilir. Azərbaycan bu dəfə də Davos İqtisadi Forumunda yüksək səviyyədə iştirak etdi. Bunu təsdiq edən bir neçə amil var. Öncə qeyd edək ki, Prezident İlham Əliyev yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibə verərkən bir sıra məqamlara aydınlıq gətirdi. Dövlət başçımız bir daha vurğuladı ki, beynəlxalq hüquq normaları dünya ictimaiyyətinin bütün üzvləri üçün artıq mütləq görünmür, yəni burada selektiv yanaşmanın tətbiqi, təəssüflər olsun ki, davamlı xarakter alıb. Buna görə də Azərbaycanın strateji məqsədi milli maraqlar əsasında nəticələri əldə etməkdən ibarətdir", - deyə deputat əlavə edib.

A.Badamov qeyd edib ki, Azərbaycan beynəlxalq hüquqa tam riayət edərək düzgün hesab etdiyi siyasət həyata keçirib. Deputatın fikrincə, siyasi inkişaf, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası beynəlxalq hüquqa və ümumi dəyərlərə uyğun idi: "Azərbaycan çox aydın bilirdi ki, dünya yeni eraya qədəm qoyur və bu era mənfi dəyişiklikləri də özü ilə gətirir. Belə olan halda qanunun aliliyi deyil, güc qaydası dünyanı idarə edir. Azərbaycanın sülhyaratma konsepsiyası dünya tərəfindən təqdir edilir. Bu baxımdandır ki, Şeyx Zayedin adını daşıyan fond Azərbaycan liderinin fəaliyyətini "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq bildi. Dövlət başçımız müsahibə zamanı bildirdi ki, sülh şəraitində yaşamaq xüsusi işdir, eyni zamanda böyük fürsətdir. Yəni tarixi şans yaranıb, bundan yararlanmaq lazımdır. Münasibətləri əməkdaşlığa çevirmək son dərəcə zəruridir. Azərbaycan ilə Ermənistan arasında münasibətlər artıq əməkdaşlığa çevrilir. Azərbaycan Ermənistana gedən yüklərin daşınmasında məhdudiyyətləri aradan qaldırıb. Dövlət başçımız regionda, dünyada gedən proseslərə son dərəcə müfəssəl və korrekt şəkildə toxundu. Ölkəmizin rəhbəri bildirdi ki, sabitlik, proqnozlaşdırılma və sülh ən böyük sərvətdir. Azərbaycan nəqliyyat sisteminə, müasir boru kəmərlərinə, təbii resurslara malikdir və bütün bunların hər birini fürsətə çevirməyi bacarır. Bu amillərin hər biri həm də Avropanın enerji təhlükəsizliyini gücləndirmək üçün imkan yaradır. Lakin Avropa təsisatları, daha dəqiq desək, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası Azərbaycana qarşı qərəzli yanaşma sərgilədi. Bu baxımdan da biz onlarla əməkdaşlığı dayandırmışıq. Artıq bu cür təsisatların addımlarına reaksiya vermirik".

A.Badamov Prezident İlham Əliyevin "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda keçirilən panel iclasda iştirakını xatırladaraq əlavə etdi ki, dövlətimizin başçısı iclas zamanı moderatorun suallarına olduqca əhatəli cavab verib. Bildirildi ki, 2025-ci ilin 8 avqust tarixində imzalanan sənədlər müharibə və qan tökməyə son qoyub. Dövlət başçısı bunu tarixi nailiyyət kimi xarakterizə etdi. 5-6 ay ərzində sülh şəraitində yaşamağımıza baxmayaraq, əldə artıq nəticələr var. "Sülhün faydası əməkdaşlığın başlanmasında əks olunur", - deyən dövlət başçımız olduqca məntiqli ritorika ortaya qoydu. Burada diqqətçəkən məqamlardan biri də Ermənistan Prezidenti Vaaqn Xaçaturyanın Azərbaycan Prezidenti İlham Əliyevin regionda sülhə nail olmaq üçün səylər göstərdiyini deməsi idi. Buna görə o, Prezident İlham Əliyevə təşəkkür etdi. Dövlət başçımızın liderlik qabiliyyəti, şəxsi keyfiyyətləri Serbiya Prezidenti Aleksandar Vuçiç tərəfindən bir daha dilə gətirildi. Vuçiç müasir dünyanı xarakterizə edərkən, kiçik dövlətlər arasında qarşılıqlı əlaqənin vacibliyinə toxundu, eyni zamanda dövlət başçımızın fəaliyyətini çox yüksək dəyərləndirdi.

Azər Badamov Prezident İlham Əliyevin "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanması mərasimində iştirakına da toxunaraq ABŞ Prezidenti Donald Tramp ilə görüşünə diqqət çəkib: "Donald Tramp yenidən hakimiyyətə gəldikdən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələr inkişaf edir və hər iki tərəf bu durumdan məmnundur. Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu var və dövlət başçımız bu amili bir daha diqqətə çəkdi. İki dövlət və xalq arasında yaranan münasibətlər ticarət əlaqələrinin yaranmasında da özünü göstərir. TRIPP layihəsi regional bağlantılar baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Dünyanın fövqəldövləti ilə dərinləşdirilən münasibətlər həm Azərbaycanın, həm ABŞ-nin maraqlarına cavab verir, həm də regionumuzun inkişafı üçün olduqca vacib amildir. Azərbaycan hər zaman olduğu kimi, beynəlxalq əməkdaşlığa, sülhə və sabitliyə töhfə verir. Məhz bu, dünya tərəfindən təqdir edilir. Prezident İlham Əliyev Yaxın Şərqdə sülhü möhkəmləndirmək üçün dəstək göstərir, bu işdə təşəbbüskar lider kimi çıxış edir".

A.Badamov vurğulayıb ki, Azərbaycan Davos İqtisadi Forumunda iştirak etməklə xalqımızın sülhsevər imicini bir daha dünyaya çatdırıb. Forum çərçivəsində dövlətimizin başçısının biznes dünyasının önəmli şəxsləri, böyük şirkətlərin prezidentləri ilə keçirdiyi görüşlərin böyük əhəmiyyəti var. Ölkəmizin rəhbəri iri korporasiyaların, böyük şirkətlərin diqqətini Azərbaycana cəlb etməyi bacardı. Bu isə böyük maliyyə imkanları, iqtisadi perspektivlər, artan nüfuz, etimad göstərilən tərəf baxımından çox önəmli amillərdir. "Azərbaycanda investisiya potensialı geniş olan sahələr mövcuddur. Enerji keçidi və saxlancı, bərpaolunan enerji, rəqəmsal infrastruktur kimi imkanlar var. Həmçinin İT infrastrukturunun qurulması və modernləşdirilməsi, şəbəkə avadanlıqları, məlumat mərkəzləri, bulud infrastruktur layihələri, qabaqcıl məlumat mərkəzlərinin layihələndirilməsi və tətbiqi ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edildi. Azərbaycan ənənəvi sahələrlə yanaşı, müasir, yeni sahələr üzrə əməkdaşlıqlarını daha da dərinləşdirmək niyyətindədir. Bir sözlə, Davosda dövlət başçımızın çıxışları, siyasi liderlik qabiliyyəti Zəfər əldə edən xalqın imicinə tam uyğundur", - deyə deputat sonda bildirib.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# İlham Əliyevin Davos diplomatiyası

## Azərbaycan siyasi-iqtisadi və strateji tərəfdaşlarının sayını artırır

**Prezident İlham Əliyevin Davos Dünya İqtisadi Forumunda (WEF) iştirakı Azərbaycanın xarici siyasətinə həm iqtisadi, həm də siyasi dividendlər gətirən strateji bir addım oldu. Davos forumu, sadəcə, iqtisadi konfrans deyil, dünya elitasının, dövlət başçılarının, nəhəng şirkətlərin və beyin mərkəzlərinin toplandığı nüfuzlu qlobal platformadır. Azərbaycan bu platformadan istifadə edərək özünün iqtisadi modelini, enerji təhlükəsizliyindəki rolunu və nəqliyyat-logistika potensialını dünyaya nümayiş etdirir.**

**Prezident İlham Əliyevin forum çərçivəsindəki iş qrafiki olduqca zəngin və məhsuldar olub. Dövlət başçısı qısa müddətdə 5-dən çox dövlət və hökumət başçısı, 3 beynəlxalq təşkilat rəhbəri ilə mühüm siyasi görüşlər keçirib. Prezident dünyanın ən böyük 10 şirkət və maliyyə institutunun rəhbərləri ilə görüşüb, həmçinin panel müzakirələrində, təqdimat tədbirlərində iştirak edib. Bu qədər çoxsaylı və yüksəksəviyyəli görüşlərin qısa müddətə sığdırılması Azərbaycan Prezidentinin fəaliyyətində yüksək dinamizmini və ölkənin milli maraqlarını bütün platformalarda qətiyyətlə qorumasını nümayiş etdirir.**

Xüsusilə vurğulamaq lazımdır ki, görüşlərin əksəriyyəti qarşı tərəfin müraciəti əsasında baş tutub. Bu, Prezident İlham Əliyevin şəxsi nüfuzunun və beynəlxalq aləmdə "sözü imzası qədər keçərli olan lider" kimi tanınmasının nəticəsidir. Eyni zamanda Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Orta dəhliz layihəsindəki mərkəzi mövqeyi ilə bağlıdır. Prezidentin Davosda iş qrafikinin sıx olması dövlət maraqlarının maksimum səviyyədə müdafiəsindən xəbər verir. Qərb və Şərq arasında körpü rolu oynayan, Avropanın enerji təhlükəsizliyində həlledici tərəfdaş olan Azərbaycana marağın böyük olması təbiidir və bu, diplomatik müstəvidə Bakının mövqeyini gücləndirir. Prezident İlham Əliyevin Davosdakı fəaliyyəti iqtisadi diplomatiyanın ən uğurlu nümunələrindən biridir. Forum çərçivəsində aparılan müzakirələr Azərbaycanın sabit, etibarlı və gələcəyə hədəflənmiş tərəfdaş imicini möhkəmləndirir.

Transmilli şirkətlərin rəhbərləri ilə Davosda keçirilən görüşlər, sadəcə, protokol xarakteri daşımır, bunlar birbaşa xarici investisiyaların real layihələrə çevrilməsi üçün təməl rolunu oynayır. Xüsusilə "BlackRock" və Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) arasında imzalanan niyyət protokolu ölkəyə milyardlarla dollar investisiya potensialı vədləri ilə diqqət çəkir. "BlackRock" şirkətinin rəhbəri Larri Fink ilə görüş və ARDNF ilə imzalanan niyyət protokolu, Azərbaycanın qlobal maliyyə elitasındakı yerini tamamilə yeni bir pilləyə daşıyır. "BlackRock", sadəcə, bir şirkət deyil, idarə etdiyi 10 trilyon dollardan çox aktivlə dünyanın ən böyük investisiya meneceridir. Belə bir nəhəngin Azərbaycanla rəsmi protokol imzalaması ölkəmizin investisiya mühitinin beynəlxalq standartlara cavab verdiyinin ən yüksək təsdiqidir. Bu əməkdaşlıq digər transmilli korporasiyalar və fondlar üçün "Azərbaycana gəlin" çağırışı edən yaşıl işıq rolunu oynayır.

Nüfuzlu şirkətlərin (bərpaolunan enerji, texnologiya və sənaye nəhəngləri) rəhbərləri ilə birbaşa təmaslar, ölkəyə qeyri-neft sektorunda birbaşa xarici investisiyaların cəlb edilməsinə də xidmət edir. Prezidentin Davosda nümayiş etdirdiyi iqtisadi diplomatiya sayəsində Azərbaycan yüksək texnoloji həllərin tətbiq olunduğu, "yaşıl enerji"yə keçid edən və qlobal təchizat zəncirində mərkəzi yer tutan strateji tərəfdaş kimi tanınır. Ölkəmiz, sadəcə, enerji ixracatçısı kimi deyil, həm də "yaşıl enerji" və rəqəmsal iqtisadiyyat sahəsində regional mərkəz kimi dünyaya təqdim olunur. "Dell", "Microsoft" və ya "Cisco" kimi texnologiya nəhəngləriylə təmaslar ölkədə rəqəmsal ekosistemin qurulmasına və yerli kadrların ən müasir standartlara uyğun yetişməsinə xidmət edir. Qeyri-neft sektoruna yatırılan hər bir dollar Azərbaycanın karbohidrogen resurslarından asılılığını azaldır və iqtisadi dayanıqlılığı artırır. Davos bu investisiyaların "yol xəritəsi"nin cızıldığı əsas platformadır. Azərbaycanın ənənəvi neft-qaz ölkəsindən "yaşıl enerji" ixracatçısına çevrilməsi beynəlxalq müstəvidə ən çox müzakirə edilən mövzulardan biridir. "Masdar", "ACWA Power" və "Fortescue" kimi şirkətlərlə qurulan tərəfdaşlıq Azərbaycanı Xəzər dənizinin külək və günəş enerjisi potensialını Avropaya nəql edəcək əsas oyunçuya çevirir. Qara dənizin dibi ilə çəkiləcək elektrik kabeli və "Yaşıl Enerji Dəhlizi" layihəsi Azərbaycanın regiondakı geostrateji əhəmiyyətini yeni müstəviyə qaldırır.

Davosda keçirilən önəmli siyasi görüşlər Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki çəkisini nümayiş etdirir. Ölkələrin reytinqi məhz bu cür yüksəksəviyyəli dialoqlarda formalaşır. Dünya liderlərinin Azərbaycan Prezidenti ilə aktual regional və qlobal məsələləri müzakirə etməsi rəsmi Bakının beynəlxalq arenada söz sahibi olduğunu təsdiqləyir. Belə platformalar Azərbaycanın postmünaqişə dövründəki bərpa işlərini və sülh gündəliyi haqqında həqiqətləri dünya ictimaiyyətinə birbaşa çatdırması üçün əvəzsizdir. İnvestorlar üçün ən mühüm faktor proqnozlaşdırıla bilən mühitdir. Azərbaycanın daxili siyasi sabitliyi və dövlət institutlarının çevik fəaliyyəti ölkəmizi regionun ən cəlbedici sərmayə mərkəzinə çevirməkdədir.

Azərbaycan artıq münaqişə tərəfi yox, strateji fürsətlər təqdim edən bir ölkədir. Dövlətimizin siyasi nüfuzu iqtisadi uğurları şərtləndirir, iqtisadi güc isə öz növbəsində siyasi müstəqilliyi möhkəmləndirir. Bu sarsılmaz vəhdət Azərbaycanı müasir dünyada etibarlı tərəfdaş və qüdrətli dövlət kimi tanıdır. Hər bir dövlətin gücü onun səsinin nə qədər uzaqdan eşidilməsi ilə ölçülür. Davosdakı hər bir siyasi görüş Azərbaycanın beynəlxalq təşkilatlarda dəstəklənməsinə, yeni iqtisadi tərəfdaşlıqların yaranmasına və ölkənin milli maraqlarının qlobal səviyyədə qorunmasına xidmət edir. Heç şübhəsiz, bu mühüm görüşlər yaxın gələcəkdə ölkəyə yeni investisiya layihələri, güclü siyasi dəstək və beynəlxalq əməkdaşlıq formatları şəklində qayıdacaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Qarşılıqlı etimada əsaslanan tərəfdaşlıq

**Yanvarın 22-də Davosda Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü oldu. Görüşdə Donald Trampın ABŞ-də yenidən hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Ötən ilin avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu vurğulandı. Söhbət əsnasında dövlət başçıları ikitərəfli əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların münasibətlərimizin dərinləşdirilməsində rolunu qeyd etdilər.**



Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin amerikalı həmkarı ilə görüşü Azərbaycan-ABŞ münasibətlərinin strateji əhəmiyyətini, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın və liderlər arasında formalaşmış siyasi etimadın göstəricisidir: "Ümumiyyətlə, Donald Trampın ABŞ Prezidenti seçilməsindən sonra ölkələrimiz arasında münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Ötən ilin avqust ayında Prezident İlham Əliyevin ABŞ-yə səfəri həm Azərbaycan-Amerika ikitərəfli münasibətləri, həm də Azərbaycan-Ermənistan sülh gündəliyi, regional sabitlik və qlobal təhlükəsizlik kontekstində xüsusi əhəmiyyət kəsb etdi. ABŞ Prezidenti Donald Trampın dəvətilə gerçəkləşən səfər tarixi xarakter daşıdı. Əminliklə söyləmək olar ki, Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlər təkcə ənənəvi diplomatik əməkdaşlıq çərçivəsində inkişaf etməklə kifayətlənməyərək, keyfiyyətcə yeni - strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Həmin səfər çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə "Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu"nun, ABŞ Prezidenti tərəfindən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncamın imzalanması da bunun təsdiqidir".

Vaşinqtonda keçirilən görüşün region tarixində xüsusi yer tutan böyük siyasi hadisə olduğunu qeyd edən deputat əlavə edib ki, Azərbaycanın illərdir formalaşdırdığı diplomatiya xətti bu uğurun əsasını qoyub. Görüş çərçivəsində imzalanan sənədlər bölgədə sülh prosesinə yeni impuls verib və əməkdaşlıq üçün geniş imkanlar açıb. Regionda artıq yeni reallıq formalaşır və bunun mərkəzində Azərbaycanın möhkəmlənmiş mövqeyi, təmin olunmuş suverenliyi və dayanıqlı sülh gündəliyi dayanır. "Azərbaycanın ABŞ tərəfindən Sülh Şurasına təsisçi üzv dövlət qismində dəvət olunması da ölkələrimiz arasında qarşılıqlı hörmətə və faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin növbəti göstəricisi olmaqla yanaşı, Azərbaycanın qlobal miqyasda sülh və sabitliyin təşviqində oynadığı mühüm rolun beynəlxalq səviyyədə tanınmasının bariz nümunəsidir. Bu, eyni zamanda Azərbaycan-ABŞ münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinin daha bir göstəricisidir", - deyə V.Rəhimzadə yekunda bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sülh prosesində Azərbaycan amili və dəyişən Ermənistan reallığı

**Cənubi Qafqaz uzun illər geosiyasi toqquşmaların, süni qarşıdurmaların və məqsədli düşmənçilik siyasətlərinin sınaq meydanına çevrilmişdi. Otuz ilə yaxın bir dövrdə "sülh danışıqları" adı altında aparılan proseslər mahiyyət etibarilə real sülhə deyil, mövcud status-kvonun qorunub saxlanmasına xidmət edirdi. Mənasız və uzun-uzadı aparılan danışıqlar, get-gəllər faktiki olaraq Azərbaycan-Ermənistan münaqişəsinin dondurulması siyasətindən kənara çıxmırdı.**

Bu imitasiya xarakterli danışıqlar nə regiona təhlükəsizlik gətirdi, nə də davamlı sabitlik yaratdı. Problemin yalnız diplomatik ritorika ilə həll olunmayacağı artıq birmənalı şəkildə aydınlaşdıqdan sonra Azərbaycan xalqının iradəsini ifadə edən Prezident İlham Əliyev tarixi və qətiyyətli qərar qəbul etdi. Torpaqların hərbi-siyasi yolla azad edilməsi zərurəti məhz bu reallığın nəticəsi idi. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər regionda illərlə formalaşdırılmış saxta balansı dağıtdı və sülhü abstrakt niyyətdən real siyasi gündəmə çevirdi. Artıq heç kimin inkar edə bilməyəcəyi həqiqətdir ki, bu gün Cənubi Qafqazı sülhə aparan yolun başlanğıc nöqtəsi məhz Azərbaycan tərəfindən qoyulub. Əgər bu Zəfər olmasaydı, indi biz regionda nə sülhdən, nə də sabit gələcəkdən danışa bilərdik.

Bu gün Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasından danışırıqsa, etiraf etməliyik ki, sülh təşəbbüsünün müəllifi məhz Azərbaycandır. Prezident İlham Əliyev hələ postmüharibə mərhələsində açıq şəkildə bəyan etmişdi: "Biz Cənubi Qafqazda davamlı sülh və təhlükəsizlik istəyirik. Bu, yalnız qarşılıqlı suverenliyin və ərazi bütövlüyünün tanınması əsasında mümkündür".

Müharibədən qalib çıxan Azərbaycan qarşı tərəfə diktə ilə deyil, siyasi yetkinlik və məsuliyyətlə sülh təklif etdi. Prezident İlham Əliyev dəfələrlə vurğulamışdı ki, Cənubi Qafqazda davamlı sülh ən çox iqtisadi baxımdan dalana dirənmiş Ermənistana fayda gətirəcək. Dövlətimizin başçısı dəfələrlə izah etmişdi ki, kommunikasiyaların açılması, regional tranzit imkanlarının formalaşması Ermənistan üçün tarixində ilk dəfə real iqtisadi nəfəs deməkdir. Prezident İlham Əliyevin sözləri ilə desək, "Ermənistan blokadadan çıxmaq istəyirsə, regional əməkdaşlıqdan başqa yolu yoxdur. Biz bunu təklif edirik, çünki regionun gələcəyini sülhdə görürük". Uzun illər tranzit ölkə olmamış, regional iqtisadi proseslərdən kənarda qalmış Ermənistan bu təkliflərin strateji və iqtisadi mahiyyətini ilkin mərhələdə dərk etməsə də, zaman keçdikcə Azərbaycanın sülh təşəbbüslərinin onun milli maraqlarına uyğun gəldiyini anlamağa başladı.

Dövlətimizin başçısının sərgilədiyi mövqe, nəhayət ki, illərdir qeyri-müəyyənlik içində qalan region üçün strateji yol xəritəsinə çevrildi.




Azərbaycanın sülhə verdiyi real töhfələr indi yalnız diplomatik bəyanatlarla məhdudlaşmır. Rəsmi Bakı kommunikasiyaların açılması, iqtisadi inteqrasiyanın təşviqi və regional əməkdaşlıq mühitinin formalaşdırılması istiqamətində konkret addımlar atır. Bu gün Ermənistanın əsas ərzaq və enerji təhlükəsizliyində mühüm yer tutan taxıl və neft məhsullarının idxalı faktiki olaraq ölkəmiz üzərindən həyata keçirilir. Artıq Ermənistan tərəfi onu da anlamağa başlayıb ki, bu logistik marşrutların ən qısa, təhlükəsiz və iqtisadi cəhətdən səmərəli yolu Zəngəzur dəhlizidir (TRIPP). Bu, yalnız Azərbaycanın deyil, bütövlükdə regionun maraqlarına xidmət edən strateji layihədir.

Regionda ticarət və kommunikasiya axınlarının açılması sülhün artıq real məna daşıdığını sübut edir. 2025-ci ildə Azərbaycan ərazisi vasitəsilə Ermənistana Qazaxıstandan 1000 ton, Rusiyadan isə 5580 ton taxıl daşınıb. 2026-cı il yanvarın 8-nə olan vəziyyətə görə, Rusiyadan tranzitlə gətirilən taxılın həcmi artıq 8 485 ton təşkil edib və əlavə 4 103 ton taxıl da yoldadır.

Eyni zamanda iqtisadi əməkdaşlığın əyani nümunəsi kimi göstərilən enerji tədarükündə də mühüm işlər müşahidə olunur. Hazırkı məlumatlara görə, 7 600 ton Azərbaycan neft məhsulu Ermənistana tranzitlə daşınır ki, bunun da 6 100 tonu benzin və 1 500 tonu dizel yanacağıdır. Bu rəqəmlər təkcə kommunikasiya xətlərinin açılmasının göstəricisi deyil, həm də sülhə əsaslanan iqtisadi əlaqələrin real, ölçülə bilən məhsuludur. Regionda daşınan yükün miqdarı artdıqca insanların gündəlik tələbatının ödənilməsi yaxşılaşır, iqtisadi sabitlik və qarşılıqlı etimad daha da güclənir. Artıq bunu Ermənistanda da başa düşənlərin sayı çoxalmaqdadır.

Təsadüfi deyil ki, son dövrlər Ermənistan rəhbərliyinin ritorikasında açıq dəyişiklik müşahidə olunur. Xarici işlər naziri Ararat Mirzoyan Azərbaycanın sülh prosesinə verdiyi töhfələri müsbət qiymətləndirərək rəsmi Bakının konstruktiv mövqeyinin danışıqlar üçün real imkanlar yaratdığını dəfələrlə etiraf edib. Baş nazir Nikol Paşinyan isə müxtəlif beynəlxalq platformalarda Azərbaycanın təşəbbüslərinin regionda sabitliyə xidmət etdiyini vurğulayıb.

Xüsusilə Davos İqtisadi Forumunda səslənən fikirlər diqqətçəkəndir. Ermənistan Prezidenti Vaaqn Xaçaturyan Azərbaycan Prezidenti ilə görüşlər zamanı dəfələrlə minnətdarlıq ifadə edərək "Regionda yeni mərhələnin başlanması üçün Prezident İlham Əliyevin irəli sürdüyü sülh gündəliyi mühüm rol oynayır" deməsi təkcə diplomatik etiket deyil, dəyişən siyasi reallığın açıq etirafıdır.

Eyni sammit çərçivəsində Nikol Paşinyanın Prezident İlham Əliyevə bir daha təşəkkür etməsi isə artıq Ermənistanın sülhə daha çox ehtiyacı olduğunu göstərən faktdır. Nəhayət, Ermənistan da anlayır ki, müharibə ilə indiyə kimi qazanan olmayıb, amma sülh yolu ilə xilas mümkündür.

Azərbaycanın sülh yolunda tutduğu bu mövqe ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinə də ciddi təsir göstərməkdədir. Bu gün Azərbaycan dünyada söz sahibi olan dövlət kimi qəbul olunur. Qlobal güclərin belə nəzərə almadan keçə bilmədiyi siyasi aktora çevrilib. Ermənistan da artıq bu reallığı qəbul edir və Azərbaycanla mehriban qonşuluq münasibətləri qurmaqda maraqlı olduğunu nümayiş etdirir.

Əslində, bu fakt bir həqiqəti də təsdiqləyir: Cənubi Qafqaz xalqları müharibədən daha çox sülh şəraitində yaşamağa layiqdirlər. Lakin illər boyu iki xalqı bir-birinə düşmən edən, regionu öz strateji maraqlarının alətinə çevirən qlobal güclər buna imkan verməyiblər. Onlar imkan daxilində xalqlar arasında nifrət toxumu səpməklə məşğul olublar. Bu gün isə nə ATƏT-in illərlə davam edən səmərəsiz vasitəçiliyi var, nə də regionda sülhü əngəlləyən əvvəlki təsir mexanizmləri.

Prezident İlham Əliyevin qətiyyətli addımları bəzi qüvvələrin bədnam siyasətini iflasa uğratdı. Azərbaycan Zəfəri ilə regiona əmin-amanlıq gətirdi. Sülh hazırda ən çox Ermənistana lazımdır. Ermənistan bunu anlayır, qəbul edir və artıq minnətdarlıq dilində danışmağa başlayır. Bu isə onu göstərir ki, tarixdə ilk dəfə Cənubi Qafqazda sülh ideyası kənardan diktə olunmur - regionun öz iradəsindən doğur. Və bu iradənin mərkəzində Azərbaycan dayanır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# REGİONLAR

# 2025-ci il ağdamlılar üçün doğma yurda qayıdışın başlanğıc tarixidir



**2025-ci il Ağdam üçün yaddaqalan hadisələrlə zəngin olub. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın keçən il bölgəyə səfərlər etməsi və Ağdam sakinlərinin işğaldan azad edilmiş öz doğma torpaqlarına köçürülməsi şirin bir xatirədir.**

Prezident İlham Əliyev dekabrın 24-də özünün doğum günündə Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edərək doğma yurdlarına köçən sakinlərlə görüşmüş, onlara evlərin açarlarını təqdim etmişdir. Uzun müddət respublikamızın müxtəlif bölgələrində ağır şəraitdə yaşayan insanların doğma yurd-yuvalarına qayıdışı və onlar üçün müasir üslubda, hər cür şəraiti olan mənzillərin inşası, infrastruktur layihələrinin salınması dövlətin və dövlət başçısının öz vətəndaşlarına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Beləliklə, 2025-ci il ağdamlıların yaddaşında daim öz doğma torpaqlarına qayıtdıqları il kimi qalacaq. Ötən ilin yekunlarına və 2026-cı ildə qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş hesabat yığıncağında Ağdam RİH-in başçısı Vaqif Həsənov geniş məruzə ilə çıxış etmişdir. Bildirmişdir ki, keçən il rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi sahəsində işlər davam etmişdir. Bərdə istiqamətində - Soltanbud təpəsində, Bayraq meydanında və qalaətrafı parkda geniş abadlıq-quruculuq işləri aparılmış, yeni piyada səkiləri salınmış, tamet döşəmələr yenisi ilə əvəz edilmiş və əraziyə 2000-dən artıq Eldar şamı, 50 000-dən çox həmişəyaşıl dekorativ gül kolları və 2 000-ə yaxın müxtəlif dekorativ ağaclar əkilmişdir.

Çoxsaylı vətəndaş müraciətlərini nəzərə alaraq rayonun Ergi qəsəbəsində uzun illər yararsız vəziyyətdə yol yenidən qurulmuş, Quzanlı qəsəbəsi ərazisində Heydər Əliyev prospektinin Ağcabədi rayonunun Sarıcalı kəndi istiqamətində yol kənarlarında geniş abadlıq işləri aparılmış, yol genişləndirilmiş və yeni piyada səkisinin quraşdırılması işlərinə başlanılmışdır. Ərazidə olan yararsız hasarlar sökülərək yenidən müasir üslubda bərpası həyata keçirilmişdir. Quzanlı qəsəbəsi ərazisində mərasim evi tikilərək istifadəyə verilmişdir. Ərazi tam abadlaşdırılmış, qarşısında avtomobil dayanacağı üçün geniş ərazi asfaltlaşdırılmış və bina bütün lazımi avadanlıqlarla təmin edilmişdir.

Bunlardan əlavə, Quzanlı qəsəbəsi "Daş evlər" adlanan ərazidə rayon icra hakimiyyətinin balansında olan 5 məcburi köçkün ailəsinin yaşadığı və Vətən müharibəsi şəhidi Elmir Süleyman oğlu Əliyevin anasının istifadəsində olan evlər əsaslı təmir edilmişdir.

Rayon ərazisində 18 məcburi köçkün qəsəbəsi və 50 mənzilli bir bina olmaqla 5713 ailə - 25 435 nəfər məcburi köçkün məskunlaşmışdır. Rayon icra hakimiyyəti ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi birlikdə qəsəbələrdə əhalinin həyat şəraitinin və sosial rifahının yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülmüşdür. İkinci Alıbəyli kəndində və Xındırıstan qəsəbəsində yaşayan məcburi köçkünləri içməli su ilə təmin edən və yararsız vəziyyətə düşmüş subartezian quyuları bərpa edilərək sakinlərin su problemləri birdəfəlik həll olunmuş, Birinci Quzanlı qəsəbəsinə gedən və bərbad vəziyyətdə olan 5,5 kilometrlik yola asfalt salınmış, Üçoğlan, Kiçikli, Dadaşlı və Xındırıstan kənd uşaq bağçalarında məskunlaşmış məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə həmin uşaq bağçalarının dam örtükləri yenilənmişdir. Rayon icra hakimiyyətinin təşəbbüsü ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən məcburi köçkün qəsəbələrində qəzalı vəziyyətdə olan 70 ev təmir olunmuş, Mingəçevir, Şəki, İsmayıllı, Bərdə, Göyçay rayonlarında, eləcə də rayon ərazisində ağır şəraitdə yaşayan 101 ailə - 346 nəfər məcburi köçkün qəsəbələrdə evlə təmin olunmuşdur.





Ağdam Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi rayon ərazisində 38645 hektar əkin və həyətyani sahələrin suvarılması ilə yanaşı, 82400 nəfər əhalinin içməli suya olan tələbatlarının ödənilməsinə xidmət göstərir. İdarənin balansında 1143 subartezian quyusu, 6 nasos stansiyası, 365,3 km suvarma kanalları, 11 kəhriz və 62 kilometr kollektor-drenaj şəbəkəsi istismar edilir. 18 məcburi köçkün qəsəbəsində yaşayan abonentlərə fasiləsiz içməli suyun verilməsini tam təmin etmək üçün qapalı su şəbəkələrində təmir-bərpa işləri aparılmış, qəzalı vəziyyətdə olmuş xətlər dəyişdirilmişdir.

Bütün görülən işlərlə barəbər, bu sahədə hələ də bəzi problemlər qalmaqdadır. Prezidentin 10.02.2022-ci il tarixli sərəncamına əsasən, rayon ərazisində 29 subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur. Onlardan 7-si qazılıb istifadəyə verilmişdir. Lakin 22 quyu bu günə kimi qazılmamışdır. Bu da əhalinin su ilə təminatında xeyli çətinliklər yaradır.

Ötən il rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar sektorda əsaslı irəliləyişə nail olunmuşdur. Pambıqçılığın inkişafına dair dövlət proqramının icrası çərçivəsində 2025-ci il rayonda fəaliyyət göstərən pambıq tədarükü müəssisələri tərəfindən 516 nəfərlə 2 471,3 ha sahədə pambıq əkini ilə bağlı müqavilə bağlanmışdır. "Prime Cotton" MMC-nin Ağdam filialı 2025-ci il mövsümündə 275 fermerlə 1248,85, Ağdam Pambıq İstehsalı və Tədarükü Məntəqəsi 96 fermerlə 352,44, "P-Aqro" MMC-nin Ağdam filialı 126 nəfər fermerlə 800 ha sahə üzrə müqavilə bağlamış və səpin aparılmışdır. Nəticədə ""Prime Cotton" MMC-nin Ağdam filialı üzrə məhsuldarlıq 32,68, Ağdam Pambıq İstehsalı və Tədarükü Məntəqəsi üzrə 25,77, "P-Aqro" MMC-nin Ağdam filialı üzrə 30,05 sentner olmuşdur. Amma bu sahədə də xeyli çatışmazlıqlar mövcuddur. Belə ki, mövsümün bitməsinə baxmayarq, "P-Aqro" MMC-nin Ağdam filialı üzrə 8, Ağdam Pambıq İstehsalı və Tədarükü məntəqəsində 13, "Prime Cotton" MMC-nin Ağdam filialı üzrə 28 nəfər olmaqla ümumilikdə 49 vətəndaş tədarük etdiyi pambığa görə 420,8 min manat məbləğində subsidiyanı, eyni zamanda "P-Aqro" MMC-nin Ağdam filialı üzrə 84 vətəndaş 617,4 min manat məbləğində istehsal etdikləri pambıq məhsulunun dəyərini hələ də ala bilməmişlər. Bu isə vətəndaşların haqlı narazılığı ilə yanaşı, növbəti məhsul ilində onların həmin sahəyə marağının azalmasına səbəb olacaq. Yaranmış problemin aradan qaldırılması məqsədilə Kənd Təsərrüfat Nazirliyinə məktubla müraciət olunmuşdur.

Heyvandarlıq sahəsində hesabat ilində mal-qaranın baş sayı və heyvandarlıq məhsullarının istehsalında artım müşahidə edilmişdir. Mal-qaranın baş sayının artması təbii ki, heyvandarlıq məhsullarının artmasına səbəb olmuşdur. Diri çəkidə ət istehsalı 2,7, fiziki çəkidə süd istehsalı 4,3, yumurta istehsalı 3,6, fiziki çəkidə yun istehsalı 6,5 faiz artmışdır.

Ötən il 32 ildən sonra ilk dəfə olaraq məcburi köçkün düşmüş ağdamlı sakinlərin öz doğma yurdlarına köçü başlamışdır. "İşğaldan azad olunmuş ərazilərə I Böyük Qayıdış Proqramı" çərçivəsində ilkin mərhələdə Ağdam şəhərinə 103 ailə - 405, Sarıcalı kəndinə 187 ailə - 780, Kəngərli kəndinə 283 ailə - 1204 və Xıdırlı kəndinə isə 642 ailə - 2 542 nəfər sakin köçürülmüşdür. Ağdərə və Xocalı rayonlarının kəndlərinə isə 136 ailə - 535 nəfər keçmiş məcburi köçkün dönmüşdür.

Ağdam əhalisinin qalan hissəsinin də doğma evlərinə qayıtması üçün "Böyük qayıdış" proqramı çərçivəsində geniş işlər aparılır. Hər kəs inanır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Ağdamın, eləcə də işğaldan azad edilmiş digər ərazilərin yenidən qurulması uğurla reallaşacaq və Ağdam regionun müasir şəhərləri ilə rəqabətə girə biləcək. Yenidənqurma işlərindən sonra Ağdam Qarabağın ən böyük şəhəri olacaq. Keçmişlə gələcəyin, qədimliklə müasirliyin birləşəcəyi Ağdam həm də Azərbaycanın 4-cü ən böyük sənaye şəhərinə çevriləcək.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Köhnə ilin uğurları, yeni ilin vəzifələri

## Lerik heyvandarları qışlaq probleminin həllini gözləyirlər

**Lerik aqrar rayondur. Əsas məşğulluq sahələri əkinçilik və maldarlıqdır. Üstəlik, rayonun əhalisi işgüzar və torpağa bağlı adamlardır. Lerik həm də dağ rayonudur, əkin-biçin üçün elə də əlverişli şəraitə malik deyil. Buna baxmayaraq, hər il aqrar sektorda uğurlara imza atır. Ötən il də istisna olmadı.**

2025-ci ildə rayon üzrə istehsal edilən ümumi kənd təsərrüfatı məhsullarının dəyəri 112 milyon 710,9 min, o cümlədən heyvandarlıq üzrə 70 milyon 318,7 min, bitkiçilik məhsulları üzrə 42 milyon 392,2 min manata çatıb. Bu, 2024-cü illə müqayisədə 5,8 faiz çoxdur. Taxılçılıqda nəticələr daha ürəkaçandır. Lakin bunu heyvandarlıq haqqında demək olmur. 1 yanvar 2026-cı il vəziyyətinə görə, rayonda 34,6 min baş qaramal, 68 min baş davar heyvan qeydə alınıb. Son illər qoyun və keçilərin sayı 40 min başdan çox azalıb ki, bu da rayonun qoyunçuluq təsərrüfatlarına təhkim olunmuş Muğan qışlağındakı otlaq sahələrinin geri alınması ilə bağlıdır.

Əvəzində iqtisadiyyatın digər sahələrində artım qeydə alınıb. Məsələn, 2025-ci ildə informasiya və rabitə sahəsində göstərilmiş xidmətlərin dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 740,9 min manat və ya 94,9 faiz artaraq 1 milyon 518,4 min manat olub. Pərakəndə ticarət şəbəkəsində dövriyyənin həcmi isə 5,9 faiz artıb. Həmçinin ictimai iaşənin dövriyyəsi ötən illə müqayisədə 7,5 faiz yüksələrək dəyəri 3 milyon 79,9 min manat təşkil edib. Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri də 2024-cü ilə nisbətən müqayisəli qiymətlərlə 2,2 faiz artıb. Bu xidmətlərin 2 milyon 941,5 min manatını və ya 12,7 faizini məişət xidmətləri təşkil edib.

İlkin məlumatlara əsasən, ötən il Lerikdə hüquqi şəxslər üzrə 184 yeni iş yeri açılıb. İş yerlərindən 54,3 faizi yeni yaradılmış müəssisələrin payına düşür. Məşğul əhalinin tərkib hissəsi olan muzdla çalışan işçilərin sayı 2025-ci ildə 4 min 821, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 4 min 26 nəfər, yəni 83,5 faiz təşkil edib.

Prezidentin müvafiq sərəncamları ilə son vaxtlar Lerikdə 4 istiqamətdə kəndarası avtomobil yolları inşa edilib. Hazırda isə Hamarmeşə-Bibiyani avtomobil yolu inşa olunur. Bunlardan əlavə, Şingədulan-Xanagah, Əliabad-Gürdəsər-Boykəndil, Gürdəsər-Nücü, Əliabad-Soru, 40-cı kilometr-Əliabad, Piran-Bürsülüm-Bobla, Piran-Veri Əliabadı-Veri və digər kəndlərə gedən avtomobil yolları "52 nömrəli Yol İstismarı" MMC-nin dəstəyi ilə təmir edilib. Ötən il həmçinin büdcə vəsaiti hesabına Noda, Çayrud və Pirasora kəndləri istiqamətində avtomobil yollarının bir hissəsinə asfalt döşənib.

Rayonun 33 yaşayış məntəqəsi yay aylarında içməli sudan korluq çəkirdi. Məsələni yoluna qoymaq üçün dövlət vəsaiti və ərazidə yaşayan sakinlərin öz təşəbbüsləri ilə Soru, Gürdəsər, Zenonu, Piran, Kələxan, Lələdulan, Boykəndil, Zövnə, Zəriküməco və digər kəndlərdə 33 subartezian quyusu qazılıb. Qarşıdakı illərdə Cəngəmiran, Blaband, Xəlifəkücə, Lüləkəran, Osnağakücə və Ambu kəndlərinə yeni su xəttinin çəkilməsi, Qosmalıan, Kələxan, Çayrud, Pirasora, Dəstər və Tikəband kənd inzibati ərazi dairələrində yeni sututarların tikilməsi nəzərdə tutulub.

Qazlaşdırma sahəsində də xeyli iş görülüb. Bununla belə görülməli işlər çoxdur. Magistral qaz xətti üzərində yerləşən, Ordahal qazpaylayıcı məntəqəsinə yaxın məsafədə olan Kirəvud, Boykəndil, Gürdəsər, Laman, Şingədulan, Lərmərud və daşıyıcı xətt üzərində olan Şonayçola, Qələsər, Hoveri, Divağac kəndlərinin qazlaşdırılması üçün bütün texniki məsələlər 2020-ci ildə həll edilsə də, layihə-smeta sənədləri hazırlansa da, əhalinin böyük intizarla gözlədiyi tikinti hələ başlamayıb. Amma ümid sonda ölür. Rayon rəhbərliyi bu məsələ üzərində ciddi işləyir.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 2025-ci il ərzində müvəkkil kredit təşkilatlarından Lerikdə fəaliyyət göstərən sahibkarlar üçün 232 layihə üzrə 4 milyon 44,5 min manat kredit ayrılıb və həyata keçirilmiş layihələrlə bağlı 23 daimi iş yeri yaradılıb. Söz ki, iş yerlərindən düşdü, qeyd edək ki, Lerikdə əmək fəaliyyətli əhalinin sayı 43 min, məşğul əhalinin sayı isə 40,4 min nəfərdir. Hazırda rayon məşğulluq mərkəzində işaxtaran kimi 2,6 min, işsiz kimi 1,5 min nəfər qeydiyyatdadır.




Sosial problemlərin həlli yönündə görülən işlər sırasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün Lerik şəhərində 16 mənzilli 2 kommunal yaşayış binasının, rayon ərazisində isə 60-dan çox fərdi yaşayış evinin inşasını xüsusi qeyd etmək istərdik. Onu da bildirmək istərdik ki, bu il nazirlik tərəfindən daha 20 mənzilli yeni kommunal yaşayış binasının tikintisi planlaşdırılıb. Bunlardan savayı, 2010-cu ildən başlayaraq təbii fəlakət nəticəsində zərərçəkmiş vətəndaşlar üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən rayonda yeni fərdi yaşayış evlərinin tikintisi həyata keçirilir. Ötən müddət ərzində 70-dən çox fərdi yaşayış evi inşa edilərək evləri qəza vəziyyətinə düşmüş vətəndaşlara təhvil verilib. Hazırda 20-dən çox yaşayış evinin tikintisi davam edir.

Bu günlər Lerikə güclü qar yağdı. Bəzi ərazilərdə qarın hündürlüyü 1-1,5 metrə çatdı. Bu da avtomobillərin hərəkətində müəyyən fəsadlara yol açdı. Əlaqədar təşkilatlar, rayon əhalisi əl-ələ verib yaranmış çətinliyi qısa müddətdə aradan qaldırdılar. Amma qar eyni zamanda bol ruzi-bərəkətdir. Bu o deməkdir ki, taxıl zəmiləri, otlaq sahələri, ağaclar bol su içib, bol da məhsul verəcək.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Vətən oldu oğullar

# Adını Vətənin azadlıq tarixinə yazdı

## Vətən Müharibəsi Qəhrəmanı şəhid Azad Hümbətov daim xatırlanacaq

**Qışın oğlan çağı idi. Hava şaxtalı, yollar şüşə kimi buz bağlamışdı. O isə növbəti xidməti tapşırığını icra etdikdən sonra təhlükəli yollarla qulluq etdiyi hərbi hissəyə dönürdü. Həmin vaxt nə qədər məharətlə idarə etsə də yolda, buz üzərində ziqzaq cızan avtomobili qəfil sürüşərək kanala aşmışdı. Bir anlıq ömrünün sonuna yaxınlaşdığını düşünən gənc hərbçi həyatla ölüm arasındakı o qısa dilimdə kəlmeyi-şəhadətini deməyə çalışmış, ancaq nə illah etsə də, bu sözləri dilinə gətirə bilməmişdi… Və elə o an anlamışdı ki, alın yazısına indi Tanrı dərgahına qovuşmaq yazılmayıb. İrəlidə onu daha böyük missiya, Vətən qarşısında yerinə yetirəcəyi daha məsuliyyətli tapşırıqlar gözləyir…**

Hələ torpaqlarımızın azadlığı uğrunda mübarizəyə atılacaq, çox qəhrəmanlıqlar göstərəcək, çarpışaraq vuruşacaq, taqımı ilə birgə düşmənə çox dağ çəkəcək, qəsbkarların xeyli canlı və texniki qüvvəsini sıradan çıxaracaq, hərbçi yoldaşlarını mühasirədən qurtaracaqdı… Yurdlarımızın bir-bir azadlığına qovuşdurulduğunu ata-anasına sevinclə müjdələyəcəkdi…

Elə olacaqdı ki, çiyin-çiyinə vuruşduğu döyüşçü qardaşlarının yarıda qırılan kəlmeyi-şəhadətlərini dərin üzüntü və əzab içərisində gözlərindən yaş süzülə-süzülə o tamamlayacaqdı…

Eh…

Hərbi Memorial Məzarlıqda - İkinci Fəxri xiyabanda məzarı başında anası və bacıları acı göz yaşları tökəcəkdilər…

Amma hələ bunlar çox sonra olacaqdı…



Hələliksə Vətən müharibəsinin 30 günü ərzində cəmi 24 bahar qismət olmuş ömrünə dastana çevriləcək qəhrəmanlıqlar sığdıran baş leytenant Azad Arif oğlu Hümbətov könlündə vətən eşqi, torpaq sevgisi ilə hərbi sahədəki bilik və bacarıqlarını daha da təkmilləşdirmək üçün gecə-gündüz hazırlaşacaqdı, üzərində işləyəcək və gündən-günə peşəkarlığını artıracaqdı…

Adını Vətənin azadlığına yazacağı, tale payının qısa olacağı ürəyinə dammış kimi…

### Son görüş, son vida

2020-ci il sentyabrın 15-i idi - bir payız günüydü. Amma Bakıda yaşayan Hümbətovlar ailəsi üçün həmin gün adi deyildi. Ev sevinc içində idi. Füzulidə xidməti qulluqda olan hərbçi oğulları Azad uzun fasilədən sonra valideynlərinə, bacılarına baş çəkməyə gəlmişdi.

Oğlunun yolunu gözləyən Leyla ana sübh tezdən qalxmışdı. Qollarını çırmalayıb neçə vaxtdır qəribsədiyi oğlunun xoşladığı xörəkləri bişirirdi. Azadın gəlişi evdə toy-bayrama çevrilmişdi. Deyib-gülmüşdülər, xatirələri xatirələrə calamışdılar… Amma Leyla ana bütün bu sevincin içərisində qəribə bir nigarançılıq da hiss etmişdi. Azad sanki onlarla vidalaşırmış kimi davranırdı. Ana ürəyinə daman bu qara hissləri cidd-cəhdlə özündən uzaqlaşdırmağa çalışsa da, alınmırdı. Onsuz da ilin əvvəlindən bəri Azadla bağlı yuxularını qarışdırırdı.

Leyla xanım göz yaşları içərisində həmin günü belə xatırlayır: "Azad sentyabrda evə gələndə büruzə verməK istəməsə də, deyib-gülsə də, nəsə fikirli, durğun idi. Elə hey məni qucaqlayır, öpürdü. Divanda atasının yanında uzanıb uşaq kimi ona sığınmışdı. İndi o anları bir-bir gözümün qabağına gətirəndə hər şey mənə aydın olur. O bilirmiş ki, bu, bizimlə son görüşü ola bilər. Amma bircə kəlmə də müharibə olacağı, döyüş ehtimalından danışmadı. Getmək vaxtı çatanda isə qapının ağzında mənə elə bir məna ilə baxdı ki, ürəyimə səbəbini bilmədiyim bir ağırlıq çökdü. Elə bil daş asıldı sinəmdən. Demə, Azad gözləri ilə mənimlə vidalaşırmış… Demə, bu, həyatda ürəkdən son dəfə sevindiyim gün imiş… Demə, balamla son görüşüm imiş…"

"Vətən oldu oğullar" rubrikasında Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı, tank taqım komandiri Azad Hümbətovun 24 illik qəhrəmanlıqlarla dolu ömür yoluna anası Leyla Hümbətova ilə birlikdə nəzər salırıq.

Şəhidliyindən beş ildən çox vaxt keçməsinə baxmayaraq, ana hələ də Azadsızlığı qəbul edə bilmir. Azadın xatirələri dilində qabara, həsrəti isə ürəyindən süzülüb gözlərində yaşa çevrilir. Yaralı ananın ürəyi gerçəyi qəbul etsə də, ayrılığa heç cür tab gətirə bilmir…





### Şərəfli zabit ömrü

Bu gün Vətən Müharibəsi Qəhrəmanı Azad Hümbətovun günüdür - doğum günüdür...

Şəhid Azad Hümbətov 1996-cı il yanvarın 24-də Bakı şəhərində ziyalı ailəsində dünyaya gəlib. 2002-ci ildə Nərimanov rayonunda 82 nömrəli məktəbin I sinfinə qəbul olub, yuxarı sinifləri isə Bakı şəhəri 291 saylı Ekologiya liseyində oxuyub.

2013-cü ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbin (Heydər Əliyev adına Hərbi İnstitut ) tank bölüyü ixtisasına daxil olan Azad Hümbətov 2017-ci ildə həmin məktəbi leytenant hərbi rütbəsi alaraq başa vurub.Təyinatı üzrə elə həmin il Füzuli rayonunun Horadiz şəhərindəki N saylı hərbi hissədə xidmətini davam etdirib. O, 2018-ci il "Azərbaycan Ordusunun 100 illiyi" münasibətilə keçirilən hərbi tədbirdə ön sırada bayraqdar vəzifəsini daşıyıb. Daha sonra "Silahlı Qüvvələrin 100 illiyi" medalı ilə təltif edilib.

Həyatını hərbi sahəyə bağlayan Azad Hümbətov Silahlı Qüvvələrin təlim və tədris mərkəzində 45 günlük zabit heyətinin təkmilləşdirmə kursunda iştirak edib və kursu müvəffəqiyyətlə başa vurduğu üçün baş leytenant rütbəsi alıb.

Vətən müharibəsinin ilk günlərindən A.Hümbətov döyüşlərə qatılıb. Füzuli, Qubadlı, Laçının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək, düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv edib.

Döyüş zamanı A.Hümbətovun komandanlıq etdiyi tank minaya düşüb. Özü ayağından yaralanıb. Buna baxmayaraq, güc toplayıb və yaralı silah yoldaşını 25 kilometr belində daşıyaraq meşə ərazisinə gətirib. Sonra çətinliklə 2 gün yaralı halda döyüş yoldaşını daşıyaraq, öz postlarına gəlib çata bilib. Bundan sonra Azadın vəziyyəti ağırlaşdığına görə onu müalicə almaq üçün Beyləqana göndəriblər. Lakin o müalicəsini yarımçıq qoyaraq yenidən döyüş meydanına qayıdıb.

Azad Hümbətov əvvəlcə müharibədə tank taqımı komandiri vəzifəsində iştirak edib. Döyüşlər zamanı bölük komandiri yaralandığı üçün həmin vəzifəni icra etməyi Azad Hümbətova həvalə ediblər. Düşmənin 5 tankını öz mövqelərimizə gətirməyi bacarıb. Dəfələrlə yoldaşlarını düşmən mühasirəsindən yaralı halda çıxaran igid tankçımız 2020-ci il oktyabrın 27-də Laçın uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Azad Hümbətov Hərbi Memorial Məzarlıqda torpağa tapşırılıb. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, Azad Hümbətova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

### Döyüşlərə gülə-gülə yollanırdı

Azadla bağlı yaddaşında silinməz iz buraxan, acılı-şirinli xatirələrini göz yaşları içərisində bizimlə bölüşən Leyla Hümbətova dedi ki, bütün uşaqlar kimi, Azad da dəcəl olub, amma heç zaman ona problem yaratmayıb:

- Bir dəfə o, mənə deməyib ki, ya başı ağrıyır, ya da xəstələnib. Kiçik yaşlarından özünü böyüklər kimi aparırdı, nə problemi olurdusa özü həll etməyə çalışırdı. Məktəbdə də müəllimləri həmişə ondan razılıq edirdilər. Elə o zamanlardan hiss edirdim ki, Azad hərbi sahəyə çox meyillidir. Otağına daxil olanda da görürdüm ki, əksər vaxtlarda kompüterdə tankla hansısa döyüş oyununu oynayır. Beləcə o öz gələcək həyatını hərbi sahə ilə bağlamağa qərar verdi. Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil oldu. Məktəbi bitirdikdən sonra isə öz istəyi və təyinatla Qarabağa, Füzuliyə xidməti vəzifəyə yollandı.

O, Füzulidə xidmətdə olanda özünə böyük hörmət qazanmışdı. Azad şəhid olanda Füzuli camaatı mənə o qədər dəstək oldu ki... Zəng vurdular, gəlib dərdimə şərik oldular... Hətta bir nəfər mənə zəng vurub dedi ki, bilirsiz, Leyla xanım, siz gələcəyin ağsaqqalını itirdiniz. Yaşı az olsa da, Azad özünə yoldaşları, onu tanıyanlar



arasında bu cür hörmət qazanmışdı. Bir hərbçi kimi də öz sözünü demişdi. İşində peşəkarlığı, nizam-intizamı ilə seçilmişdi və qüsursuz xidmətə görə təltif olunmuşdu. O, Vətən müharibəsində çox böyük hünər göstərmişdi. Sonradan komandiri danışır ki, Azadın gözündə qorxu yox idi, döyüşə gülə-gülə yollanırdı.

Müharibə boyu bizimlə telefonla danışanda deyirdi ki, hər şey yaxşıdır, narahat olmayın, tezliklə qələbə bizim olacaq. Bir də "ana, mənimlə bərabər buradakı bütün əsgərlərimizə dua et" deyirdi...

O, çox vətənpərvər idi və bir hərbçi kimi torpaqlarımızın işğalda olması ilə heç cür barışa bilmirdi. Hələ Vətən müharibəsinə qədərki dövrlərdə o mənə bir neçə dəfə demişdi ki, torpaq uğrunda canından belə keçməyə hazırdır. 2016-cı il Aprel döyüşləri zamanı o, üçüncü kursda oxuyurdu. O vaxt mənə dedi ki, "ana, icazə versəydilər, biz də döyüşə gedərdik. Canımız vətənə qurbandır". Günnüt döyüşləri vaxtı ona zəng vurdum ki, Azad, narahatam səndən. Dedi ki, aya ana, hərbi məktəbi ona görə oxumuşam ki, vətənin keşiyində duram. Bir dəfə də Füzulidə xidmətdə olanda qış vaxtı "NİVA" ilə Qarabağ kanalına aşmışdı. Oradan çıxmaq qeyri-mümkün idi. Birtəhər maşının şüşəsini sındırıb suyun dibindən çıxmışdı. Aylardan sonra bu hadisə barədə mənə danışanda dedi ki, "ana, o anda düşündüm ki, Qarabağa gəlib belə "ucuz ölüm"lə ölmək istəmirəm". General Polad Həşimov şəhid olanda Azadla danışdım. O qədər qanıqara, kədərli idi ki... Ancaq qisas haqqında düşünürdü...

Vətən müharibəsi dövründə Azad vaxtı olanda evə zəng vururdu. Ruh yüksəkliyi içərisində deyirdi ki, tezliklə qələbə çalacağıq. Biz döyüşlərdə onun göstərdiyi qəhrəmanlıqları, yaxud yaralanması barədə heç nə bilməmişdik. Bütün bunlar haqqında ölümündən sonra məlumatlanmışdıq. Yəni Azad heç zaman bizim ona görə narahat olmağımızı istəmirdi. Belə ağsaqqal, müdrik, ailəcanlı idi balam...

Azadın özünün şəhidlik haqqında dedikləri məndə onu itirəcəyimlə bağlı daimi narahatlıq yaratmışdı. Psixologiyam pozulmuşdu, yuxularımı qatırdım, daim səksəkə içərisindəydim. 2020-ci il girəndən isə tamamilə yatağa düşdüm. Düz deyirlər ki, ana ilə bala arasında bağ var. Övladı ilə əlaqədar hər şey əvvəlcədən ona sanki əyan olurmuş.

Gedirəm məzarına, başdaşını qucaqlayıb şəklini öpürəm. Deyirəm "Azad, məni bağışla, bir ana kimi sənə doyunca qulluq eləyə bilmədim..."



Bilirsiniz, məni bir ana kimi incidən odur ki, balama ürəyim istəyən kimi qulluq etməyə macal tapmadım. Uşaqlıq dövründə bütün analar övladlarına qayğı göstərir, eləcə də mən. Amma həyat elə gətirdi ki, 13 yaşından Azad məndən uzaqda oldu. Liseydə, daha sonra ali hərbi məktəbdə oxudu. Ondan sonra da hərbi qulluğa getdi. Yəni zaman elə sürətlə keçdi ki, vaxt olmadı balamı gözüdolusu görüm, qayğısına qalım... Düşünürdüm ki, xoşbəxt günlərimiz hələ qabaqdadır... Ona toy edəcəkdim, gəlin gətirəcəkdim... Amma qismət belə imiş...

Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin!

### Təki Vətən sağ olsun!

İkinci Qarabağ müharibəsində xalqımız Vətən imtahanına çəkildi və ondan üzüağ çıxdı... Nə qədər ağrı-acılı olsa da, kimisi övladından, kimisi sevgisindən, kimisi isə Azad Hümbətov kimi canından keçməyi bacardı...

Vətən yaşasın deyə...

Müharibə başlayanda Azad artıq qərarını vermişdi. O, bu savaşda yalnız hərbçi deyildi, ana torpağın haqqını özünə qaytaran oğul idi. Buna görə də döyüşlərə girəndə ölüm qorxusunu düşünmürdü. O, ölməyi yox, torpağını, bayrağını, xalqını yaşatmağı düşünürdü. Yer titrəyəndə, torpaq alovla qucaqlaşanda Azad tankı ilə irəli şığıyırdı. Hər atəşdə bir addım irəli gedirdilər, hər hücumda bir qarış torpaq azadlığa yaxınlaşırdı. O, silahdaşlarını da tək qoymadı, mühasirədən çıxartdı, yaralansa da, geri çəkilmədi, daim irəli getdi. Sinəsini düşmən gülləsinə sipər edəndə, ölümün soyuq nəfəsini hiss etdiyi o son anda da Azad yenə öndə oldu. Göy üzü torpağa qarışanda Azadın qəlbindən keçən son hiss də qorxu olmadı. Anası, atası, bacıları keçdi yaddaşından... İllər əvvəl yarımçıq qalan kəlmeyi-şəhadətini tamamladı...

Bu dəfə sözlər dilinə gəldi, bu dəfə Tanrı dərgahına yolu açıq idi...

Taleyinə qısa, amma şərəfli 24 bahar yazılmış Azad Hümbətov qəhrəmanlıqla şəhidlik zirvəsinə ucaldı...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Sülh və qayıdış

## Azərbaycan öz hədəflərinə doğru inamla irəliləyir



*Əvvəli 1-ci səh.*

Deportasiyalar zamanı soydaşlarımıza qarşı kütləvi qırğınlar həyata keçirən erməni şovinistləri daha çox ərazi əldə etmək üçün həm də Azərbaycana qarşı işğal siyasətini həyata keçirməyə başladılar. Öz tarixi yurdlarından deportasiya edilən, didərgin salınan milyondan çox soydaşımız bu sayədə qaçqınlıq, məcburi köçkünlük kimi ağır həyata məhkum edildilər. Azərbaycanın Vətən müharibəsindəki qələbəsi sayəsində keçmiş məcburi köçkünlərimizin torpaq həsrətinə birdəfəlik son qoyuldu və artıq beş ilə yaxındır ki, Qarabağ və Şərqi Zəngəzura mütəmadi olaraq qayıdış köçləri həyata keçirilir. Böyük qayıdış qərbi azərbaycanlıların da hər birinin ürəyində yaşatdığı yurda qayıdış ümidini dirçəltdi. Bu soydaşlarımız da zorla qovulduqları dədə-baba yurdlarına qayıdacaqları günü inam və səbirsizliklə gözləyirlər.

Azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu və öz miqyasına və icra üsullarına görə ən dəhşətli mərhələsi 1987-1991-ci illərə təsadüf edib. Bu ona görə idi ki, bu mərhələdəki deportasiya Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsi ilə eyni vaxta təsadüf etmişdi. Təkcə 1987-1991-ci illər ərzində üç yüz minə yaxın azərbaycanlı Qərbi Azərbaycandan deportasiya olunmuşdu.

Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov söylədi ki, ermənilər, 1918-ci ildən etibarən isə Ermənistan Azərbaycan üçün hər zaman problemlər yaradıb:

- Onların Azərbaycan ərazilərinə olan iddiaları sovet rəhbərliyi, ona qədər çar Rusiyası, sonraki illərdə isə Qərb dövlətləri tərəfindən dəstəklənib. Yəni ermənilərin yalançı göz yaşları həmişə onlara imkan verib ki, Qərb onların ədalətsiz iddialarına "hə" desin. Ancaq çox təəssüf ki, Azərbaycanın haqq işini müdafiə edən dövlət olmayıb. 1980-ci illərin sonlarında da belə idi. Ölkəmizdə hakimiyyətdə olan birincilər Azərbaycana birincilik edə bilmədilər. Moskva nəyi deyirdisə, Azərbaycan hakimiyyəti də onu qəbul edib həyata keçirirdi. Amma Azərbaycandan fərqli olaraq Ermənistanda ortaya atılan ədalətsiz iddiaları həm ermənilər, həm erməni millətçi təşkilatları, həm də Ermənistan hakimiyyəti məmnuniyyətlə qəbul edir və birləşə bilirdilər. Onların ilk iddialarında belə bir düşüncə kök salmışdı: nə qədər ki, Ermənistan SSR-də azərbaycanlı əhali yaşayır, bu, Ermənistan üçün problemdir. Bunun üçün də həmin əhali buradan qovulmalı, Ermənistan SSR ərazisi azərbaycanlılardan təmizlənməlidir. Ondan sonra isə növbə Qarabağ və Zəngəzura gəlib çatırdı. Ona görə də heç bir günahı olmayan azərbaycanlı əhalinin kütləvi şəkildə deportasiyasına başlanıldı.

Anar İsgəndərov soydaşlarımızın deportasiyasının həm də o vaxt Azərbaycan SSR-də hakimiyyətdə olanların uğursuz fəaliyyəti ilə birbaşa bağlı olduğunu qeyd etdi.

Əliyalın azərbaycanlılar 1988-ci ilin yanvarında kütləvi şəkildə, əmlakları əllərindən alınmaqla, yüzlərlə insan öldürülməklə, qorxudulmaqla qışın sərt şaxtalı günlərində o zaman Ermənistan SSR adlanan ərazidən, amma öz tarixi torpaqlarından qovuldular.

Qeyd edək ki, Cənubi Qafqazda sabitliyin, barışın, davamlı inkişaf və tərəqqinin təməli ötən il avqustun 8-də Vaşinqton Sülh Sammitində qoyulub. Ağ Evdə sülh sazişi mətninin paraflanması həm də bu coğrafiyada yaşayan xalqların firavan həyatının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu mənada indiki Ermənistan ərazisindən deportasiya edilən qərbi azərbaycanlıların qayıdış hüquqlarının təmin olunması beynəlxalq hüququn və ədalətin bərqərar olması anlamına gəlir. Azərbaycan dövləti Qərbi Azərbaycana qayıdış məsələsini daim beynəlxalq gündəlikdə qaldırır və bu istiqamətdə işlər həyata keçirir.

1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin adı 3 avqust 2022-ci ildə dəyişdirilərək "Qərbi Azərbaycan İcması" adlandırılıb. İcmanın yeni Nizamnaməsi təsdiq olunub, Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların geriyə qayıtmasının təmin edilməsi ilə bağlı Qayıdış Konsepsiyası hazırlanıb. Qayıdış Konsepsiyası indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün Qərbi Azərbaycan İcmasının həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

Beynəlxalq birlik də qərbi azərbaycanlıların qayıdış hüquqlarını dəstəkləyir. Ötən il Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə qəbul edilən Xankəndi Kommünikesində Ermənistandan qovulmuş azərbaycanlıların öz doğma yurdlarına ləyaqətli qayıdış hüququ da əks olunub. Həmçinin keçən il İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasının yekununda ilk dəfə olaraq Qərbi Azərbaycan İcması ilə bağlı qətnamə qəbul olunub. Prezident İlham Əliyevin 21 may 2025-ci ildə Türkiyənin paytaxtı Ankara şəhərində "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilmiş beynəlxalq konfransın iştirakçılarına müraciəti BMT sənədi kimi yayılıb.

Bütün bunlar onu deməyə əsas verir ki, bir gün Qərbi Azərbaycandan olan soydaşlarımız da sülh yolu ilə təhlükəsiz şəkildə tarixi torpaqlarına qayıdacaqlar.

***Y.MUSAYEVA,***
***"Azərbaycan"***

# Cəmiyyət öz gücünü birləşdirərsə...

## "Ağ ölüm"ə qarşı mübarizə daha təsirli olar

**Müasir dünyamızı təhdid edən qlobal problemlər sırasında geniş miqyasa, dağıdıcı təsirə və sürətli yayılma tempinə malik narkomaniya xüsusi yer tutur. O, artıq yalnız ayrı-ayrı fərdlərin, ailələrin və ya cəmiyyətlərin faciəsi deyil, sosial rifahı, ictimai sağlamlığı, iqtisadi inkişafı və dövlətlərin təhlükəsizliyini sarsıdan qlobal çağırışdır.**

Narkotik maddələrin istifadəsi hər il milyonlarla insanın həyat keyfiyyətini aşağı salır, gənc nəslin gələcəyini risk altına alır, cinayətkarlığın artmasına, dolayısı ilə bu cinayətlərə məruz qalan insanların həyat və mülkiyyətinin təhlükə altına düşməsinə zəmin yaradır. Statistikaya görə, hazırda bütün dünyada 15-64 yaş aralığında 320 milyona yaxın insan narkotik asılılığından əziyyət çəkir. Bu, dünya əhalisinin təxminən 6 faizindən çoxdur. Məyusedici göstərici həm də budur ki, son 10 ildə narkotik asılılığına mübtəla olanların sayı artmaqdadır. Baxmayaraq ki, hər il bütün dünyada narkotik maddələrin təsirindən yüz minlərlə insan həyatını itirir, hazırda da təxminən 70 milyon nəfərə yaxın şəxs narkotik asılılığı səbəbilə ciddi sağlamlıq və sosial problemlərlə üz-üzədir.



Dünyada ən çox istifadə olunan narkotik maddə marixuanadır, onun istifadəçilərinin sayı 244 milyona çatır. Bundan əlavə, 61 milyon insan opioidlərdən, milyonlarla insan isə amfetamin, kokain və sintetik narkotiklərdən istifadə edir. Narkomaniya problemi regionlar üzrə fərqli səviyyələrdə yayılıb. ABŞ bütün dünyada opioid böhranının ən kəskin səviyyədə olduğu ölkələrdən biri kimi tanınır. Burada hər il on minlərlə insan narkotikdən aşırı dozada istifadə nəticəsində həyatını itirir. Əfqanıstan qlobal heroin istehsalının əsas mərkəzi kimi tanınır və bu həm daxili, həm də beynəlxalq narkotik dövriyyəsinə ciddi təsir göstərir. Rusiya və İran kimi ölkələrdə opioid və sintetik narkotiklərdən istifadə geniş yayılmışdır. Braziliya və Meksika isə narkotik tranziti və mütəşəkkil cinayətkarlıqla bağlı yüksək risk zonaları hesab olunur.

### BMT-nin bədbin proqnozu

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin proqnozlarına əsasən, 2030-cu ilədək dünyada narkotik istifadəçilərinin sayının əlavə 11 faiz artacağı gözlənilir. Bu göstəricilər narkotik istifadəsinin qlobal səviyyədə necə böyük problem olduğunu bir daha təsdiqləyir və onunla mübarizə sahəsində daha təsirli mexanizmlərin tətbiqini zəruri edir, eləcə də dövlətlər üçün milli təhlükəsizliyin qorunması baxımından yeni risklər və çağırışlar formalaşdırır.

Narkomaniya problemi dünyanın bütün ölkələri kimi Azərbaycan üçün də son dərəcə aktualdır. Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinin təqdim etdiyi məlumata görə, 2024-cü ilin sonuna ölkəmizdə dispanser qeydiyyatına düşən narkotik istifadəçilərinin sayı 40490 nəfər olub. Onlardan 39485 nəfəri kişi, 1005 nəfəri qadındır. Qeydiyyatda olanların 20182 nəfəri opioidlərin, 8611 nəfəri kannabinoidlərin, 11697 nəfəri eyni zamanda bir neçə narkotik maddənin qəbul edilməsi nəticəsində psixi və davranış pozuntuları yaranmış şəxslərdir.

Rəqəmlərin müqayisəsi Azərbaycanda da narkotik asılılığından əziyyət çəkənlərin sayının ildən-ilə artdığını göstərir. 2024-cü ildə ilk dəfə narkomaniya diaqnozu ilə qeydiyyata düşənlərin sayı 4 967 nəfər olub. 2023-cü ildə isə bu qərəm 3 796 nəfər idi. Onu da qeyd edək ki, bu rəqəmlər yalnız rəsmi qeydiyyat sənədlərinə əsaslanır, real say çox böyük ehtimalla bu rəqəmlərdən də yüksəkdir. Ölkəmizdə narkotik maddələrdən istifadənin gənclər arasında artım tendensiyası xüsusilə narahatedici məqamdır.

### Azərbaycanda narkomaniyaya qarşı effektiv tədbirlər görülür

"Ağ ölüm"ə qarşı mübarizə Azərbaycan hökuməti üçün əsas prioritetlərdəndir və son onilliklərdə bu istiqamətdə ardıcıl və təxirəsalınmaz tədbirlər həyata keçirilməkdədir. Bu tədbirlərin mühüm hissəsi ölkəmizdə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətinə yönəlib.

Azərbaycan BMT-nin 1961-ci il tarixli "Narkotik vasitələr haqqında" Vahid Konvensiyasına, 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasına, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasına, eləcə də digər beynəlxalq müqavilələrə qoşulub. Bu addımlar narkomaniya və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin beynəlxalq norma və prinsiplər əsasında gücləndirilməsinə hüquqi zəmin yaradıb.

Müasir dünyamızda müşahidə olunan qlobal trendlər və müasir çağırışlar narkotiklərlə mübarizədə rəqəmsal nəzarət mexanizmlərinin genişləndirilməsini və hüquqi müstəvidə innovativ yanaşmaların tətbiqini qaçılmaz edir. Belə yanaşma mövcud risklərə çevik reaksiya verən və uzunmüddətli dayanıqlılığı təmin edən müasir mübarizə sisteminin formalaşdırılmasına imkan yaradır. Azərbaycan da narkomaniya bəlasına qarşı mübarizədə bu yanaşmaya əsaslanır, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni daha sistemli və kompleks şəkildə təşkil etməyə çalışır. Bu istiqamətdə yüksəkixtisaslı kadr potensialı formalaşdırılır, narkoloji xidmət müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir, innovativ texnologiyaların tətbiqi və antinarkotik maarifləndirmə fəaliyyətinin müasir tələblərə uyğun təkmilləşdirilməsi əsas prioritetlərdən biri kimi götürülür.

Ölkəmizdə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının vaxtında aşkarlanması, qanunsuz dövriyyəsinin qarşısının alınması, eləcə də bu fəaliyyətin doğura biləcəyi mənfi təsirlərin minimuma endirilməsi məqsədilə mexanizmlər, müalicə vasitələri davamlı olaraq təkmilləşdirilir, beynəlxalq müstəvidə əməkdaşlıq imkanları genişləndirilir.

### Əsas hədəflər

Son onilliklər Azərbaycanda bu problemə qarşı mübarizə sahəsində kompleks tədbirləri əhatə edən bir sıra dövlət proqramları qəbul edilərək icra olunmuşdur. Prezidentin 2000-ci il 15 iyul tarixli fərmanı ilə 2000-2006-cı illəri əhatə edən, 2007-ci il 28 iyun tarixli sərəncamı ilə 2007-2012-ci illər üzrə, 2013-cü il 24 iyun tarixli sərəncamı ilə 2013-2018-ci illər üzrə və 2019-cu il 22 iyul tarixli sərəncamı ilə 2019-2024-cü illəri əhatə edən dövlət proqramları təsdiqlənərək ardıcıl şəkildə həyata keçirilmişdir.

Bu dövlət proqramları çərçivəsində atılan addımlar nəticəsində sahə üzrə normativ-hüquqi baza müasir çağırışlara uyğun təkmilləşdirilmiş, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhvi prosesində təşkilati işlər və nəzarət mexanizmləri gücləndirilmiş, narkomaniya ilə bağlı müalicə alan şəxslər üzərində daha səmərəli tibbi nəzarət təmin edilmiş, müalicə metodlarının müasirləşdirilməsi, narkoloji tibb müəssisələrinin kadr potensialının artırılması və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Eyni zamanda aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq genişləndirilmiş, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə şəhər və rayon komissiyalarının fəaliyyətinin effektivliyi yüksəldilmiş, maarifləndirmə və təbliğat tədbirlərinin davamlılığı təmin olunmuşdur.

Bütün bunlara paralel olaraq narkomaniyaya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyat-axtarış və istintaq fəaliyyətləri də gücləndirilmiş, narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsinin qarşısının alınması istiqamətində tədbirlər genişləndirilmişdir. Sağlam həyat tərzinin təşviqi, narkomanlığın zərərli nəticələri barədə ictimai məlumatlandırma işi, xüsusilə uşaq və gənclər arasında narkomaniyaya qarşı maarifləndirmə tədbirləri daha geniş miqyasda həyata keçirilmişdir. Bu tədbirlər hazırda da ardıcıl şəkildə davam etdirilməkdədir.

Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən bu qlobal bəlaya qarşı həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində müsbət göstəricilərin əldə edilməsi, narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi yeni tibb müəssisəsinin fəaliyyətinin təmin edilməsi, beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər çərçivəsində effektiv əməkdaşlığın yüksəldilməsi bu gün dövlətimizin əsas hədəflərindəndir. Bundan başqa, narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin könüllülük prinsipi əsasında müalicəsi və sağlam həyat tərzinə qaytarılması işinin təşkilində səmərəliliyin artırılması, narkomaniyadan xilas olan şəxslərin cəmiyyətə inteqrasiyasını və məşğulluğunu hədəfləyən layihələrin həyata keçirilməsi, uşaq və gənclər arasında milli-mənəvi dəyərlərin təbliği, sağlam və narkomaniyadan uzaq gəncliyin formalaşmasına töhfə verilməsi qarşıya mühüm hədəflər kimi qoyulub.

### Güc birlikdədir

Bütün bunlarla yanaşı, qlobal təcrübə də göstərir ki, problemin miqyasını, təsir dairəsini nəzərə alaraq narkomaniyaya qarşı mübarizə təkcə dövlət qurumlarının, o cümlədən hüquq-mühafizə və səhiyyə orqanlarının fəaliyyəti ilə məhdudlaşa bilməz. "Ağ ölüm"ə qarşı effektiv, dayanıqlı nəticələr yalnız cəmiyyətin bütün təbəqələrinin birgə və koordinasiyalı fəaliyyəti nəticəsində mümkündür. Bu baxımdan ümumən cəmiyyət narkomaniyaya qarşı sağlam və prinsipial mövqe formalaşdırmalı, bu bəlanın normallaşdırılmasına və ya laqeyd yanaşılmasına imkan verməməlidir. İctimai mühitdə sağlam həyat tərzinin təşviqi, gənclərin asudə vaxtının səmərəli təşkili və risk qruplarına qarşı diqqətin artırılması narkomaniyanın yayılmasının qarşısının alınmasında mühüm rol oynayır. Cəmiyyətin ümumi münasibəti narkotik istifadəsinə qarşı aydın və birmənalı mövqe ortaya qoyduqda, profilaktik tədbirlərin təsir gücü də yüksəlir.

Narkomaniyanın sosial, psixoloji, mədəni fəsadları müxtəlif vasitələrlə davamlı şəkildə geniş ictimaiyyətə çatdırılmalı, xüsusilə ailədəki, təhsil müəssisələrindəki erkən tərbiyədən gənc nəslin düzgün dəyərlər sistemi formalaşdırılmalıdır. Cəmiyyətimizdə rol modellərin formalaşması və mənəvi dayaq yaratması narkomaniyaya qarşı mübarizədə mühüm amillərdəndir.

Medianın üzərinə düşən vəzifələr də az deyil. Kütləvi informasiya vasitələri narkomaniya mövzusunu sensasiya və romantikləşdirmədən uzaq, məsuliyyətli və maarifləndirici formada işıqlandırmalıdır. Real faktlara, ekspert rəylərinə və elmi əsaslara söykənən materiallar cəmiyyətin düzgün məlumatlandırılmasına xidmət edir. Bununla yanaşı, uğurlu müalicə, reabilitasiya nümunələrinin təqdim edilməsi narkomaniyadan çıxış yolunun mümkün olduğunu göstərərək ümid və motivasiya yaradır.

Fərdi vətəndaşların rolu da burada çox mühümdür. Hər bir şəxs ailəsində, yaxın ətrafında və sosial mühitdə narkomaniyaya qarşı maarifləndirici mövqe tutmalı, şübhəli hallara biganə qalmamalı, sağlam həyat tərzini şəxsi davranışı ilə təşviq etməlidir. Xüsusilə valideynlərin və müəllimlərin gənclərlə açıq ünsiyyəti, etimad mühiti yaratması profilaktik baxımdan böyük əhəmiyyət kəsb edir.

Nəticə etibarilə narkomaniyaya qarşı mübarizə yalnız inzibati və cəza tədbirləri ilə deyil, ictimai şüurun formalaşdırılması, mənəvi dəyərlərin möhkəmləndirilməsi və sosial həmrəyliyin gücləndirilməsi yolu ilə uğur qazana bilər. Dövlətin məqsədyönlü siyasəti ilə yanaşı, cəmiyyətin bütün üzvlərinin məsuliyyətli və fəal mövqeyi bu təhlükəli problemin qarşısının alınmasında həlledici rol oynayacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*




## "Netflix" mobil tətbiqini yeniləyir




**Mobil video istehlakında "Yutub", "TikTok" və "İnstaqram"ın lider mövqeyini qoruduğu bir dövrdə "Netflix" də istifadəçilərin gündəlik vərdişləri uğrunda rəqabətə qoşulur.**

Şirkət dördüncü rüb üzrə maliyyə nəticələrinin açıqlanması zamanı mobil tətbiqinin dizaynını yeniləyəcəyini və qısaformatlı video imkanlarını genişləndirəcəyini bəyan edib.

Yeni mobil tətbiqin 2026-cı ilin sonuna doğru istifadəyə verilməsi planlaşdırılır. "Netflix"in həmsədri Qreq Piters bu yenilənmənin şirkətin uzunmüddətli strategiyasının əsas hissəsi olduğunu bildirib. Onun sözlərinə görə, yeni dizayn şirkətə müxtəlif funksiyaları davamlı şəkildə sınaqdan keçirmək, innovativ həllər tətbiq etmək və istifadəçi təcrübəsini daha da təkmilləşdirmək imkanı yaradacaq.

Yenilənmiş tətbiqin əsas elementlərindən biri şaquli videolentlər olacaq. "TikTok" və "İnstaqram Reels" formatını xatırladan bu funksiya serial və filmlərdən qısa fraqmentləri sürüşdürülə bilən lent şəklində istifadəçilərə təqdim edəcək. "Netflix" bu formatı ilk dəfə 2025-ci ilin mayında test etməyə başlayıb.

Qreq Pitersin açıqlamasına əsasən, gələcək mərhələdə bu lentlərdə videopodkastlardan seçilmiş hissələr də yer alacaq. Şirkət qısa videoları istifadəçilərin diqqətini cəlb edən və platformada aktivlik müddətini artıran mühüm alət kimi qiymətləndirir. Bu yanaşmanın davamı olaraq "Netflix" videopodkast sahəsinə də fəal şəkildə daxil olur. Şirkət bu həftə ilk orijinal videopodkast layihələrini təqdim edib.

Şirkət rəhbərliyi vurğulayır ki, bu addımlar sosial şəbəkələri kopyalamaq məqsədi daşımır. "TechCrunch Disrupt 2025" tədbirində çıxış edən şirkətin texnologiya direktoru Elizabet Ston qeyd edib ki, əsas hədəf "TikTok"a bənzəmək deyil, mobil istifadəçilər üçün məzmunun kəşf olunmasını daha effektiv və rahat etməkdir.

## "Xiaomi"dən yeni smartfon



"Xiaomi" yeni smartfonunu təqdim etməyə hazırlaşır. Yeni modelin əsas kameraları oval formalı modulda yerləşdirilib və dizayn baxımından "iPhone 17"ni xatırladır. Şirkət tezliklə təqdim edilməsi gözlənilən "Redmi Turbo 5 Max" smartfonu ilə bağlı yeni detallar açıqlayıb. Rəsmi təqdimat tarixi hələ elan olunmasa da, cihazın dizaynını və texniki imkanlarını nümayiş etdirən görüntülər artıq internetdə yayılıb.

Smartfon incə, metal çərçivələrə malik, kənarları yüngül əyilmiş böyükölçülü OLED ekranla təchiz olunacaq. Arxa hissədə isə şaquli formada yerləşdirilmiş ikili kamera bloku yer alır ki, bu da dizayn baxımından "iPhone 17" modellərinə bənzər görünüş yaradır.

"Redmi Turbo 5 Max"ın ən diqqətçəkən xüsusiyyəti 9000 mAh tutumlu güclü batareyasıdır. Bu göstərici "Xiaomi" smartfonları üçün rekord hesab olunur və bazardakı ən iri batareyalardan biri sayılır. Telefon həmçinin 100 vattlıq naqilli, sürətli enerjiyığma texnologiyasını dəstəkləyəcək.

Yeni smartfonun yaxın həftələrdə təqdim olunacağı gözlənilir.

## Futuristik robot əl

**Alimlər qeyri-adi imkanlara malik innovativ robot əl hazırlayıblar. Yeni nəsil bu mexanizm yalnız əşyaları tutmaq funksiyası ilə kifayətlənmir, eyni zamanda barmaqlarının ucları üzərində hərəkət edə, barmaqlarını qeyri-adi istiqamətdə bükə, robot qoldan ayrılıb müstəqil şəkildə fəaliyyət göstərə və yenidən ona birləşə bilir.**



Robot əl eyni vaxtda bir neçə obyekti daşımaq qabiliyyətinə də malikdir. Araşdırmanın elmi nəticələri "Nature Communications" jurnalında dərc olunub.

Layihəyə rəhbərlik edən İsveçrədəki Federal Texnologiya İnstitutunun alimi Aude Billard bildirir ki, əsas hədəf insan anatomiyasını təqlid edən ənənəvi robot modellərindən uzaqlaşmaq olub. Onun sözlərinə görə, uzun müddətdir insan əlinə oxşamayan, tamamilə fərqli funksional yanaşma əsasında formalaşan bir mexanizm yaratmaq ideyası üzərində çalışıblar.

Tədqiqat zamanı dizayn prosesi üçün genetik alqoritm adlanan süni intellekt əsaslı metoddan istifadə edilib. Bu alqoritm müxtəlif mexaniki parametrlərin qarşılıqlı təsirini virtual mühitdə analiz edərək ən optimal formaları müəyyənləşdirib. Nəticədə sürünmə, tutma və daşıma qabiliyyətlərinə malik bir neçə alternativ model ortaya çıxıb. Son mərhələdə isə laboratoriya şəraitində 5 və 6 barmaqlı real robot əl prototipləri hazırlanaraq sınaqdan keçirilib.

## "Apple"dan yeni cihaz



**"Apple" süni intellektə əsaslanan geyilə bilən cihazlar sahəsində yeni bir layihə üzərində çalışır. Bu, "AI pin" adlı süni intellekt nişanıdır.**

"AI pin" ölçü və forma baxımından "AirTag"ə bənzəyəcək. O, alüminium və şüşədən hazırlanan yastı, dairəvi korpusa sahib olacaq. Cihazın ön hissəsində biri adi, digəri genişbucaqlı olmaqla iki kamera yerləşəcək. Bundan əlavə, üç mikrofon, daxili dinamik və maqnitli induktiv şarj dəstəyi nəzərdə tutulur. "AirTag"dən fərqli olaraq, pin üzərində fiziki düymə də olacaq. Məhsulun 2027-ci ildə təqdim ediləcəyi və istehsal həcminin 20 milyon ədədə çatdırılmasının planlaşdırıldığı bildirilir.

Qeyd etmək lazımdır ki, "AI pin" "Apple"ın yeganə süni intellektyönümlü layihəsi deyil. Şirkət həmçinin "Apple Glass" "ağıllı eynəkləri", kameraya sahib "AirPods" modelləri və "Apple Ring" adlı "ağıllı üzük" üzərində də çalışır.

## "Hyundai"da humanoid robot gərginliyi

**Cənubi Koreyanın "Hyundai Motors" şirkətinin həmkarlar ittifaqı şirkətin 2028-ci ildən etibarən istehsal müəssisələrində humanoid robotlar yerləşdirmək planına sərt reaksiya verib.**



Həmkarlar ittifaqı bildirib ki, bu addım əsasən əmək xərclərini azaltmaq, mənfəəti artırmaq məqsədi daşıyır və nəticədə ciddi "məşğulluq şoku" yarada bilər. Onlar bəyan ediblər ki, ittifaqın razılığı olmadan heç bir robot iş yerinə daxil ola bilməz. Bu, iş yerlərinin itirilməsi riskini artıracaq.

Xatırladaq ki, bu ilin əvvəlində "Hyundai Motor Group"un törəmə şirkəti olan "Boston Dynamics" illik 30 min robot istehsal gücünə malik zavod tikməyi planlaşdırır. İlk humanoid robotların 2028-ci ildən etibarən ABŞ-nin Corciya ştatındakı "Hyundai" zavodunda istifadəyə veriləcəyi açıqlanıb.

Həmkarlar ittifaqı şirkətin istehsal fəaliyyətini ABŞ-yə köçürmək planlarını da tənqid edib. Onların fikrincə, Corciyada inşa edilən yeni zavod artıq Cənubi Koreyadakı iki istehsal müəssisəsində iş təhlükəsizliyini zəiflədib.

## "New Glenn"in üçüncü uçuşu fevralın sonuna planlaşdırılır

"Blue Origin" şirkəti "New Glenn" raketinin üçüncü uçuşunu fevral ayının sonu həyata keçirməyi planlaşdırır. Əvvəl gözlənildiyinin əksinə olaraq, bu missiya Ay istiqamətində olmayacaq. Raket aşağı Yer orbitinə "AST SpaceMobile" şirkətinə məxsus peyki daşıyacaq.

Raketin hazırlanmasına təxminən 10 il sərf olunub. Bu, "New Glenn"in kommersiya yükü ilə ikinci uçuşu olacaq. Məlumata görə, "Blue Moon Mark 1" (MK1) robotu hazırda NASA-nın Conson Kosmik Mərkəzində vakuum kamerası sınaqlarına hazırlanır. Missiyanın dəqiq buraxılış tarixi hələ müəyyən edilməyib.

Qeyd etmək lazımdır ki, fevral ayı kosmik uçuşlar baxımından olduqca intensiv olacaq. NASA-nın "Artemis II" missiyasının, "SpaceX"in "Starship"nin sınaqlarının və "Crew-12" uçuşunun bu ay baş tutması gözlənilir.

## "TikTok"un ABŞ strategiyası dəyişdi

**ABŞ-də fəaliyyətini davam etdirmək və yeni hüquqi tələblərə uyğunlaşmaq məqsədilə "TikTok" ölkə daxilində "TikTok USDS Joint Venture LLC" adlı birgə müəssisə yaradıb. Razılaşmaya əsasən, ABŞ investorları şirkətdə pay sahibi olacaq, "ByteDance" isə öz payını 19,9 faiz səviyyəsinə endirəcək.**




Ölkədəki istifadəçilər "TikTok"un qlobal məzmununa çıxışı davam etdirəcək, lakin platformanın tövsiyə alqoritmi ABŞ bazarı üçün ayrıca şəkildə yenidən öyrədiləcək və test olunacaq. Şirkətin idarə heyəti əsasən amerikalı üzvlərdən ibarət formalaşdırılıb. Platformanın ABŞ üzrə filialına Adam Presser rəhbərlik edəcək. Təhlükəsizlik və məlumat məxfiliyi üzrə məsuliyyət isə Uill Farrellə həvalə olunub.

Yeni müəssisə ABŞ üçün məzmun moderasiyası və istifadəçilərə təqdim olunan kontentin idarəsini də öz üzərinə götürəcək. Bu struktur eyni zamanda "CapCut" və "Lemon8" kimi "ByteDance"yə məxsus tətbiqlərin ABŞ-də fəaliyyətini davam etdirməsinə imkan yaradacaq. Hazırda istifadəçilər platformada ciddi dəyişiklik hiss etməsələr də, bəzi məzmun yaradıcıları son həftələrdə baxış saylarında azalma müşahidə etdiklərini bildirirlər. Bunun yeni arxa plan dəyişiklikləri ilə əlaqəli olub-olmadığı isə hələlik məlum deyil.

"TikTok"un ABŞ-də uzunmüddətli gələcəyinin necə formalaşacağı isə hələ də qeyri-müəyyəndir.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Sənət dünyası

**Hələ nə səhnə vardı, nə də alqışlar. Balaca bir qız öz qayğısız uşaqlıq çağlarını yaşayırdı. Hələ teatra, səhnəyə can atmırdı. Sadəcə, musiqinin sehrinə düşmüşdü. Bir də onun uşaq dünyasına yeni mənalar qatan rəqs etmək istəyi vardı...**

# Səhnənin sönməz ulduzu





## Opera sənətinin zirvəsinə aparan yol

Leyla Vəkilova 1927-ci il yanvarın 29-da Bakıda ziyalı ailəsində dünyaya göz açmışdı. Əslən Qazax rayonunun Yuxarı Salahlı kəndinin Vəkilovlar nəslindən olan Leyla Vəkilovanın kiçik yaşlarından rəqsə böyük həvəs göstərməsi valideynlərinin diqqətindən yayınmayıb. Səkkiz yaşına çatanda onu Bakı Xoreoqrafiya Məktəbinə aparıblar. Balet sənəti Leyla xanıma ecazkar təsir bağışlayıb. Sonsuz maraqla bu sənətin incəliklərini öyrənib. Müəllim sarıdan bəxti gətirib. Əvvəlcə Ədilə Almaszadədən, son siniflərdə isə Azərbaycanın ilk balerinası, görkəmli balet ustası və pedaqoq, Xalq artisti Qəmər Almaszadədən dərs alıb. Bu böyük sənətkarın məktəbi Leyla Vəkilovanın yaradıcılığına böyük təsir göstərib. Bakı Xoreoqrafiya Məktəbini 1943-cü ildə bitirən Leyla Vəkilova Azərbaycan Dövlət Opera və Balet Teatrının balet truppasında solist kimi işə başlayıb.

Sonra Leyla ixtisasını təkmilləşdirmək üçün Moskvaya gedib. 1945-1946-cı illərdə Moskva Xoreoqrafiya Məktəbində xüsusi kurs keçib. Doğma şəhərinə qayıdan Leyla Vəkilova Opera və Balet Teatrının aparıcı balet aktrisası kimi fəaliyyətini davam etdirib.

İstedadlı balerinanın səhnədə debütü R.M.Qlierin "Qırmızı lalə" baletində Tao Xoa rolu olub. Bu debüt onun sənət yolunun uğurlu başlanğıcı olub. Sanki xəyallar aləminə düşüb. Tamaşaçıların alqışlarında onun da payı olduğunu düşündükcə həyəcanlanıb, sanki qəlbi köksünə sığmayıb. Tamaşa bitdikdən sonra eşitdiyi təbriklər, təriflər, xoş sözlər onu daha da fərəhləndirib. Sənət müəllimi Qəmər Almaszadə ona sevinclə, iftixarla "Əhsən, sən məndən də irəli gedəcəksən" dedikdə isə Leyla Vəkilovaya elə gəlib ki, ən böyük mükafata layiq görülüb. Bu inam gənc balerinanı zirvələrə səsləyib.

Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletində canlandırdığı Gülyanaq rolu da Leyla Vəkilovanın ilk uğurlarından biri olub. Soltan Hacıbəyovun "Gülşən" baletində Gülşən rolunun ifasında göstərdiyi məharət də diqqət və rəğbətlə qarşılanıb. Teatrşünaslar balerinanın istedadını yüksək dəyərləndiriblər.

"Əla rəqqasə, qıvraq, möhkəm… hər şey canlandı, başqa bir aləm yarandı". Bu sözləri isə onun haqqında görkəmli bəstəkar Qara Qarayevin "Yeddi gözəl" baletinin quruluşçu rejissoru Pyotr Qusev müsahibəsində balerinanın ifasından danışarkən söyləyib.

İstedadlı balerina müxtəlif illərdə teatrın səhnəsində ayrı-ayrı tamaşalarda bir-birindən maraqlı, fərqli rollarda səhnəyə çıxıb. Onun hər çıxışı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Leyla Vəkilova "Qız qalası", "Qu gölü", "Yatmış gözəl", "Şelkunçik", "Qırmızı lalə", "Don Kixot", "Laurensiya", "Bağçasaray fəvvarəsi", "Gülşən", "Yeddi gözəl", "İldırımlı yollarla", "Məhəbbət əfsanəsi", "Jizel", "Qızıl açar", "Qaraca qız" baletlərində əsas partiyaları uğurla ifa edib.

1959-cu ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Ongünlüyünün iştirakçılarından biri də Leyla Vəkilova olub. O, "Qız qalası", "Yeddi gözəl" və "Gülşən" əsərlərində baş rollarda çıxış edib. İfası Moskva tamaşaçılarına heyrətamiz təsir bağışlayıb. Azərbaycanlı balerinanın istedadı Moskva mətbuatında qeyd olunub.

## "Yeddi gözəl"lə opera səhnəsinə vida...

1962-ci ildə görkəmli bəstəkar Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti tamaşaya qoyulub. Tamaşada Şirin rolunu Leyla Vəkilova canlandırıb. Şirin də oynadığı digər rollar kimi ona uğur gətirib. Arif Məlikov onun ifası barədə deyib: "Bu surəti yaradaraq Leyla Vəkilova əvvəldən cızılmış xoreoqrafik konstruksiyaya isti nəfəs verə bildi. Vəkilova - Şirin tamaşaçıların qarşısında dərin məhəbbət hisslərindən pərvazlanan insan idi. Bu surəti yaradan balerina sübut edirdi ki, Şirin - poeziyadır, işıqdır, Şirin - azadlıqdır. Balerina parlaq məharətlə gənc və zərif qəlbli bir qızcığazın həyatını yaşadı. Təcrübəli aktrisanın müstəsna ustalığı nəticəsində dolğun və sönməz bir surət yarandı".

Onun yaradıcılığında xüsusi yeri olan tamaşalardan biri də "Yeddi gözəl" baleti olub. Bu tamaşa yalnız onun parlaq istedadının təcəssümü ilə yadda qalmayıb. Leyla Vəkilova 1972-ci ildə balerina kimi son dəfə "Yeddi gözəl" tamaşası ilə Opera və Balet Teatrının səhnəsinə çıxıb. O, nə qədər ağır olsa da, sevimli tamaşaçıları və vurğunu olduğu opera səhnəsi ilə vidalaşmalı olub.

Leyla Vəkilova 1976-1982-ci illərdə Azərbaycan Dövlət Rəqs Ansamblının bədii rəhbəri vəzifəsində çalışıb.

O, Polşada, Suriyada, Çexoslovakiyada, Hindistanda, Bolqarıstanda, Fransada, Macarıstanda, İtaliyada, Türkiyədə, Almaniyada, Nepalda, Tiflisdə ifaçı və baletmeyster kimi uzunmüddətli qastrol səfərlərində olub.

Azərbaycan mədəniyyətinə göstərdiyi xidmət, uzunillik səhnə fəaliyyəti yüksək dəyərləndirilib. Leyla Vəkilova 1955-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 1958-ci ildə Xalq artisti, 1967-ci ildə isə SSRİ Xalq artisti fəxri adlarına layiq görülüb. 1997-ci ildə "Şöhrət" ordeni ilə təltif olunub.

Bir zamanlar seçdiyi sənətin sirlərini ustad sənətkarlardan öyrənmiş, illər keçdikcə təcrübə qazanmış Leyla Vəkilova böyük həvəslə bildiklərini tələbələrinə öyrədib. 1953-cü ildən ömrünün sonunadək Bakı Xoreoqrafiya Məktəbində klassik rəqslər fənnindən dərs deyən Leyla xanım bacarıqlı pedaqoq kimi tanınıb. O, 1992-ci ildən həm də bu təhsil ocağına bədii rəhbərlik edib. 1996-cı il sentyabrın 6-dan Bakı Xoreoqrafiya Məktəbinin professoru olub.

Görkəmli balet ustası Leyla Vəkilova 1999-cu il fevralın 20-də vəfat edib. Fəxri xiyabanda dəfn olunub. Onun sənət yolu, arzuları yetirmələrinin yaradıcılığında davam edir.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

● Unutsaq, unudularıq

# İctimai xadim, yazıçı və pedaqoq

**Azərbaycan Yazıçılar Birliyinin üzvü Şamil Süleymanlı (Süleymanov) 1938-ci ildə Zərdabın Lələağacı kəndində ruhani-din xadimi İsa Əfəndinin ailəsində dünyaya göz açıb. Ailə bir müddət sonra Şəmkir rayonunun Təzəkənd kəndinə köçüb. Ailədə iki qardaş idilər, kənddəki S.Vurğun adına orta məktəbə oxuyurdular. Hər iki qardaş əlaçı olmaqla təlim-tərbiyə məsələlərində də nümunəvi idilər. Şamilin böyük qardaşı Muxtar 8-ci sinfi bitirdikdən sonra, ailə vəziyyəti ilə əlaqədar təhsilini gecə məktəbində davam etdirməklə gündüzlər kənddə Maşın-Traktor Stansiyasında baş mühəndis işləyən əmisi Hüseyn İsayevin dəstəyi ilə usta-çilingər köməkçisi işləməyə başladı.**



Şamil orta məktəbi bitirən ilin payızı sovet ordusu sıralarına xidmətə çağrıldı. O, hərbi xidmətdən tərxis olunduqdan sonra - 1957-ci ildən 1960-cı ilədək Təzəkənd kəndindəki M.Əzizbəyov adına üzümçülük sovxozunda klub müdiri işləmişdir.

Şamili işləməklə yanaşı, ali təhsil almaq arzusu daim düşündürürdü. Odur ki 1960-cı ildə kənddəki işindən ayrılaraq Bakıya gəlmiş, sovet dönəmində "Şifer zavodu" (indi yoxdur) kimi tanınan müəssisədə fəhlə kimi çalışmışdır. Onun tay-tuşları boş vaxtlarında, istirahət günlərində gəzintiyə, digər əyləncələrə vaxt sərf edəndə Şamil kitabxanalara baş çəkir, qəbul imtahanlarına hazırlaşırdı. Nəhayət, 1963-cü ildə M.F.Axundov adına Dövlət Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutuna (indi Bakı Slavyan Universiteti) qiyabi qəbul olaraq illərlə qəlbində gəzdirdiyi şərəfli tələbə adının şirinliyinə qovuşmuşdur. Çalışdığı müəssisədə komsomol təşkilatının katibi kimi ictimai-mədəni tədbirlərdə fəal iştirak edən fəhlə-tələbə institutun ikinci kursunda olanda siyasi biliyini daha da zənginləşdirmək üçün Bakı Ali Partiya məktəbinə göndərilmişdir. Burada dörd il ali partiya təhsili alandan sonra Şamil Süleymanov Bakı şəhəri, Nərimanov Rayon Komsomol Komitəsində təlimatçı, Bakı Şəhər ÜLKGİ Mərkəzi Komitəsində Təbliğat və təşviqat şöbəsinin müdir müavini, müdiri, Bakı Şəhər Partiya Komitəsində təlimatçı, Xətai Rayon Partiya Komitəsində katib, Azərbaycan KP MK-da Təbliğat və təşviqat şöbəsinin bölmə müdiri vəzifələrində çalışmışdır.

Bu illərdə Şamil müəllim dövlət qulluqçusu olmaqla yanaşı, əzəldən könül bağladığı bədii ədəbiyyatdan ayrılmayır, dövri mətbuatda publisistik məqalələri, oçerk, hekayə və povestləri ilə çoxsaylı çıxışlar edir. Onun böyük oxucu sevgisi qazanan ilk kitabı "Hünər meydanı" 1970-ci ildə yeddi min tirajla işıq üzü görür. Ədibin gənclərimizin qurub-yaratmaq eşqindən, fədakar əməyindən və ülvi məhəbbətindən bəhs edən, habelə aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Aşıq Ələsgərə həsr edilmiş silsilə hekayələrindən ibarət "Nəğməli ürək" kitabı bundan doqquz il sonra "Gənclik" nəşriyyatı tərəfindən 10 min nüsxə ilə oxucuların görüşünə gəlir.

Şamil Süleymanlı 1979-cu ildə ölkəmizin ikinci böyük şəhəri Gəncədə şəhər partiya komitəsinin ikinci katibi seçilir. Həmin ildən ideoloji sahəyə məsul Şamil Süleymanlının təşəbbüsü və birinci katib Həsən Həsənovun rəhbərliyi ilə böyük Nizami Gəncəvinin adıyla reallaşan Nizami Poeziya Bayramı fərqli formada dünya ictimaiyyətinə təqdim olunur. Yəqin ki, bəzilərinin xatirindədir: 1980-ci ilin sentyabrında böyük təntənə ilə keçirilən Nizami Poeziya Bayramı təkcə şəhər, respublika miqyası ilə məhdudlaşmamışdı, ittifaqın, hətta dünyanın müxtəlif ölkələrindən nizamisevərlər dəvət edilmişdi... Nizami şeirinin əks-sədası dünyanı başına götürdü, milliyyətindən, dinindən və irqindən asılı olmayaraq gəncəli dahinin ünvanı bir daha bəşər oğlunun qəlbində əks-səda doğurdu.

Şamil Süleymanlının rəhbərliyi altında dahi Nizaminin illərlə baxımsız qalmış məqbərəsində böyük bərpa və yenidənqurma işləri aparıldı. Ş.Süleymanlı beş il bu vəzifədə ləyaqətlə çalışmaqla yanaşı, həm də Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

Şamil Süleymanlı 1991-ci ildə Azərbaycan Dəmiryolu İdarəsi (indi "Azərbaycan Dəmir Yolları" QSC (ADY) tədris müəssisəsinin şöbə rəisi, eyni zamanda "Dəmiryolçu" qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır. Az sonra Azərbaycan Respublikasının Prezident Aparatı yanında Ali Nəzarət İnspeksiyasında şöbə müdiri, "Yazıçı" nəşriyyatının direktoru, Azərbaycan Respublikası Nazirlər Kabineti "Qərarlar məcmuəsi"nin redaktoru - redaktə qrupunun rəhbəri olmuşdur. 2003-2008-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim və baş müəllim vəzifəsində çalışmışdır. Bu zaman dəyərli pedaqoqun böyük zəhməti hesabına ərsəyə gələn "Nəşriyyat işi və Azərbaycan ədəbiyyatı dünya nəşrində" kitabı diqqət çəkdi. Təsadüfi deyil ki, o vaxtdan kitab respublika Təhsil Nazirliyi tərəfindən Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin tələbələri üçün dərs vəsaiti kimi tövsiyə edilmişdir. Bu sahədə ensiklopedik bilgiyə malik pedaqoq Şamil Süleymanlının 2009-cu ildə nəşr etdirdiyi "Nəşriyyat işi və redaktəetmə" kitabı bu gün jurnalist olmaq arzusu ilə təhsil alan tələbələrin, ölkəmizin müxtəlif nəşriyyatlarında çalışan korrektor və mütəxəssislərin stolüstü kitabına çevrilmişdir.

Ədəbi fəaliyyətə 1960-cı illərdən başlayan Şamil Süleymanlı dövrün nüfuzlu mətbu orqanı olan "Ulduz", "Azərbaycan", "Ədəbiyyat və İncəsənət" (indi "Ədəbiyyat qəzeti") və digər jurnal və qəzetlərdə hekayə, povest, roman və publisistik əsərləri ilə oxucularla təmasda olmuşdur. Şamil Süleymanlı 15-dən çox kitabın, zamanın nəbzini tutan yüzlərlə publisistik məqalənin, rus dilindən tərcümə etdiyi onlarca əsərin müəllifidir. Şamil Süleymanlının bədii yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi yer tutur.

İctimai xadim və yazıçı Ş.Süleymanlı dəfələrlə rəsmi nümayəndə heyətinin rəhbəri və üzvü kimi xarici ölkələrdə səfərdə olmuşdur. Onun əməyi, ictimai-siyasi fəaliyyəti Ulu Öndər Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir. Ölkə rəhbərinin fərmanı ilə o, 1970-ci ildə "Əməkdə rəşadətə görə", 1976-cı ildə "Əməkdə fərqlənməyə görə" medalları ilə təltif olunmuşdur. Daha sonra Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanına, Heydər Əliyev Fondunun, Beynəlxalq Xeyriyyə Fondunun diplomlarına, "Araz" ali ədəbi mükafatına layiq görülmüşdür.

Şamil Süleymanlı ötən il dekabrın 4-də, ömrünün 87-ci dönəmində dünyasını dəyişmişdir. Məzarı Bakının Fatmayı kənd qəbiristanlığındadır.

*Rəhman SALMANLI, "Azərbaycan"*

**Bu günlərdə Abdulla Şaiqin mənzil-muzeyində görkəmli ədib Abdulla Şaiqin oğlu, ədəbiyyatşünaslıq elminin tanınmış nümayəndəsi, Azərbaycanda ədəbi tənqid məktəbinin banilərindən biri, akademik Kamal Talıbzadənin vəfatının 20-ci ildönümünə həsr olunmuş "Elmdə iz qoyan ömür - Kamal Talıbzadə" adlı anım tədbiri keçirilib.**

# Elmdə iz qoyan alim



Xalq artisti Mübariz Tağıyevin ifasında Zeynəb İsmayılzadənin Abdulla Şaiqin məşhur şeirinə yazdığı "Şaiqanə yad et!" mahnısı səsləndirilib.

Akademik Kamal Talıbzadənin qızı, Abdulla Şaiqin mənzil-muzeyinin direktoru Ülkər Talıbzadə qonaqları Azərbaycanın görkəmli ədibi Abdulla Şaiqin ocağında salamladı. Sonra sözünə davam edərək dedi ki, Kamal Talıbzadənin vəfatından 20 il keçməsinə baxmayaraq, xatirəsi bu gün də onu tanıyan və sevən insanların qəlbində yaşayır. Kamal Talıbzadə təkcə böyük ədəbiyyatşünas alim deyildi, həm də əsl mədəniyyət xadimi idi. O, atası Abdulla Şaiqin zəngin irsini yaşatmaq üçün böyük zəhmət bahasına bu muzeyi yaratmış, ömrünün sonunadək ədəbiyyatşünaslıq elminə və milli mədəniyyətimizin inkişafına misilsiz xidmətlər göstərmişdir.

Tədbirdə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi, Kamal Talıbzadənin aspirantı, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlının çıxışı maraqla qarşılandı. O dedi ki, ədəbiyyatşünaslar Abdulla Şaiq irsinə və bu irsin ən böyük davamçılarından biri olan Kamal Talıbzadə şəxsiyyətinə daim minnətdardırlar. Kamal müəllimin ədəbiyyat tarixində apardığı tədqiqatlar bu gün də öz elmi əhəmiyyətini qoruyub saxlayır.

Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov çıxışında Kamal Talıbzadənin Azərbaycan ədəbiyyatşünaslığına verdiyi mühüm töhfələrdən ətraflı bəhs etdi. Dedi ki, Kamal Talıbzadənin əsərləri bu gün də dərslik səviyyəsindədir. Xüsusilə Abbas Səhhətin yaradıcılığı ilə bağlı apardığı mühüm araşdırmalar elmi dövriyyəyə yeni faktlar gətirmiş və bu gün də geniş şəkildə istifadə olunur.

Çıxışını bitirdikdən sonra professor Bədirxan Əhmədov "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" kitabını muzeyə hədiyyə etdi.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işçisi, filologiya elmləri doktoru Şahbaz Musayev Kamal Talıbzadəni həm mükəmməl alim, həm də yüksək mənəvi keyfiyyətlərə malik insan kimi xarakterizə etdi. Vurğuladı ki, Azərbaycan ədəbi tənqidinin tarixi Kamal Talıbzadə şəxsiyyəti olmadan təsəvvür edilə bilməz. Alim hələ sovet dövründə Əhməd Ağaoğlunun əsərlərini çapa hazırlamış, Firudin bəy Köçərli, Abdulla Sur və Atababa Musaxanlı haqqında dəyərli və sanballı elmi araşdırmalar ortaya qoymuşdur. Bununla da Azərbaycan ədəbiyyatına böyük xidmətlər göstərmişdir.

Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti Razim Məmmədov çıxışında Abdulla Şaiqin mənzil-muzeyinin bünövrəsinin qoyulmasında Kamal Talıbzadənin misilsiz əməyi olduğundan söz açdı. Bildirdi ki, bu muzeyin yaradılması Bakı şəhərində digər ev-muzeylərinin fəaliyyətə başlamasına da mühüm töhfə vermişdir.

"Borçalı Cəmiyyəti" İctimai Birliyinin sədri Ramiz Həsənov çıxışında Kamal Talıbzadənin Borçalı gənclərinə göstərdiyi mənəvi dəstəyi tədbir iştirakçılarına xatırlatdı. Dedi ki, vaxtilə Borçalıdan təhsil almaq üçün gələn gənclərə Kamal müəllimin tövsiyələri və qayğıkeş münasibəti böyük dayaq olub. Kamal Talıbzadənin vəfatı xalqımız və ədəbiyyatımız üçün böyük itki oldu.

Sözünü bitirdikdən sonra Ramiz Həsənov "Borçalı Cəmiyyəti" adından üzərində Kamal Talıbzadənin portreti həkk olunmuş xalçanı muzeyə hədiyyə etdi. Cəmiyyətin üzvü şair Səadət Novruz qızı Borçalıya həsr etdiyi şeirini söylədi.

Tədbirin bədii hissəsində qonaqlar muzeyin əməkdaşı Fəridə Məmmədovanın təqdimatında Abdulla Şaiqin oğlu Kamal Talıbzadəyə həsr etdiyi "Ata öyüdü" şeirini dinlədilər.

Sonra "Muğam" Televiziya Müsabiqəsinin laureatı, istedadlı xanəndə Yusif Cəfərbəylinin, tar ifaçısı Səxavət Məmmədovun və kamança ifaçısı Mahir Quliyevin ifasında xalq mahnıları səsləndirildi.

Akademik Kamal Talıbzadənin həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş etdirildi.

Yüksək ehtiram və hörmətlə keçirilən anım tədbiri bir daha göstərdi ki, akademik Kamal Talıbzadənin elmi və mədəni irsi Azərbaycan xalqının yaddaşında daim yaşayacaq.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

## "Zamanın rənglə yazılan yaddaşı: Mirzə Qədim İrəvani"

**Azərbaycan Milli İncəsənət Muzeyində "Zamanın rənglə yazılan yaddaşı: Mirzə Qədim İrəvani" adlı mühazirə təşkil olunub.**



Bu barədə AZƏRTAC-a muzeydən məlumat verilib.

Bildirilib ki, mühazirə Azərbaycan Milli İncəsənət Muzeyinin Elmi-tədqiqat üzrə direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru, "Mirzə Qədim İrəvani: Zamanların qovşağında" kitabının həmmüəllifi Aytən Əhmədova tərəfindən təqdim olunub. Məruzədə XIX əsr Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi Mirzə Qədim İrəvaninin həyat və yaradıcılıq yolu, onun formalaşdığı tarixi-mədəni mühit və sənət üslubunun əsas xüsusiyyətləri haqqında geniş bəhs edilib. Məruzə zamanı kitab üzərində aparılmış tədqiqatların nəticələri əsasında rəssamın əsərlərinin tarixi konteksti, bədii-estetik məziyyətləri və simvolik məna qatları ətraflı şərh olunub. Sərgi zalında təşkil olunan mühazirə dinləyicilərə Mirzə Qədim İrəvani yaradıcılığına müəllifi olduğu unikal əsərlər müstəvisində daha dərindən nəzər salmaq imkanı yaradıb.

Azercell

## korporativ abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC korporativ abunəçilərinin gündəlik biznes ehtiyaclarını daha çevik və effektiv şəkildə qarşılamaq məqsədilə 25.02.2026-cı il tarixindən etibarən "Biznesim" tarif paketlərini yeniləyir!

Belə ki, internetə artan tələbatı nəzərə alaraq rabitə və internet resurslarından səmərəli istifadənin təmin edilməsi üçün optimallaşdırılmış tariflər çərçivəsində müştərilərə ehtiyaclarına uyğun daha sərfəli internet həcmi və geniş danışıq imkanları təqdim edir:

| Tarif paketin hazırkı adı | Biznesim 3GB | Biznesim 6GB | Biznesim 9GB | Biznesim 15GB | Biznesim 55GB |
|---|---|---|---|---|---|
| **Tarif paketin yeni adı** | **Biznesim 4GB** | **Biznesim 8GB** | **Biznesim 12GB** | **Biznesim 20GB** | **Biznesim 60GB** |
| Əsas internet həcmi | 4 GB | 8 GB | 12 GB | 20 GB | 60 GB |
| Gecə istifadəsi üçün internet həcmi* | | 1 GB | 2 GB | 3 GB | |
| Ölkədaxili danışıq dəqiqələri | 700 | 1,500 | 2,500 | 4,000 | 7,000 |
| Şirkətdaxili zənglər | Limitsiz | Limitsiz | Limitsiz | Limitsiz | Limitsiz |
| Beynəlxalq danışıq dəqiqələri | | | 10 | 20 | 30 |
| SMS | 500 | 1,000 | 2,000 | 2,000 | 3,000 |
| Qiymət | 15 ₼ | 21 ₼ | 26 ₼ | 36 ₼ | 56 ₼ |

*Gecə istifadəsi üçün internet həcmi 00:01-08:00-dək olan müddəti əhatə edir və bu zaman ərzində internetdən bütün istiqamətlər üzrə istifadə oluna bilər.

Bu dəyişikliklər korporativ abunəçilərin tarif imkanlarından daha balanslı şəkildə faydalanmasına və gündəlik biznes fəaliyyətlərini daha rahat planlaşdırmasına şərait yaradır. Eyni zamanda abunəçilər "Biznesim" tarif paketləri üzrə mövcud olan digər üstünlüklərdən əvvəlki şərtlərlə istifadə etməyə davam edəcəklər.

Dəyişikliklər mövcud abunəçilər üçün növbəti yenilənmə zamanı avtomatik qaydada həyata keçiriləcək.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com**), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər. Korporativ abunəçilər xüsusi Müştəri Xidmətlərinə ((012) 4904940 - şəhər telefonundan, 6050 - mobil telefondan (1 zəng - 0,1 AZN); Bazar ertəsi - Cümə, 09:00 - 18:00) müraciət edərək mövcud tariflər, kampaniyalar və xidmətlər haqda məlumat öyrənə, müxtəlif əməliyyatlar həyata keçirə və texniki dəstək ala bilərlər.

## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Bilmək istəyirəm

*Güclü yağışdan sonra həyətimi su basıb, su evə dolub və mənzilə ciddi ziyan dəyib. Bu halda kömək üçün hara müraciət etməliyəm və dəymiş ziyana görə kim kompensassiya ödəməlidir?*

***Seyidağa MƏMMƏDOV,***
***Abşeron rayonu***

- Yağışdan sonra həyət və evinizi su basmasına görə hara müraciət edəcəyiniz barədə bildiririk ki, əgər hələ də təhlükə mövcuddursa və kömək lazımdırsa, ilkin olaraq Fövqəladə Hallar Nazirliyinə (112, 113) müraciət edib kömək çağırın. Əgər həyətinizin (torpaq sahəsinin) və ya evinizin sığortası varsa, dərhal sığorta şirkəti ilə əlaqə saxlayın və baş vermis sığorta hadisəsini bildirin.

Dəymiş ziyan məsələsinə gəlincə, burada ilk növbədə zərərin rəsmi qeydiyyatı müəyyən edilməlidir, çünki gələcəkdə kompensasiya və ya iddia tələbi üçün bu, çox vacibdir. Odur ki, həyətin (torpaq sahəsinin) və ya evin yerləşdiyi ərazi üzrə bələdiyyəyə və ya rayon icra hakimiyyətinə müraciət edərək onlardan yağışdan sonra su basması ilə əlaqədar akt (protokol) tərtib etmələrini tələb edin. Tərtib edilmiş akt hadisənin mövcudluğu və ziyanın baş verməsi faktının rəsmi sənədi olacaq və gələcəkdə irəli sürüləcək iddialar üçün başlıca sənəd (sübut) sayılacaqdır. Həmçinin sübut qismində subasma nəticəsində zərər görmüş əşyaların şəkil və videolarını çəkmək çox faydalıdır.

Dəymiş ziyana görə məsuliyyət məsələsinə gəlincə, sadəcə güclü yağış nəticəsində yaranmış təbii fəlakətlərdə dövlətin birbaşa hər ziyana kompensasiya ödəmək məcburiyyəti yoxdur. Amma bəzi hallarda fövqəladə hallar nəticəsində böyük ziyan olduqda (məsələn, geniş daşqınlarda və s.), dövlət xüsusi qərarla zərərçəkmiş vətəndaşlara yardım və kompensasiya nəzərdə tuta bilər. Əgər belə bir xüsusi qərar mövcuddursa o zaman ondan yararlanmaq üçün ərazi üzrə müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilərsiniz.

Əgər zərər obyektiv olaraq sizin xaricinizdə, amma müəyyən bir şəxsin və ya qurumun məsuliyyətsizliyi (məsələn, kanalizasiya sisteminin düzgün işləməməsi, ərazidə düzgün qurulmamış drenaj şəbəkəsi, MTK və ya idarəetmə şirkətinin düzgün olmayan xidməti və s.) nəticəsində yaranıbsa, onda o şəxslərə qarşı mülki iddia qaldıra bilərsiniz.

*- Əmək Məcəlləsində dəyişiklik edilib. Yeni dəyişikliyə görə, azı 46 təqvim günü əmək məzuniyyəti verilən işçilərin sırasına Azərbaycan Respublikasının ən yüksək təltiflərinə layiq görülmüş şəxslər də daxildir.*

*Bilmək istəyirəm, əməkdar ad və "Tərəqqi" medalı bu kateqoriyaya aiddirmi? Ümumiyyətlə, "ən yüksək təltif" anlayışı altında konkret olaraq hansı dövlət mükafatları nəzərdə tutulur?*

***Musa ƏLİYEV,***
***Bakı şəhəri***

- Sualınıza cavab olaraq bildiririk ki, 16 yanvar 2026-cı il tarixli qanunun 1.70-ci bəndinə görə, Əmək Məcəlləsinin 120-ci maddəsi yeni redaksiyada verilmişdir. Belə ki, Əmək Məcəlləsinin 120-ci (Xüsusi xidmətləri olan işçilərin əmək məzuniyyətinin müddəti) maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə, 1990-cı ilin 20 Yanvar hadisələri ilə, hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə və ya Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar səbəblərdən əlilliyi olan işçilərə, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı adı almış işçilərə, döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçu olmuş işçilərə, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda xəsarət (yaralanma, travma, kontuziya) almış işçilərə, Azərbaycan Respublikasının Vətən Müharibəsi qəhrəmanlarına, Azərbaycanın Milli qəhrəmanlarına, Sovet İttifaqı qəhrəmanlarına, Azərbaycan Respublikasının ən yüksək təltifi ilə, İstiqlal ordeni ilə, habelə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi ilə bağlı digər dövlət təltifləri ilə təltif olunmuş işçilərə məzuniyyət 46 təqvim günündən az olmayaraq verilir.

Göründüyü kimi, normada Azərbaycan Respublikasının ən yüksək təltifi ilə təltif olunmuş işçilər də nəzərdə tutulmuşdur.

"Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" 10 noyabr 1992-ci il tarixli qanunun 1-ci bəndinə görə, Azərbaycan Respublikasının ən yüksək təltifi - "Heydər Əliyev" ordenidir. Odur ki, əməkdar ad və "Tərəqqi" medalı Azərbaycan Respublikasının ən yüksək təltifi hesab olunmur.

Bundan başqa, "Azərbaycan Respublikasının ən yüksək təltifi" ilə "Azərbaycan Respublikasının ən yüksək fərqlənmə dərəcəsi"ni və "Azərbaycan Respublikasının ən ali fərqlənmə dərəcəsi"ni də bir-birindən fərqləndirmək lazımdır. Belə ki, 12 iyul 1995-ci il tarixli qanunla təsdiq edilmiş ""Azərbaycanın Milli Qəhrəmanı" adı haqqında" Əsasnamənin 1-ci bəndinə görə, "Azərbaycanın Milli Qəhrəmanı" adı respublikanın ən yüksək fərqlənmə dərəcəsidir, Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir. Həmçinin 26 noyabr 2020-ci il tarixli qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı haqqında" Əsasnamənin 1-ci bəndinə əsasən, Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı Azərbaycan Respublikasının ən ali fərqlənmə dərəcəsidir.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

BEYNƏLXALQ HƏYAT

# Rusiya-Ukrayna: savaş masaya keçir?

**ABŞ Prezidenti Donald Trampın nümayəndələri - xüsusi elçi Stiv Uitkoff, Ağ Evin baş müşaviri Coş Qrünbaum və Amerika liderinin kürəkəni Cared Kuşner Kremldə qapalı qapılar arxasında Rusiya Prezidenti Vladimir Putinlə Ukraynada müharibəyə son qoymağın mümkün yolları ilə bağlı növbəti müzakirə üçün görüşüblər. Danışıqlar yanvarın 23-nə keçən gecə başa çatıb.**



Kreml Mətbuat xidmətinin məlumatına görə, görüş üç saat yarımdan çox davam edib. Vladimir Putinin köməkçisi Yuri Uşakov, Rusiya Birbaşa İnvestisiya Fondunun (RBİF) xüsusi nümayəndəsi və baş direktoru Kirill Dmitriyevin iştirak etdikləri danışıqlardan sonra Y.Uşakov media üçün brifinq keçirib. Onun dediyinə görə, Rusiya Prezidenti Vladimir Putin, ABŞ Prezidenti Donald Trampın xüsusi elçisi Stiv Uitkoff və sahibkar Cared Kuşner arasında keçirilən görüş olduqca məzmunlu, konstruktiv, son dərəcə səmimi və etibarlı olub. Y.Uşakov jurnalistlərə bildirib ki, görüş zamanı həm S.Uitkoff, həm də C. Kuşnerin şəxsən qatıldıqları ABŞ Prezidentinin Davosda Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü ilə bağlı təəssüratlarını birbaşa bölüşüblər. "Ümumiyyətlə deyərdim ki, Rusiya Prezidentinin ABŞ nümayəndələri ilə görüşü xüsusilə Amerikanın ukraynalılar və avropalı tərəfdaşlarla təmasları haqqında məlumat əldə etməyə və birlikdə gələcək fəaliyyət üçün parametrləri müəyyən etməyə yönəlmişdir", - deyə Y.Uşakov izah edib.

Tərəflər həmçinin Qəzza Sülh Şurası, Qrenlandiya və ikitərəfli münasibətlərin inkişafı məsələlərini müzakirə ediblər və Ukrayna və digər məsələlər üzrə sıx əlaqələr saxlamaq barədə razılığa gəliblər.

"Vladimir Putinin vurğuladığı kimi, biz Ukrayna böhranının siyasi və diplomatik yollarla həllində səmimi şəkildə maraqlıyıq. Lakin buna nail olana qədər Rusiya strateji təşəbbüsü əlində saxladığı döyüş meydanında xüsusi hərbi əməliyyat üçün müəyyən edilmiş məqsədləri ardıcıl olaraq həyata keçirməyə davam edəcək", - deyə Kremlin Mətbuat xidməti Y.Uşakovun sözlərini sitat gətirib.

V.Putinin görüş ərəfəsində verdiyi açıqlamalara istinadən TASS-ın yaydığı məlumata görə, tərəflər digər məsələlərlə yanaşı, Rusiyanın D.Tramp tərəfindən Fələstin-İsrail və digər münaqişələrin həlli üçün yaradılan "Sülh Şurası"na dəvət edilməsini, eləcə də ABŞ-də dondurulmuş Rusiya aktivlərinin taleyini müzakirə etməyi planlaşdırıblar. Daha əvvəl - yanvarın 21-də V. Putin Rusiyanın bu aktivlərdən 1 milyard dollarını "Sülh Şurası"na göndərə biləcəyini və qalan məbləği Rusiyanın Ukraynaya qarşı müharibəsi zamanı zərərçəkmiş ərazilərin bərpası üçün istifadə edə biləcəyini bildirib. Prezident bunun Kiyevin nəzarətində olan və ya Rusiya tərəfindən işğal edilmiş ərazilərə aid olduğunu dəqiqləşdirməyib.

Yanvarın 23-də axşam Əbu-Dabidə Rusiya-ABŞ-Ukrayna üçtərəfli təhlükəsizlik məsələləri üzrə İşçi qrupunun ilk iclası başlayıb. Uzun müddətdən sonra ilk dəfə olaraq Moskva və Kiyev nümayəndələri birbaşa görüşüblər. BƏƏ-də iki gün davam edəcək danışıqlarda ABŞ vasitəçi kimi çıxış edir.

Bu arada Prezident Volodimir Zelenski Əbu-Dabidə Rusiya və Amerika tərəfləri ilə danışıqlarda iştirak edəcək Ukrayna nümayəndə heyətini genişləndirib. Heyətə Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin rəis müavini Vadim Skibitski də daxil olunub. "Mən komandanı genişləndirmişəm. Əlbəttə ki, danışıqlarda nümayəndə heyətinin rəhbəri Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov, Prezident ofisinin rəhbəri Kirilo Budanov, hakim "Xalq xidmətçisi" Partiyasının parlament fraksiyasının rəhbəri David Araxamiya, Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Andrey Qnatov, Prezident ofisinin rəhbərinin birinci müavini Sergey Kislitsa və daha bir neçə nəfər iştirak edəcək", - deyə V.Zelenski Ukrayna mediasına bildirib. O həmçinin etiraf edib ki, həmişə avropalı tərəfdaşların danışıqlarda iştirak etməsini arzulayıb, lakin yanvarın 23-24-də keçiriləcək görüşlər üçtərəfli olacaq. V. Zelenski qeyd edib ki, ərazi məsələsi danışıqların əsas mövzusu olacaq və danışıqlardan sonra avropalı müttəfiqlərinə hesabat verəcək.

Daha əvvəl İtaliyanın "Corriere della Sera" qəzeti mənbələrə istinadən Rusiya, ABŞ və Ukraynanın danışıqlar qruplarının Əbu-Dabidə keçiriləcək görüşündə sülh müqaviləsinin əsası olacaq gözlənilən dörd sənədin təqdim ediləcəyini bildirib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hava proqnozu açıqlanıb



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yanvarın 24-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 23-dən 24-nə keçən gecə bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 1-3, gündüz 5-10 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85, gündüz 65-70 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 0-5 dərəcə şaxta, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 5-10, gündüz 0-5 dərəcə şaxta olacaq.

Gecə və səhər bəzi yollar buz bağlayacaq.

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2014-cü il tarixdə Musa Həsən oğlu Gülüşovun adına verilmiş Abşeron rayonu, Yeni Yaşayış kompleksində yerləşən bina 58, 3 nömrəli ikiotaqlı mənzilə dair sənədlər itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3240
Sifariş 92

Qiyməti 60 qəpik